Yeddinci çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

Birinci sessiya
Payız

3-cü cild

8 oktyabr 2024-cü il

Milli Məclisin nəşri
Bakı – 2024

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

# YEDDİNCİ ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# I SESSİYASI İCLASININ

# PROTOKOLU № 4

*Milli Məclisin iclas salonu.*
*8 oktyabr 2024-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 118 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.02 dəq.) |
| İştirak edir | 118 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Çingiz Əsgərov**, Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin müavini.

**Kərəm Mansurov**, Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurası Aparatının rəhbəri.

**İlqar Xanlar oğlu Cəfərov**, Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Sərvər Yaqub oğlu Vəliyev**, Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Vüsalə Ələkbər qızı Baxışova**, Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Raqib Əliddin oğlu Qurbanov**, Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Zamiq Xudaverdi oğlu Əliyev**, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Leyla Rauf qızı Əliyeva**, Bakı Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Zamin Vəliyəddin oğlu İbrahimov**, Bakı Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Faiq Əsəd oğlu Qəniyev**, Bakı Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Təranə Nəriman qızı Mahmudova**, Bakı Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Ceyhun Bəşir oğlu Məmmədov**, Bakı Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Əli İrfan oğlu Məmmədov**, Bakı Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Nigar Xeyrulla qızı Nəbizadə**, Bakı Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Günay İsmayıl qızı Cavadova**, Gəncə Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Sevindik Əziz oğlu Əzizov**, Gəncə Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Rüfət Azadəli oğlu Məcidov**, Gəncə Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Müşfiq Vaqif oğlu Məmmədov**, Gəncə Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Toğrul Bəhruz oğlu Axundov**, Sumqayıt Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Vəfa Ehtiram qızı Əzizova**, Sumqayıt Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Vahid Məcid oğlu Hacıyev**, Sumqayıt Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Zülfüqar Əhməd oğlu Sadiqov**, Şəki Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Zamin Cəbrayıl oğlu Tahirov**, Şəki Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Qasım Vəli oğlu Əliyev**, Şirvan Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Mahir Abdulla oğlu Əsədli**, Şirvan Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Aytən Nazim qızı Novruzova**, Şirvan Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

## İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:

1. Azərbaycan Respublikası Ali Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında.
2. Z.X.Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi təyin edilməsi haqqında.
3. Bakı Apellyasiya Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında.
4. Gəncə Apellyasiya Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında.
5. Sumqayıt Apellyasiya Məhkəməsi hakimlərinin təyin və vəzifədən azad edilməsi haqqında.
6. Şəki Apellyasiya Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında.
7. Şirvan Apellyasiya Məhkəməsi hakimlərinin təyin və vəzifədən azad edilməsi haqqında.
8. "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" və "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya qanunlarında dəyişiklik edilməsi barədə Konstitusiya Qanunu (II səsvermə).
9. "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə

Konvensiyasının, Kioto Protokolunun və Paris Sazişinin Katibliyi arasında Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının iyirmi doqquzuncu sessiyası, Kioto Protokolunun Tərəflər Görüşünün on doqquzuncu sessiyası, Paris Sazişinin Tərəflər Görüşünün altıncı sessiyası və Köməkçi Orqanların sessiyaları haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

10. "Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında 2007-ci il 2 may tarixli Sazişə əlavə və dəyişikliklər edilməsinə dair Protokol"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

11. "Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında 2007-ci il 2 may tarixli Sazişə əlavə və dəyişikliklər edilməsinə dair Protokol"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

12. "Azərbaycan Respublikası Hökuməti ilə Moldova Respublikası Hökuməti arasında readmissiya haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

13. "Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişi"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.

14. "Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında Tranzit Ticarət Sazişi"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.

15. “Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş”in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.

16. “Avropa Yenidənqurma və İnkişaf Bankının təsis edilməsi haqqında” Sazişdə dəyişikliklərin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

17. “Balıqçılıq haqqında”, “Heyvanlar aləmi haqqında”, “Ətraf mühitin mühafizəsi haqqında” və “Ovçuluq haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

18. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, “Sosial sığorta haqqında” və “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

19. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.

20. “Qida təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bir sıra qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

21. “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında”, “Kitabxana işi haqqında”, “Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında” və “Poçt haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

22. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində və “Dövlət rüsumu haqqında” Azərbaycan Respubli-

kasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

23. "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Konstitusiya Məhkəməsi haqqında" və "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

24. "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

25. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

26. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

27. "Bələdiyyələrin statusu haqqında" və "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

28. Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi haqqında.

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Erkin Qədirli, Bəhruz Məhərrəmov, Siyavuş Novruzov, Əli Əhmədov, Bəxtiyar

Əliyev, Ziyafət Əsgərov, Razi Nurullayev, Musa Qasımlı, Azər Badamov, Vüqar Bayramov, Səməd Seyidov, Vüqar İskəndərov, Tural Gəncəliyev, Elman Nəsirov

**Təklif:** Gündəlik qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.04 dəq.) |
|---|---|
| Lehinə | 114 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 116 |

Nəticə: Qəbul edildi

**1. Azərbaycan Respublikası Ali Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Razi Nurullayev, Qüdrət Həsənquliyev, Hikmət Məmmədov, Siyavuş Novruzov, Bəhruz Məhərrəmov

**Təklif:** Qərar qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 4 |
| İştirak edir | 113 |

Nəticə: Qəbul edildi

**2. Z.X.Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi təyin edilməsi haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.10 dəq.) |
| Lehinə | 115 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 115 |

Nəticə: Qəbul edildi

**3. Bakı Apellyasiya Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.10 dəq.) |
| Lehinə | 113 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 114 |

Nəticə: Qəbul edildi

**4. Gəncə Apellyasiya Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.11 dəq.) |
| Lehinə | 114 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 115 |
| Nəticə: Qəbul edildi | |

**5. Şəki Apellyasiya Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.11 dəq.) |
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 114 |
| Nəticə: Qəbul edildi | |

**6. Şirvan Apellyasiya Məhkəməsi hakimlərinin təyin və vəzifədən azad edilməsi haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.12 dəq.) |
| Lehinə | 116 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 117 |
| Nəticə: Qəbul edildi | |

**7. Sumqayıt Apellyasiya Məhkəməsi hakimlərinin təyin və vəzifədən azad edilməsi haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Çingiz Əsgərov

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.12 dəq.) |
| Lehinə | 117 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 117 |

Nəticə: Qəbul edildi

**8. “Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” və “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya qanunlarında dəyişiklik edilməsi barədə Konstitusiya Qanunu (II səsvermə).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
| Lehinə | 114 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 115 |

Nəticə: Qəbul edildi

**9. “Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının, Kioto Protokolunun və Paris Sazi-**

**şinin Katibliyi arasında Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının iyirmi doqquzuncu sessiyası, Kioto Protokolunun Tərəflər Görüşünün on doqquzuncu sessiyası, Paris Sazişinin Tərəflər Görüşünün altıncı sessiyası və Köməkçi Orqanların sessiyaları haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Sadiq Qurbanov, Səməd Seyidov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 112 |

Nəticə: Qəbul edildi

**10. "Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında 2007-ci il 2 may tarixli Sazişə əlavə və dəyişikliklər edilməsinə dair Protokol"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Rzayev, Səməd Seyidov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
| Lehinə | 111 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |

Nəticə: Qəbul edildi

**11. "Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında 2007-ci il 2 may tarixli Sazişə əlavə və dəyişikliklər edilməsinə dair Protokol"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 3 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**12. "Azərbaycan Respublikası Hökuməti ilə Moldova Respublikası Hökuməti arasında readmissiya haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Sabir Hacıyev, Rizvan Nəbiyev

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
|---|---|
| Lehinə | 112 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 112 |

Nəticə: Qəbul edildi

**13. "Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişi"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov, Fariz İsmayılzadə

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.45 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 112 |

Nəticə: Qəbul edildi

**14. "Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında Tranzit Ticarət Sazişi"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.46 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 1 |
| İştirak edir | 112 |

Nəticə: Qəbul edildi

**15. "Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş"in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.46 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |

Nəticə: Qəbul edildi

**16. "Avropa Yenidənqurma və İnkişaf Bankının təsis edilməsi haqqında" Sazişdə dəyişikliklərin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov, Səməd Seyidov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.50 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

**17. “Balıqçılıq haqqında”, “Heyvanlar aləmi haqqında”, “Ətraf mühitin mühafizəsi haqqında” və “Ovçuluq haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Sadiq Qurbanov, Tahir Rzayev

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.52 dəq.) |
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

**18. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, “Sosial sığorta haqqında” və “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov, Musa Quliyev, Məlahət İbrahimqızı

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.57 dəq.) |
| Lehinə | 112 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 113 |

Nəticə: Qəbul edildi

**19. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.59 dəq.) |
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 113 |

Nəticə: Qəbul edildi

**20. "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bir sıra qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Arzu Nağıyev, Qüdrət Həsənquliyev

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
| Lehinə | 113 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs verмədi | 1 |
| İştirak edir | 114 |

Nəticə: Qəbul edildi

**21. “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında”, “Kitabxana işi haqqında”, “Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında” və “Poçt haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəhruz Məhərrəmov, Polad Bülbüloğlu, Anar İsgəndərov, Azər Əmiraslanov, Qüdrət Həsənquliyev, Hicran Hüseynova, Musa Quliyev, Nigar Məmmədova, Hikmət Məmmədov, Erkin Qədirli

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.20 dəq.) |
|---|---|
| Lehinə | 113 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 114 |

Nəticə: Qəbul edildi

**22. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində və “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nurlan Həsənov, Azər Əmiraslanov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.23 dəq.) |
| Lehinə | 114 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 114 |

Nəticə: Qəbul edildi

**23. "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Konstitusiya Məhkəməsi haqqında" və "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov, Arzu Nağıyev, Qüdrət Həsənquliyev, Əminə Ağazadə

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.34 dəq.) |
| Lehinə | 116 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 117 |

Nəticə: Qəbul edildi

**24. "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Polad Bülbüloğlu, Azər Əmiraslanov, Aydın Mirzəzadə

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.41 dəq.) |
|---|---|
| Lehinə | 117 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 117 |

Nəticə: Qəbul edildi

**25. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nizami Səfərov, Qüdrət Həsənquliyev, Hicran Hüseynova, Erkin Qədirli, Hikmət Məmmədov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.55 dəq.) |
|---|---|
| Lehinə | 117 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 117 |

Nəticə: Qəbul edildi

**26. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov, Zahid Oruc, Sahib Alıyev

| | |
|---|---|
| **Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 14.09 dəq.) |
| Lehinə | 113 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 114 |
| Nəticə: Qəbul edildi | |

**27. "Bələdiyyələrin statusu haqqında" və "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Siyavuş Novruzov

| | |
|---|---|
| **Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 14.14 dəq.) |
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

**28. Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Səməd Seyidov, Aydın Mirzəzadə

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.18 dəq.) |
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*8 oktyabr 2024-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli deputatlar. Mən hörmətli jurnalistlərimizi də, qonaqlarımızı da salamlayıram. Hörmətli deputatlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.02 dəq.) |
| İştirak edir | 118 |
| Yetərsay | 83 |

Çox sağ olun, yetərsay var, iclasa başlaya bilərik.

Hörmətli deputatlar, yəqin, mətbuatda tanış olmusunuz, Milli Məclisin deputatları ölkəmizin xarici işlər naziri Ceyhun Bayramova müraciət edərək ABŞ Konqresinin bir qrup üzvünün həmin ölkənin dövlət katibinə məlum məktubu ilə əlaqədar narahatlıqlarını bildirmişlər. Xüsusi ilə qeyd etmək istərdim ki, Azərbaycan hər zaman beynəlxalq münasibətlər sisteminin məsuliyyətli üzvü, etibarlı

tərəfdaş kimi çıxış edib və biz ölkəmizin belə mövqeyi ilə fəxr edirik. Azərbaycanın etibarlı tərəfdaş kimi fəaliyyəti həm ayrı-ayrı dövlətlərlə ikitərəfli münasibətlərdə, həm də dünyanı narahat edən qlobal problemlərin həllinə verdiyi töhfələrdə özünü açıq şəkildə göstərir. COP29-a ev sahibliyi və bu çərçivədə aparılan işlər də bunun bariz nümunəsidir. Ölkəmizin sülh, sabitlik və əməkdaşlıq üçün göstərdiyi yorulmaz səylər danılmazdır.

Onu da nəzərə almaq lazımdır ki, Azərbaycan müstəqil daxili və xarici siyasət həyata keçirən, yalnız öz milli maraqlarını əsas götürən, ərazi bütövlüyünü və suverenliyini öz gücünə təmin edən ölkədir və mən bu çərçivədə möhtərəm cənab Prezidentin bir kəlamını xatırlatmaq istəyirəm. "Heç kim bizə heç nə diktə edə bilməz və bizim daxili işlərimizə müdaxilə edə bilməz. Nəyi lazım biliriksə, biz onu da edəcəyik".

Hörmətli həmkarlar, gündəlik sizə paylanıb, xahiş edirəm, gündəliyin qəbul olunmasına münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.04 dəq.) |
|---|---|
| Lehinə | 114 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 116 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik qəbul edildi.

Hörmətli həmkarlar, həmişə olduğu kimi, bizim 30 dəqiqəmiz var, ya gündəliklə bağlı, ya da gündəmdə olan məsələlərlə bağlı 10 nəfər çıxış edə bilər. Kim çıxış etmək

istəyirsə, xahiş edirəm, yazılın. Buyurun.

Fərid müəllim, xahiş edirəm, həmişə olduğu kimi, deyin, 10 nəfərin adı qalsın. Erkin Qədirli. Erkin müəllim, sualdırmı, çıxışdırmı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Sualdır? Buyurun.

**Erkin Qədirli.** Mən suala yazılmışdım, amma gündəlik səsverməyə qoyulmazdan öncə. Mənim gündəliklə bağlı bir iradım var idi. Gündəlik isə qəbul olundu, ona görə bilmirəm, bəlkə də artıq yersizdir, daha doğrusu, gecdir. Müvafiq bəndlər müzakirə olunanda söz alaram.

**Sədrlik edən.** Təəssüf olsun ki, gündəlik artıq qəbul olundu. Ancaq hansı isə bir fikriniz varsa, sonra yenə də çatdıra bilərsiniz, gələcəkdə nəzərə alına bilər. Bəhruz Məhərrəmov. Bəhruz müəllim, buyurun.

**Bəhruz Məhərrəmov**. Təşəkkür edirəm. Hörmətli sədr, əziz həmkarlar! Amerika Birləşmiş Ştatlarının davranışları göstərir ki, cənab İlham Əliyevin parlamentin tribunasından ifadə etdiyi kimi, biz Zəfərimizlə, həqiqətən də, sarsılmaz hesab olunan daşları tərpətmişik.

Aqressiv tövrləri ilə Amerika Birləşmiş Ştatları etiraf edir ki, əslində, Vətən müharibəsi və antiterror əməliyyatlarında məğlub olan tərəf elə həm də Vaşinqton özüdür. Bu, elə bir ağır məğlubiyyət olub ki, Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti konqresmenlərin dili ilə öz-özünə məktub yazacaq duruma düşüb. Biz heç vaxt Birləşmiş Ştatlara düşmən gözü ilə baxmamışıq. Əksinə, Azərbaycan Amerika Birləşmiş Ştatları ilə münasibətlərin hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurulmasında və inkişafında daim maraqlı olub, bu gün də maraqlıdır.

Amma Vaşinqton açıq formada göstərir ki, onun bu

bölgədə güclü müttəfiqə deyil, sözəbaxan marionetə ehtiyacı var. Çünki Amerika Birləşmiş Ştatları indiyə qədər dünyanın dörd bir yanında maraqlarını bu cür hərbi-siyasi cinayətlər yolu ilə təmin edib. Amma ötən dövrdə Amerika Birləşmiş Ştatlarının "rəngli inqilablar" seriyası Azərbaycanda necə daşa dirəndisə, Ağ Evin münaqişə idxalı da məhz Azərbaycanda iflasa uğrayıb.

Azərbaycan Prezidenti işğala, təcavüzə və separatizmə son qoymaqla bu bölgədə münaqişə və uzunmüddətli vədədə müharibə perspektivini heçə endirib. Amerika Birləşmiş Ştatları məhz buna görə Ermənistanla Azərbaycan arasında yarımçıq sülh müqaviləsinin tələsik imzalanmasında maraqlıdır və istənilən an bu müqavilənin rahatlıqla pozulub münaqişəyə çevrilməsi imkanı əldə etmək istəyir.

Məhz bu qəbildən 30 il işğalçı, təcavüzkar kimi adı beynəlxalq sənədlərdə təsbit olunan Ermənistan sülh təşəbbüskarı kimi təqdim olunmağa başlayıb. Ermənistan sülh təşəbbüskarı idisə, niyə işğala könüllü son qoymurdu? Xocalıda  insanlara divan tutan, Qarabağı, Şərqi Zəngəzuru yerlə yeksan edən, Gəncəni, Bərdəni, Tərtəri gecə ilə raket atəşinə tutan cinayətkarları hansı əsasla və hansı motivasiya ilə müdafiə edirlər?

Ermənistan dinc münasibətlərdə maraqlıdırsa, 350 minlik Qərbi Azərbaycan icmasının bir fərdi belə niyə öz yurduna ayaq basa bilmir?

Bu prosesdə təəssüf doğuran digər məqam Azərbaycan daxilində bəzi ünsürlərin yenidən Vaşinqtonun alətinə çevrilməsidir. 15-20 il əvvəl pencəyin üzərindən narıncı "tişört" geyib guya inqilab etmək istəyən o görməmiş ünsürlər bu gün yenidən aktivləşib. Təbii ki, dövlət başçımızın da ifadə etdiyi kimi, daxildən bizə heç bir

təhdid yoxdur. Bu ünsürlər isə, ümumiyyətlə, ikrah doğuran iyrənc tiplərdir ki, sadəcə, özləri özlərini ifşa etməklə məşğuldurlar.

Ona görə Amerika Birləşmiş Ştatları nə onlara, nə hər hansı digər uydurduğu konfiqurasiyaya inanmamalı və hər hansı formada heç nəyə ümid etməməlidir. Anlamalıdır ki, bu bölgədə yalnız və yalnız bərabərhüquqlu əməkdaşlıq formatında mövcudiyyətini və maraqlarını təmin edə bilər. Regionun hərbi-siyasi güc mərkəzi kimi Azərbaycan milli maraqlarımıza zidd hər hansı konfiqurasiyanın formalaşmasına imkan verməyəcək. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Siyavuş Novruzov. Siyavuş müəllim, buyurun.

**Siyavuş Novruzov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Cənab Prezidentin Cəbrayılda açılış mərasimindəki çıxışından da görünür ki, Azərbaycanın apardığı tikinti, quruculuq işləri, müstəqil siyasət, cənab Prezidentin Azərbaycan xalqını, Azərbaycan dövlətinin maraqlarını bütün dünya ölkələri qarşısında yüksək səviyyədə və ləyaqətlə təmsil etməsi və bu xalqın haqqını heç kəsə verməməsi bir çox adamları, bir çox dövlətləri narahat edir. Bu dövlətlər digər bölgələrdə olduğu kimi, Cənubi Qafqazda da müharibə alovunu yenidən dalğalandırmaq istəyirlər. Bunlardan biri də, qeyd olunduğu kimi, Amerika Birləşmiş Ştatlarıdır.

60 nəfər konqresmenin müraciəti ilə əlaqədar bir fikri söyləyim ki, son 50 ildə Amerika Birləşmiş Ştatları dünyada baş verən müharibələrdə ya dolayısı ilə, ya da birbaşa iştirak edib. Vyetnam müharibəsindən üzü bəri və soyuq müharibə bitdikdən, Sovetlər Birliyi dağıldıqdan sonra ölkələrin daxili işlərinə qarışması, orada xırda-xırda dövlətlər yaradıb, öz səfirləri vasitəsi ilə idarəetmə me-

xanizminə keçməsi Amerikanın birbaşa vəzifəsidir. O artıq Corc Vaşinqtonun, Linkolnun yaratdığı insan hüquqları, demokratiya prinsiplərindən kənara çəkilib, sırf işğalçılıq, qantökmə siyasəti ilə məşğul olur. Bu tökülən qanların böyük hissəsinin məsuliyyəti həmin dövlətin üzərinə düşür. Bu gün ərəb ölkələrində, başqa-başqa yerlərdə insanlar qırılır. Dünyanın bütün qitələrinə nəzər salsan, oradan Amerikanın barmağı çıxacaq. Mən hesab edirəm ki, artıq Cənubi Qafqaza da meyil etməyə başlayıbdır. Lakin burada, Cənubi Qafqazda Azərbaycan dövləti ömür boyu müstəqil siyasət həyata keçiribdir. Bundan sonra da həyata keçirəcək.

Zəngəzur dəhlizinin açılmaması və ora insanların gizli yeridilməsi, o cümlədən keçmişdə Dağlıq Qarabağa, indi isə Ermənistana birbaşa yardımların edilməsi Amerika Birləşmiş Ştatlarının bu münaqişənin həllinə verdiyi dırnaqarası töhfələrdəndir. O baxımdan da, hesab edirəm ki, bu məsələlərin heç biri baş tutmayacaqdır. Buradakı havadarlarına da deyirəm, o canlı fəaliyyət göstərməyən, TikToker Əli Kərimlidir, onun ətrafında olan o vətən xainləridir, vətənə xainlik edən insanlardır ki, onların arzuları, istəkləri də  baş tutmayacaq. Az qala o 60 nəfəri milli qəhrəmana çevirməyə çalışırlar. Ona görə də bu məsələ Azərbaycanın xeyrinə öz həllini tapacaq.

**Sədrlik edən.** Sağ olun, Siyavuş müəllim. Hörmətli həmkarlar, Əli müəllim söz istəyib. Əli müəllim, buyurun.

**Əli Əhmədov**. Çox sağ olun, Sahibə xanım. Düşünürəm ki, Azərbaycan Respublikası Milli Məclisinin bir qrup üzvünün Amerika Konqresinin üzvlərinin Azərbaycana qarşı sanksiya tətbiq etməklə əlaqədar müraciətinə və çağırışlarına cavab məktubunu nəinki təkcə Azərbaycan Milli Məclisinin, bütövlükdə, Azərbaycan cəmiyyətinin və

Azərbaycan xalqının iradəsi və adekvat cavabı kimi qiymətləndirmək olar. Düşünürəm ki, bizim hamımız bu mövqedə dayanırıq. Hər birimizin bu məsələ ilə əlaqədar mövqeyimiz cənab İlham Əliyevin bir neçə gün bundan əvvəl geniş müsahibəsində səsləndirdiyi fikirlərdən və çox dəyərli ideyalardan irəli gəlir.

Hesab edirəm ki, bu məsələ ilə əlaqədar mənim qeyd etmək istədiyim üç məqama xüsusi diqqət yetirmək önəmli olardı. Bunun biri ondan ibarətdir ki, ötən əsrin 90-cı illərində birqütblü dünyanın yaranmasının ən əsas qurbanlarından biri beynəlxalq hüquq sistemi oldu. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, Amerika Birləşmiş Ştatları indi özünü dünyanın hüquq sisteminin və beynəlxalq münasibətlərin yeganə subyekti hesab edir. Nə zaman ki, dünya ağalığı fikrinə düşənlər meydana gəlirlər, bəşəriyyət faciələrlə üzləşir. Tarix həmişə belə olubdur. Çox təəssüf hissi ilə qeyd etmək lazımdır, Siyavuş Novruzov bunu qeyd etdi, indi dünyanın ayrı-ayrı ölkələrində baş verən faciələrin yeganə bir səbəbi ondan ibarətdir ki, hansı isə bir dövlət özünün subyektiv iradəsini bütün dünyaya və bəşəriyyətə qəbul etdirmək istəyir. Bu isə ölkələrin dağılması, yüz minlərcə insanın həlak olması ilə nəticələnibdir.

İkinci qeyd etmək istədiyim məqam ondan ibarətdir ki, Azərbaycana qarşı sanksiya tətbiq etmək cəhdləri və bəzi hallarda belə cəhdlərin həyata keçirilməsi də olubdur. Azərbaycan üçün yeni deyil, ötən əsrin 90-cı illərində, Azərbaycanın ağır zamanlarında Amerika Birləşmiş Ştatlarının Konqresi tərəfindən qəbul olunan 907-ci düzəliş Azərbaycanın əl-qolunu bağlamaq və Azərbaycan torpaqlarının işğalını rəsmiləşdirmək ideyasına xidmət edirdisə, bu, hər hansı bir nəticəni vermədi. Azərbaycan xalqı öz

torpaqlarını işğaldan da azad etdi, möhkəmləndi, qüdrətləndi, kifayət qədər ciddi, möhkəm bir orduya sahib olubdur. Əgər 1990-cı illərdə müəyyən qədər zəif olan Azərbaycana qarşı tətbiq edilən sanksiya Azərbaycanı öz haqq yolundan döndərə bilmədisə, hesab edirəm ki, indi artıq qalib Azərbaycanı, qüdrətli ordusu olan Azərbaycanı, güclü iqtisadiyyatı olan Azərbaycanı hər hansı bir sanksiya ilə öz düzgün yolundan döndərmək mümkün deyildir.

Demək istədiyim üçüncü məqam isə ondan ibarətdir ki, tarixin ayrı-ayrı dönəmlərində ermənilərin rəhbərləri, onlara yol göstərənlər ikinci, üçüncü dövlətlərin dəstəyi ilə ermənilərə "günəş altında yer" tapmağa çalışıblar və bütün bunların hamısı ermənilər üçün faciə ilə nəticələnib. Hesab edirəm, son tarix və bizim hamımızın şərəflə, qürurla qeyd etdiyimiz tarix də, çox təəssüf ki, ermənilər üçün, görünür, bir ağıllı dərs olmayıbdır. Heç başqa dövlətlərin və başqalarının qızışdırdığı ocağa maşa tutanlar üçün başucalığı gətirməyib və nəticə etibarı ilə onlar elə o ocağın da qurbanına çevriliblər.

Azərbaycan bütün dövlətlərlə sülh, əmin-amanlıq və qarşılıqlı fayda əsasında fəaliyyət göstərmək modeli təklif edir. Cənubi Qafqazda Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın həyata keçirdiyi siyasətin də mahiyyəti sülh, əmin-amanlıq və təhlükəsizlikdən ibarətdir. İnanıram ki, bu günə qədər Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət qalib gəldiyi kimi, bu ideyalar üzərində qurulan siyasət də qalib gələcəkdir və Azərbaycanı nə sanksiya ilə, nə hansı isə təhdidlərlə öz yolundan döndərmək mümkün deyildir. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Əli müəllim.

Bəxtiyar Əliyev. Bəxtiyar müəllim, xatırladım, 3 dəqiqə. Buyurun.

**Bəxtiyar Əliyev**. Təşəkkür edirəm. Hörmətli sədr, hörmətli deputatlar! Əlbəttə, Milli Məclisin deputatlarının Amerika konqresmenlərinin Azərbaycana qarşı şər-böhtan dolu bəyanatlarına öz münasibətini bildirməsi, eyni zamanda, Azərbaycan xalqının, seçicilərimizin münasibətinin ifadəsidir.

Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi siyasət müstəqil Azərbaycan dövlətinin daha da möhkəmləndirilməsinə, demokratiyanın inkişafına, Azərbaycan xalqının bütün hüquq və azadlıqlarının təmin edilməsinə yönəlibdir. Məhz bu siyasətin nəticəsində 30 il Ermənistanın işğalı altında olan torpaqlarımız azad edilib, separatizmin kökü birdəfəlik kəsilib, ərazi bütövlüyümüz və suverenliyimiz tam bərpa edilibdir. Ona görə də bu siyasəti Azərbaycan xalqı dəstəkləyir və bundan sonra da dəstəkləyəcəkdir.

Onu qeyd etmək istərdim ki, Amerika Birləşmiş Ştatlarının müəyyən dairələrinin və hakim təbəqəsinin münasibəti riyakarlıqla doludur. Belə ki, hələ 1993-cü ildə BMT-nin Təhlükəsizlik Şurasında sonra dövlət katibi olmuş Madlen Olbrayt məhz Ağdamın Ermənistan tərəfindən işğalı ilə bağlı qətnaməni oxuyurdu və qeyd edirdi ki, dərhal bu işğalçı qoşunlar qeyd-şərtsiz çıxarılmalı və məcburi köçkünlər öz yerinə qaytarılmalıdır. 2000-ci ildə Amerikanın artıq tarixin arxivinə atılmış Minsk qrupundakı nümayəndəsi Kerri Kavano Ağdam məscidindən bir parça daşı Ulu Öndər Heydər Əliyevə təqdim edərkən demişdi ki, bu torpaqlar geri qaytarılacaq və ümidvaram, məscid bərpa ediləcək.

Bəli, Azərbaycan öz gücü ilə, qəhrəman, igid əsgər və zabitlərinin döyüş meydanında mərdi-mərdanə döyüşməsi nəticəsində bu torpaqları azad etdi. Bəs yaxşı, bu sözləri

deyən həmin amerikalı şəxslər bu gün hansı mövqeni sərgiləyirlər? Bu, riyakarlıq deyilmi?

Azərbaycan özü ədaləti bərpa etdi. Baxmayaraq ki, üzdəniraq Minsk qrupunun həmsədrləri başda Amerika Birləşmiş Ştatları və Fransa olmaqla bu işi görməli idilər. Eyni zamanda, bu prosesə bir dələduz da qoşulub və rəhbərlik edir. Luis Moreno Okampo hələ bu ilin iyul-avqust aylarında dəfələrcə çağırış etdi ki, COP29 ərəfəsində biz Azərbaycana qarşı öz hücumlarımızı daha da gücləndirməliyik. Bütün bunlarda məqsəd Azərbaycana şər-böhtan atmaqdır, Azərbaycanın imicini ləkələməkdir. Amma bu, heç kimə müyəssər olmayacaqdır. Azərbaycan xalqının iradəsini sarsıtmaq mümkün deyil və bu gün xalq–iqtidar birliyi Azərbaycanın gələcəyini, təhlükəsizliyini və Qafqazda təhlükəsizliyi təmin edəcək. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Ziyafət müəllim də çıxış üçün xahiş etdi. Buyurun, Ziyafət müəllim. Ziyafət Əsgərov.

**Ziyafət Əsgərov**. Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar! Mən digər bir məsələ ilə bağlı fikrimi sizinlə bölüşmək istəyirəm. Bildiyiniz kimi, 2024-cü il oktyabrın əvvəlində ATƏT-in Varşavada keçirilən İnsan ölçüsü Konfransında ABŞ dövlət katibinin demokratiya, insan haqları və əmək məsələləri üzrə köməkçisi Dafna Rand ABŞ tərəfindən Dağlıq Qarabağda beynəlxalq humanitar hüququn və insan hüquqlarının iddia edilən pozuntularının nəzərdən keçirilməsi və davam etdiyi barədə fikirlərinin əks olunduğu bəyanat səsləndirmişdir. ABŞ dövlət rəsmisinin səsləndirdiyi birtərəfli və qərəzli fikirlər tamamilə qəbuledilməzdir. İlk növbədə Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə qarşı

hörmətsizlikdir. Mən buradan həmin dövlət rəsmilərinə, eləcə də digərlərinə səslənirəm, “Dağlıq Qarabağ” adlı anlayış yoxdur. Qarabağ var və o da tarixən Azərbaycan ərazisi olub və hər zaman da Azərbaycanın olacaqdır.

Təəssüflər olsun ki, bu cür bəyanatlar ilk öncə Azərbaycan və ABŞ arasında ikitərəfli və çoxtərəfli formatlarda davam edən uzunmüddətli münasibətləri zərbə altına alır. Ötən illərə nəzər salaq. ABŞ Prezidenti tərəfindən möhtərəm Prezident İlham Əliyevə 28 May – Müstəqillik Günü, eləcə də 2024-cü il 3-5 iyun tarixlərində Bakı Enerji Həftəsinin keçirilməsi münasibəti ilə ünvanlanan məktublarda Ağ Ev rəsmən Azərbaycanla Ermənistan arasında sülh sazişinin qısa zamanda imzalanmasında maraqlı olduğunu və sülh sazişinin imzalanması ilə Azərbaycanın regionda rolunun əsaslı şəkildə dəyişəcəyini, bu mənada Azərbaycanın bölgədə liderliyini qəbul edəcəyini bildirmişdir. Əlbəttə, mən bu faktı əbəs yerə xatırlatmadım. ABŞ hökuməti Qarabağda beynəlxalq humanitar hüququn və insan hüquqlarının iddia edilən pozuntularını nəzərdən keçirməklə Azərbaycana qarşı növbəti dəfə ikili standartlar nümayiş etdirərək öz saxta, ikiüzlü və riyakar mövqeyini ortaya qoyur. ABŞ rəsmilərinin Azərbaycan əleyhinə səsləndirdiyi bu iddialar separatizmin və Ermənistan daxilindəki revanşist qüvvələrin təşviqindən başqa bir şey deyil.

Sual olunur: niyə 30 ilə yaxın müddət ərzində ABŞ Ermənistan–Azərbaycan münaqişəsinin həllində vasitəçi ölkələrdən biri olaraq Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin Ermənistan tərəfindən işğal altında saxlanılmasına, şəhər və kəndlərimizin viran qoyulmasına, tarix, mədəniyyət və dini abidələrimizin, o cümlədən məscidlərimizin dağıdılmasına göz yumdu? Niyə Azər-

baycanın suverenliyinin və ərazi bütövlüyünün dəstəklənməsini, etnik təmizlənmənin qurbanı olmuş 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünlərin hüquqlarının müdafiəsi və humanitar yardım göstərilməsi məsələsini dünya birliyi qarşısında bu qədər qətiyyətlə təşviq etmədi? Beynəlxalq öhdəliklərə uyğun olaraq, o cümlədən BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi çərçivəsində Azərbaycan ərazilərinin işğaldan azad edilməsinə, Ermənistan silahlı qüvvələrinin Qarabağdan qeyd-şərtsiz çıxarılmasına, o cümlədən erməni qondarma rejiminin ləğvinə çağırışlar etmədi?

Əlbəttə, ABŞ və digər vasitəçilərin beynəlxalq hüququ heçə saymaları, Azərbaycana, habelə beynəlxalq sülh və təhlükəsizliyə qarşı təhdidlərə laqeyd münasibəti Azərbaycanı öz torpaqlarını "dəmir yumruq" və hərbi güc yolu ilə azad etməyə sövq etdi.

Lakin təəssüflər olsun ki, Azərbaycan bu günə qədər erməni vandalizminin ağır və acı nəticələri ilə üzləşir. Ermənistan 30 il ərzində Azərbaycana qarşı nəinki etnik terror, eyni zamanda, ekoloji terror siyasəti həyata keçirib. İşğaldan azad olunmuş ərazilərdə işğal müddətində, eləcə də 44 günlük Vətən müharibəsi ərəfəsində ermənilər tərəfindən ekoloji tarazlıq tamamilə pozulub, təbii sərvətlərimiz talan olunub, su ehtiyatları çirkləndirilib, minlərcə hektar meşə sahəsi yandırılıb, Qarabağımızın zəngin flora və faunası məhv edilib, milyonlarca mina basdırılıb, bir sözlə, ərazimiz yaşayış üçün tam yararsız vəziyyətə salınıb.

Torpaqlarımızın işğaldan azad edilməsindən sonra həmin ərazilərimizdə aşkar olunmuş kütləvi məzarlıqlarda eksqumasiya işlərinin aparılması nəticəsində Ermənistan tərəfindən əsir və girov götürülmüş şəxslərin işgəncələrə, zorakılığa və qeyri-insani rəftara məruz qalaraq qətlə

yetirildiyi barədə təkzibedilməz sübutlar toplanmışdır. Hələ bu azmış kimi, azğınlaşmış ermənilər törətdikləri irimiqyaslı cinayətlərin izlərini itirmək və hüquqi məsuliyyətdən yayınmaq üçün kütləvi məzarlıqları məqsədyönlü şəkildə məhv etmişlər.

Bu faktlar beynəlxalq hüquqa, həmçinin uzun illərdir yaxınlarını gözləyən itkin ailələrinə və insanlığa qarşı hörmətsizliyin bariz nümunəsi deyilmi?

Biz ABŞ və Avropa Birliyinə daha hansı faktları təqdim etməliyik ki, Azərbaycana qarşı ayrı-seçkiliyə son qoyulsun?

ABŞ dövlət rəsmilərinin bəyanatında irəli sürülən iddialardan fərqli olaraq, bu gün Azərbaycan hökuməti Azərbaycan Respublikasının Qarabağ bölgəsində yaşayan erməni sakinlərin Azərbaycan cəmiyyətinə dayanıqlı reinteqrasiyasının təmin edilməsi və Azərbaycan dövlətinin himayəsindən istifadə etməsinə imkan yaradılması məqsədi ilə Qarabağ bölgəsində sosial, humanitar, iqtisadi və infrastruktur məsələlərinin həlli istiqamətində kompleks tədbirlər həyata keçirir.

Azərbaycan hökuməti öz xarici siyasətində hər zaman beynəlxalq öhdəliklərinə uyğun hərəkət edərək beynəlxalq hüququn norma və prinsiplərini prioritet hesab edir. Eyni zamanda, Azərbaycan belə əsassız təhdidləri və qərəzli iddiaları qəbul etməyəcək, öz milli maraqlarına zidd olan bütün mənfi addımları qətiyyətlə və adekvat şəkildə cavablandıracaq.

Prezident İlham Əliyevin oktyabrın 4-də Cəbrayıl şəhərində sakinlərlə görüşündə söylədiyi kimi: "Biz ancaq öz gücümüzə arxalanmalıyıq və heç bir vədlərə, heç bir şirin sözlərə, yalançı ifadələrə aldanmamalıyıq".

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Razi Nurullayev. Buyurun.

**Razi Nurullayev.** Hörmətli xanım sədr, hörmətli deputatlar. ABŞ Konqresinin bir qrup üzvünün Azərbaycana qarşı müraciət imzalamasını rəhbərlik etdiyim Milli Cəbhə Partiyasının pislədiyini bəyan edirəm. Təəssüf edirəm ki, konqresmenlər 30 il erməni işğalını görməzdən gəlib, 1 milyon qaçqın, köçkünü biləəkdən 30 il unudublar. Dağıdılmış şəhər və kəndlər onlara təsir etməyib. Münaqişənin ilk illərində Azərbaycana qarşı rüsvayçı 907-ci düzəlişi qəbul ediblər. Bir dəfə də olsun Ermənistana təzyiq göstərməyiblər.

Bu 30 ildə səsləri çıxmadı, amma hələ indi əlində silah Azərbaycana qarşı döyüşmüş, əlləri 40 min günahsız insanın qanına batmış müharibə cinayətkarlarının azad olunmasını tələb edirlər. Bu, qəbuledilməzdir. Biz Amerika ilə qarşılıqlı hörmət əsasında əməkdaşlıqda maraqlıyıq. Amerika Konqresinin üzvlərini başa düşmək olar, onlar həmişə Ermənistanı müdafiə ediblər. Bəs niyə Milli Şuranın sədri Cəmil Həsənli, AXCP-nin sədri Əli Kərimli həvəslə onların bədnam müraciətlərini müdafiə edirlər? Bu, necə vətənpərvərlik, bu, necə Azərbaycançılıqdır? Zaman var idi, deyirdik və deyirdilər ki, Qarabağı almaq mümkün olmaz. Qarabağ alındı. Laçın Ermənistana veriləcək – deyirdi, Laçın da alındı. Deyirdi ki, Xocalısız, Xankəndisiz zəfər olmaz. Xankəndi də, Xocalı da Azərbaycan oldu. Dalınca dedilər ki, rus qoşunları Qarabağda qalıncaya qədər bu zəfərə zəfər deməzik. Onlar da çıxarıldı və ölkəmiz tam suverenliyinə qovuşdu.

Bu cür barışmazlıq və nifrət normal dialoq şəraitində məsələlərin həllinə mane olur. Amma nə qədər ki pozuculuq fəaliyyəti ilə məşğul olacaqlar, qarşımızda duran insan hüquq və azadlıqları, sərbəst toplaşmaq və

digər hüquqlar arzu etdiyimiz formada olmayacaq. Çünki onlar suları bulandırdıqca, ölkə maraqlarına zidd addım atdıqca, ölkə də suverenliyini, ərazi bütövlüyünü, asayişi və vətəndaşlarını qorumaq adına daha da sərt addımlar atmalı olacaq, quru sərhədlər də açılmayacaq. Siz bu xalqa yaxşılıq deyil, məhz pislik edirsiniz. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Musa müəllim də söz istəmişdi. Musa müəllim, buyurun.

**Musa Qasımlı.** Hörmətli xanım sədr, hörmətli həmkarlar. Senatın və Nümayəndələr Palatasının bəzi üzvlərinin dövlət katibi Blinkenə ünvanladığı müraciət qərəz, böhtan, beynəlxalq hüququ, haqq-ədaləti pozaraq daxili işlərimizə kobud müdaxilə olduğundan qəbul edilə bilməz, bəri başdan cırılıb atılmış, istifadəyə yararsız kağız parçasıdır.

Ədalətli, azadlıq xarakteri daşıyan 44 günlük Vətən müharibəsində və lokal xarakterli antiterror tədbirlərində Azərbaycan dövlətinin qazandığı qələbə dünya birliyi tərəfindən tanınmış ərazi bütövlüyümüzü bərpa etmək, işğala, separatçılığa son qoymaq, dövlət suverenliyimizi bərqərar etmək, ədaləti başlıca prinsip elan etmiş Birləşmiş Ştatların da imzasını qoyduğu BMT Nizamnaməsinin tələblərini yerinə yetirmək olduğundan Vaşinqton Azərbaycanı təbrik etməli idi. Lakin biz bunun əksini gördük və görürük. Birləşmiş Ştatların fəaliyyəti və beynəlxalq hüquqa hörməti budurmu?

Bakıda həbsxanada saxlanılan terrorçuların, müharibə canilərinin Dünya Ticarət Mərkəzini dağıdanlardan, Pentaqonu vuranlardan heç bir fərqi yoxdur. Əlləri günahsız insanların qanına batmış, soyqırımı törədərək bəşəriyyətə və sivilizasiyaya qarşı cinayət törətmiş şəxslərin siyasi xadim kimi qələmə verilməsi terrorçuluğu himayə etmək deyilmi?

Torpağın işğaldan, əsarətdən qurtarılmasının, hərbi təcavüzə son qoyulmasının pisi və yaxşısı olmur. Azərbaycanın işğal altında qalan torpaqlarının azad edilməsinə qarşı çıxmaq Amerika xalqının istiqlaliyyət müharibəsinə qarşı çıxmağa bərabərdir.

Anti-Azərbaycan mövqeyi tutan Amerika siyasətçilərinin bu davranışları aydındır. Ancaq Azərbaycanda doğulub özünü azərbaycanlı hesab edən, adlarını bu uca Məclisdə çəkib şərəfləndirmək istəmədiyim, millətimizin yaxşı tanıdığı və həm ölkə daxilində, həm də xaricdə oturan bəzi şəxslərin senator və konqresmenlərin müraciətini şadyanalıqla qarşılaması onların Ermənistanla bərabər addımladıqlarını göstərir. Millətimiz milli dövlət maraqlarımızın əleyhinə olan belələrinin üzünə bütün qapıları çoxdan bağlayıb.

Bir zamanlar Birləşmiş Ştatların adı gələndə dünya xalqları ona hörmətlə yanaşardılar. Sonralar belə siyasətçilərin fəaliyyətlərinə görə hörmətlə yanaşmadılar, çəkindilər. İndi heç çəkinmirlər, ikrah hissi ilə qarşılayırlar. Amerika xalqı belə bir sual verməlidir, nə üçün bu gün Amerikanın nüfuzu topuqdan və sıfırdan aşağıdır? Cavabı Amerika xalqını aldadaraq çirkin yollarla vəsait toplamış erməni milyarderlərinin cibində olan belə şəxslərin fəaliyyətində görəcəklər. Amerika xalqı bir gün ayağa qalxıb belələrini tarixin zibilliyinə atacaqdır.

Biz ölkəmizə bərabərhüquqlu münasibət istəyirik. Vaşinqton regionda maraqlarını qorumaq istəyirsə, əməkdaşlığa daim hazır olan, sözü və işi bir olan, dostluq əli uzadan, uzadılan dostluq əlini geri çevirməyən, körpülər quran Azərbaycanın yanında olmalıdır. Tarixən körpüləri yandıranlar uduzub, qurucular isə haqla və ədalətlə yola davam ediblər. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Azər Badamov. Buyurun.

**Azər Badamov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. BMT-yə üzv 200-ə yaxın dövlət beynəlxalq hüquqa hörmət etməklə bağlı öhdəlik götürüb. Amma təəssüf ki, dünyanı idarə etmək istəyən bir neçə dövlət digər ölkələri özünə tabe etməyə, milli mənsubiyyətlərinə görə cinayətkarlara ədalətsizcəsinə üstünlük qazandırmağa çalışır. Beləliklə, onlar beynəlxalq hüququ ayaq altına atır və öz maraqlarını hər şeydən üstün tutaraq sabitlik yaranmaqda olan regionlarda yeni gərginlik ocaqları yaratmaqda davam edirlər.

Azərbaycan beynəlxalq hüququn pozulmasından ən çox əziyyət çəkən ölkələrdəndir. Belə ki, torpaqlarımızın işğal altında olduğu 30 ildə ABŞ və Fransa Azərbaycanı işğalla barışdırmağa və alçaldıcı sülhə razılaşdırmağa çalışdılar. Ermənistan 30 ildə 300-dən çox yaşayış məntəqəmizi yerlə yeksan edib, milli mədəni irsimizi yer üzündən silərək 1 milyon azərbaycanlını öz yurdlarından qaçqın və məcburi köçkün salanda ABŞ səsimizə səs vermək əvəzinə, ölkəmizə sanksiyalar tətbiq edərək işğalçı və cinayətkarlara haqq qazandırmaq istədi.

Onların yaratdığı Minsk qrupu 28 ildə BMT Təhlükəsizlik Şurasının qətnamələrini heçə endirərək siyasi teatr səhnələri oynadı və pozulmuş hüquqlarımızın bərpası istiqamətində heç bir iş görmədi. ABŞ Dövlət Departamentinin katibi ölkəmizlə sülh müqaviləsindən danışır, amma Konqreslə Azərbaycana sanksiyaların tətbiqi ilə bağlı məktub mübadiləsi aparır. Bu qədər riyakarlıq və ikiüzlülük olarmı?

Suveren əraziləri işğaldan azad etmək və ermənilərin viran qoyduqları yerləri bərpa edərək, uzun illər ağır məcburi köçkün həyatı yaşamış insanların öz yurdlarına

qaytarılması nə vaxtdan hüququn pozulması olub? Əgər suveren ərazilərimizin bərpası cinayətdirsə, niyə Ukraynaya silahlar verirsiniz və Rusiyanı ağır sanksiyalara məruz qoyursunuz? Əli dinc insanların qanına batmış cinayətkarlara haqq qazandırmaq onların törətdikləri cinayətlərə şərik olmaq deyilmi?

Çox təəssüf ki, Qərbin ölkəmizə təzyiqlərinə ermənilərdən daha çox sevinən xalqın düşmənləri əli kərimlilər də var. Çünki onlar uzun illərdir ki, eyni ampluada qalaraq Azərbaycanın zəifləməsini və xalqımızın yenidən faciələrlə üzləşməsini gözləyirlər. Amma xalqımız onlara bir daha belə bir fürsəti verməyəcəkdir.

Hörmətli həmkarlar, xalqımızın bizə verdiyi söz demək imkanımızdan istifadə edərək ölkəmizə qarşı çirkin qərarlar qəbul etmək istəyənlərə qarşı adekvat addımların atılmasına çağırıram. Ölkəmiz ərazicə çox böyük olmasa da, xalqımızdakı vətənpərvərlik...

**Sədrlik edən.** Sağ olun. Vüqar Bayramov. Buyurun.

**Vüqar Bayramov.** Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsi, çox təəssüf ki, bəzi ölkələri, eyni zamanda, bəzi dairələri narahat etməyə başlayıb. Amerika Birləşmiş Ştatlarının qanunvericilik orqanının bəzi üzvlərinin müraciəti qərəzli olmaqla yanaşı, eyni zamanda, ikili standartlara əsaslanır.

Nəzərə alsaq ki, Azərbaycan torpaqları 30 il ərzində Ermənistanın işğalında qalıb və praktik olaraq Ermənistan həmin müddətdə işğal altında saxladığı torpaqları, əraziləri dağıtmaqla Azərbaycan iqtisadiyyatına 100 milyard dollarlıq ziyan vurub. Amma biz son 3 ilə baxsaq, Azərbaycan Qarabağ və Şərqi Zəngəzurun bərpasına 10 milyard dollardan artıq vəsait yönəldib. Yəni praktik

olaraq, bir tərəfdən, Ermənistanın tamamilə dağıtdığı ərazilər, digər tərəfdən, Azərbaycanın qurduğu və inkişaf etdirdiyi ərazilər. Əslində, bütün bunlar Azərbaycanın haqq işinin, eyni zamanda, suveren hüququnun dəstəklənməsi anlamına gəlməli idi. Amma çox təəssüf ki, bir sıra dairələr və eyni zamanda, qeyd etdiyimiz kimi, ölkələr qərəzli mövqe nümayiş etdirməkdə davam edirlər.

Nəzərə alsaq ki, son 30 ildə Ermənistan Azərbaycana qarşı etnik təmizləməni davam etdirib. Ermənistanın özünün rəsmi statistikası məhz bu etnik təmizləmədən xəbər verir. 1979-cu ildə Ermənistan SSR-nin rəsmi statistika idarəsinin məlumatına görə, Ermənistanda 170 mindən artıq azərbaycanlı yaşayırdı. Təbii, bu rəqəm kiçildilmiş rəqəm olsa da, amma bu, bir daha təsdiq edirdi ki, həmin dövrdə Ermənistanda yaşayan azərbaycanlılar cəmi 10 il sonra etnik təmizləməyə məruz qaldılar. 1989-cu ildə Ermənistanın rəsmi statistikasına görə, artıq Ermənistanda bir azərbaycanlının belə yaşadığı qeyd olunmurdu. Əslində, bu, Ermənistan rəsmi statistikasına görə Ermənistanda azərbaycanlılara qarşı etnik təmizlənmənin həyata keçirilməsi anlamına gəlir. Eyni zamanda, 700 minə yaxın azərbaycanlı uzun müddət işğal altında qalan ərazilərimizdəki ata-baba yurdlarından oldu. Praktik olaraq 30 il müddətində 1 milyona yaxın azərbaycanlı etnik təmizləməyə məruz qalmışdı. Amma çox təəssüf ki, Amerika Birləşmiş Ştatları, bu gün ikili standartlara əsaslanan dövlətlər həmin müddətdə bununla bağlı nə bir müraciət, nə də bir qətnamə qəbul etdilər.

Təbii ki, Azərbaycan güclüdür və cənab Prezidentin qeyd etdiyi kimi, Azərbaycan bu cür bütün təhdidlərə cavab vermək iqtidarındadır. Azərbaycan cənab Prezidentin rəhbərliyi ilə sülhə dəstək olmaqla yanaşı, regionda

“yaşıl enerji” şəbəkəsinin genişləndirilməsinə töhfə verir. Ölkədaxili marginal qrupların sevinməyinə dəyməz. Çünki Azərbaycan cənab Prezidentin rəhbərliyi ilə güclü mövqeyə malikdir və bu mövqeyini də davam etdirəcək. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Səməd Seyidov. Buyurun, Səməd müəllim.

**Səməd Seyidov.** Çox sağ olun, xanım sədr. Hörmətli həmkarlar, burada məsələ ətrafında artıq çox geniş və ətraflı fikir mübadiləsi aparıldı. Mən öz mövqeyimi bir balaca başqa tərzdə təqdim etmək istəyirəm.

Biz bu məktubu yazaraq məktubun içərisində çox vacib hesab edilən bir məqamı qeyd etmişik – ABŞ-la münasibətlərə yenidən baxmaq məsələsini gündəmə gətirmişik. Yenidən baxmaq. Niyə? Nəyə görə? Bu, Amerika Birləşmiş Ştatlarının birinci cəhdidirmi? Əsla yox. Yadınıza salın, bu yaxınlarda Varşavada dövlət katibinin müavini, ondan öncə O'Brayen, hələ mən 907-dən danışmıram. Ancaq bu dəfə tamamilə başqa bir hadisə baş verib. Biz bunu çox ciddi təhlil etməliyik. Ona görə də müraciət etmişik.

Amerika Birləşmiş Ştatları COP29-un keçirilməsi ilə bağlı öz müsbət rəyini vermişdir, öz münasibətini bildirmişdir, dəstəkləmişdir. Sonra Dövlət Departamenti vasitəsi ilə həmin tədbiri faktiki alt-üst etməyə cəhd göstərir. Deməli, Amerika Birləşmiş Ştatlarının səmimiyyətinə, onun regionda maraqlarına inam itirilir. İnam. Beynəlxalq münasibətlər sistemində ən vacib məsələlərdən biri inamdır, etibarlılıqdır. Azərbaycan Respublikasının Prezidenti ona görə yüksək səviyyədə siyasətini aparır ki, dünyada onun siyasətinə inam var, onun sözü imzası qədər güclüdür. Amerika Birləşmiş Ştatları bu inamı itirir, bu etibarlılığı itirir. Ona görə bir müstəqil dövlət kimi,

müstəqil dövlətin parlamenti kimi, – nə olsun Amerika Birləşmiş Ştatları olur, – biz öz münasibətlərimizi ciddi şəkildə təhlil etməliyik. Biz təhlil edərək hərbi əlaqələrə yenidən baxmalıyıq, biz regionda təxribatları törədən o agentliyə, USAID-in yardımlarına yenidən baxmalıyıq. Biz dərk etməliyik ki, bunlar dostluğun içərisində başqa niyyətləri regiona gətirmək istəyirlər.

Ona görə, əziz həmkarlar, hesab edirəm ki, bizim məktubumuz Xarici İşlər Nazirliyi tərəfindən ciddi təhlil olunacaq və müvafiq qərarlar qəbul olunacaq. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Çox sağ olun. Sizin fikriniz vacib idi, çünki Siz Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədrisiniz. Tamamilə düz deyirsiniz ki, bütün bunlar bizim deputatların məktubunda əks olunub.

Vüqar İskəndərov. Buyurun.

**Vüqar İskəndərov.** Hörmətli Sahibə xanım, hörmətli həmkarlar, media mənsubları. ABŞ və Fransanın əsl üzü və cırılmış maskası ortadadır. 1992-ci il avqustun 6-da ABŞ Konqresi tərəfindən qəbul edilmiş 907-ci düzəliş, əslində, hər şeyi açıq deyir. Torpağı işğal olunan, soyqırıma, ekosidə, kulturosidə, urbisidə və bütün bu bəşəri cinayətlərə məruz qalan biz və gülməşəkər bir sanksiya da bizə tətbiq olunur.

ABŞ-ın himayə etdiyi onlarca təşkilatın və qurumun nə ilə məşğul olduqlarını da gözəl bilirik. Elə "Soros Fondu"nun əkiz tayı olan USAID-lə bağlı da, düşünürəm ki, fikirlərimizi bildirməliyik.

Bu dövlət təşkilatının fəaliyyəti və ümumiyyətlə, funksional vəzifəsi problem yaratmaqdan başqa bir şey deyil. Konkret ermənilərə silah verilməsi və bunun üçün

Ermənistanın maliyyələşdirilməsi, düşünürəm ki, son həddir. Bu təşkilatın ölkəmizdə fəaliyyət göstərməsinə, ümumiyyətlə, ehtiyacımızın qalmadığını düşünürəm.

Hörmətli xanım sədr, ikinci məsələ isə ölkəmizdə sosial şəbəkələrlə bağlı qanunun olmasının zamanı çatdığını düşünürəm. Demək olar ki, bu seqment, sosial şəbəkələr az qala cəngəllik qanunları ilə idarə olunur, tamamilə qanunsuzluqdur. Nəzərə alsaq ki, əhalinin böyük əksəriyyəti YouTube-dən və digər sosial şəbəkələrdən fəal istifadə edir və ictimai rəy hazırda sürətlə manipulyasiya edilməkdədir.

Düşünürəm ki, biz diqqətlə izləməli və belə məsələlərlə bağlı qanunların qəbul olunması üçün çalışmalıyıq. Artıq dünya təcrübəsi var, bir neçə inkişaf etmiş ölkə bununla bağlı qanun qəbul edib və biz də düşünürəm ki, vaxt itirmədən bu məsələ ilə bağlı qanunun qəbul edilməsinə çalışmalıyıq. Diqqətiniz üçün çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Xatırladım ki, biz "Media haqqında" Qanun qəbul etmişik və həmin ərəfədə çoxsaylı dinləmələr keçirmişik. Onu da qeyd edim ki, elə deputatlar sosial şəbəkədə iştirakçı kimi nümunə olmalıdırlar və leksikalarına da fikir verməlidirlər.

Tural Gəncəliyev buyursun.

**Tural Gəncəliyev.** Hörmətli xanım sədr, hörmətli həmkarlar. Gələn ay ölkəmizdə keçiriləcək dünya səviyyəli mötəbər COP29 sessiyası ərəfəsində Azərbaycana qarşı çirkin qarayaxma, böhtan kampaniyası intensivləşmişdir, güclənmişdir. Təbii ki, bunun bir səbəbi var. Azərbaycanın güclü lideri, müstəqil siyasəti, torpaqları üzərində tam suverenliyini bərpa etməsi. Bax, bunun nəticəsində bu gün tarixin arxivinə göndərilmiş ATƏT-in Minsk qrupunun həmsədr ölkələrindən Fransa və ABŞ, xüsusi ilə,

üstəgəl, Avropa Parlamenti, Avropa Şurasının Parlament Assambleyası, ABŞ Dövlət Departamenti tərəfindən maliyyələşən QHT-lər Cənubi Qafqazda, ümumiyyətlə, dünyanın müxtəlif yerlərində xaos yaratmaqdan, ölkələrin suverenliyinə qarşı fəaliyyət göstərməkdən ötrü yarışa çıxıblar.

Məsələn, keçən həftə Avropa Şurasının Parlament Assambleyasında Azərbaycanla bağlı insan hüquqları mövzusunda müzakirə keçirildi. Absurdizmin ən yüksək səviyyəsi idi ki, Azərbaycanın iştirakı olmadan belə bir müzakirə oldu. Bəs AŞPA-nın dəyərləri, prinsipləri dialoq platforması üzərində qurulmuşdur və bunu həmişə bəyan edirlər. Ancaq Azərbaycanın iştirakı olmadan? Yaxud keçən həftə Avropa Parlamentinin Cənubi Qafqazla Əməkdaşlıq Komitəsinə sırf ermənipərəst və Azərbaycanofob fransız deputat Natali Luazo təyin edilmişdir. Bu həmin Natali Luazodur ki, keçən illər ərzində dəfələrcə ona çağırış etmişik ki, gəlin, Azərbaycan nümayəndə heyəti ilə bir görüş keçirək. Bir dəfə də olsun bizə cavab verməyib. Bu, nə cür dialoq oldu, nə cür platforma oldu? Həmin bu Natali Luazo, ümumiyyətlə, Azərbaycanofob olmaqla yanaşı, Avropa Parlamentində ən böyük korrupsionerlərdən biridir. “Qatargate” və digər korrupsiya qalmaqallarında keçmiş sələfləri Eva Kalli və digərləri kimi onun adı ilk sıralarda gedir.

Yaxud ABŞ Dövlət Departamentinə ABŞ konqresmenlərinin göndərdiyi məktub. Təbii ki, bu məktubu elə ABŞ Dövlət Departamentinin dövlət katibi yazmışdır və Azərbaycana qarşı təzyiq kimi düşünürlərsə, təbii, səhv düşüncədədirlər. Onların əlaltıları olan QHT-lər, dediyimiz kimi, “Human Rights Watch”, “Freedom House”, “Transparency International” və USAID kimi QHT-lər

Cənubi Qafqazda at oynatmağa çalışırlar. Təbii, Azərbaycan burada yeganə ölkədir ki, onların qarşısını alır. Bilirsiniz, Ermənistan zatən onların “işğalındadır”. ABŞ-ın dünyada ən böyük səfirliklərindən biri İrəvanda fəaliyyət göstərir. İrəvanda 2 minə yaxın ABŞ diplomatının əksəri bu QHT-lərə xidmət edən casus şəbəkəsinin nümayəndələridir.

Təbii ki, biz Azərbaycan olaraq, deputatlar olaraq öz fikirlərimizi məktub vasitəsi ilə ifadə etdik. Ümidvarıq ki, müsbət nəticələr olacaq. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tural müəllim. Sonuncu çıxış. Elman Nəsirov. Elman müəllim, buyurun.

**Elman Nəsirov.** Hörmətli xanım sədr, hörmətli həmkarlar. Tarix sübut edir ki, dövlət iki halda çox güclü təzyiq və təhdid obyektinə çevrilir. Bir dövlət çox zəif olanda, onun zəif lideri olanda beynəlxalq basqı altına düşür. 1990-cı illərin əvvəllərində biz bu reallığı yaşamışıq. Nə qədər paradoksal səslənsə də, bir də dövlət çox güclü olanda və onun güclü lideri olanda eyni aqibəti yaşayır. Yenə də cürbəcür çeşidli təzyiqlər altına düşür. Bu gün Azərbaycan, bax, həmin vəziyyətdədir. Azərbaycanın dünya səviyyəli lideri var, Azərbaycan dövləti güclü dövlətdir və bizə qarşı müxtəlif istiqamətlərdən təzyiqlər başlayıb. O istiqamətlərin sayı çoxdur, amma mən onu bir kvartet kimi təqdim etmək istərdim.

Birinci, Birləşmiş Ştatlar, onun Dövlət Departamenti və Konqresi, Fransa dövləti, eyni zamanda, Avropa Şurasının Parlament Assambleyası, Avropa Parlamenti. Fikir verirsiniz, zaman baxımından da eyni vaxta təsadüf edir. Təzyiqlərin də oxşar mexanizmi və oxşar bir mahiyyəti, fəlsəfəsi var. Deməli, bu təzyiqlər eyni mərkəzdən başlanıb. Xüsusi ilə də Birləşmiş Ştatlar, onun Dövlət

Departamenti bu prosesdə öncül mövqedədir. Burada bir maraqlı sual meydana gəlir. Bu, həqiqətdir ki, Birləşmiş Ştatların dövlət katibi, Dövlət Departamenti Konqresə təzyiq göstərib, ona məktub yazıb və özünə məktub ünvanlayıb. Bu, həqiqətdir. Amma bizi başqa bir sual düşündürür. Bəs Birləşmiş Ştatlar həmişə hakimiyyətin bölgüsündən danışardı və qanunun aliliyindən danışarkən bütün ölkələrə dərs vermək istəyir ki, sizdə hakimiyyət bölgüsü yoxdur, bizdən nümunə götürün. Yaxşı, bu, necə hakimiyyət bölgüsüdür ki, ali icra hakimiyyəti gəlir Konqresə, qanunvericilik orqanına təzyiq göstərir, onunla diktə dili ilə danışır və onu anti-Azərbaycan addımlara sövq edir?

Bütün bunların qarşılığında haqlı olaraq Azərbaycan parlamentariləri də ölkəmizin xarici işlər nazirinə müraciət ünvanlayıb və bizim bu addımımız Birləşmiş Ştatlar Konqresinin, senatorlar və konqresmenlərin anti-Azərbaycan davranışına bir simmetrik reaksiyamızdır. Belə də olmalıdır.

Hesab edirəm, burada əsas məsələ onunla bağlıdır, heç cür həzm edə bilmirlər ki, elə də böyük olmayan Azərbaycan dövləti nədən strateji əhəmiyyətli vəzifələrin öhdəsindən gəlib, həm də Qərblə hesablaşmadan.

Cənab Prezidentin sözlərini yada salmaq yerinə düşər. Söyləyib ki, Azərbaycan güclü dövlətdir, Azərbaycanın bu gün dünyada sözünün məna və çəkisi çox böyükdür. Bu səbəbdən elə bizi hədəf alıblar. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Elman müəllim. Hörmətli həmkarlar, mən çıxış edənlərin hamısına təşəkkürümü bildirirəm. İndi biz gündəliyin məsələlərinə keçək.

Hörmətli həmkarlar, bu gün bizim gündəliyimizdə 28 məsələmiz var. Qeyd edim ki, gündəliyin ilk 7 məsələsi

möhtərəm cənab Prezidentin təqdimatları əsasında bir sıra məhkəmələrin hakimlərinin təyin və vəzifədən azad edilməsi ilə bağlıdır. Bu məsələlərə dair qərar layihələrinin hamısına Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Mən indi komitənin sədri hörmətli Əli Hüseynliyə söz vermək istəyirəm. Əli müəllim, buyurun.

**Əli Hüseynli,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar, möhtərəm hakimlər. Cənab Prezident tərəfindən ədalət mühakiməsinin səmərəliliyinin artırılması məqsədi ilə kassasiya və apellyasiya məhkəmələrində vakant hakim yerlərinə təyinatlarla bağlı Milli Məclisə təqdimat daxil olmuşdur. Onu da qeyd etməliyəm ki, bu təqdimat ilk növbədə Məhkəmə-Hüquq Şurasının təklifi əsasında edilmişdir.

Hörmətli deputat həmkarlar, qeyd etməliyəm ki, namizədlərin 5-nin Ali Məhkəməyə təyinatı, onlardan ikisinin xüsusi qaydada təyinatı, 20 nəfərin Azərbaycanın bütün apellyasiya məhkəmələri üzrə təyinatı nəzərdə tutulur. İki nəfərin isə başqa vəzifəyə keçməsi ilə bağlı apellyasiya məhkəməsindən azad olunması nəzərdə tutulur. Bütövlükdə, 27 nəfər hakimin təyinatı nəzərdə tutulur.

Onu da qeyd etməliyəm ki, Məhkəmə-Hüquq Şurası bu namizədləri onların peşəkarlığını, yüksək hakim adına layiq olmalarını nəzərə alaraq irəli sürmüşdür. Əgər Milli Məclis də onlara etimad göstərərsə və təyin olunarlarsa, onda Azərbaycan Respublikasının Ali Məhkəməsi tam formada komplektləşir. Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi tam tərkibdə fəaliyyət göstərəcək. Ancaq

apellyasiya məhkəmələrində bir neçə vakant yer mövcud olacaq.

Hörmətli sədr, onu da qeyd etməliyəm ki, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iclasında hakimlərin, Məhkəmə-Hüquq Şurasının aparat rəhbərinin, üzvlərinin iştirakı ilə geniş müzakirə keçirilmişdir. Müzakirə zamanı o da vurğulanmışdır ki, komitə namizədlərlə bağlı təklifləri dəstəkləyir. Əminik ki, hakimlər həm cənab Prezidentin, həm də Milli Məclisin etimadını gələcəkdə doğruldacaqlar. Yüksək hakim adına layiq formada çalışacaqlar və ədalət mühakiməsinin həyata keçirilməsinə bundan sonra öz töhfələrini verəcəklər. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Hörmətli həmkarlar, mən görürəm, çıxış etmək istəyənlər var. Sadəcə, təklif edirəm, bəlkə 5 dəqiqəyə keçək. Razısınız?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çox sağ olun.

Birinci çıxış edən Razi Nurullayev. Razi müəllim, buyurun.

**Razi Nurullayev.** Təşəkkür edirəm, xanım sədr. Hörmətli deputatlar, hörmətli qonaqlar, hamınızı salamlayıram.

Fürsətdən istifadə edib Bakı Ağır Cinayətlər Məhkəməsinin sədri hörmətli İsmayıl müəllim Xəlilova ədalət tərəzisini düzgün qurduğuna və hər zaman ədalətli mövqeyinə görə təşəkkürümü bildirmək istəyirəm.

Məhz ədalətli yanaşmalar, vətəndaşlara doğru-düzgün münasibət hüquq sisteminə və məhkəmələrə inam yaradır. Məhkəmələrdə ciddi müsbət dəyişikliklər gedib və getməkdədir. Bununla bərabər, müşahidə etdiyim bəzi məqamları da demək istəyirəm ki, ədalət tərəzisi və mühakiməsinin nizamı heç zaman pozulmasın. Bunun üzərin-

də çox işləmək tələb olunur.

Birinci növbədə, şəxsiyyətin təhqir olunması ilə bağlı məsələlərdə qanunun tələb etdiyi formada barışmaz olmağınızı xahiş edirəm. Çünki şəxsiyyətin təhqir olunması cəmiyyətin əsaslarını sarsıdır və bütövlükdə, cəmiyyətə elə mənəvi ziyan vurur ki, bu, bütün sahələrin axsamasına səbəb olur. Bu məcrada Tərtər Rayon Məhkəməsinin sədri Tahir müəllim Qubadova da ədalət tərəzisini düzgün çəkdiyinə görə təşəkkürümü bildirmək istəyirəm. Şəxsiyyətin təhqir olunmasına göz yummaq olmaz, güzəşt etmək olmaz. Onun üçün də məhkəmə işlərində şəxsiyyətin yanında dayanmağınızı istərdim.

Digər məsələlər barədə. Vətəndaşlarla dövlət orqanları arasında çəkişmələr olur və son statistikaya baxanda görürük ki, dövlət orqanları həmin mübahisələri və çəkişmələri əksəriyyət olaraq udur. Çünki onların hərtərəfli imkanları var. Arzumdur ki, əziz hakimlər, siz bu məsələlərdə düzüb qoşulmuş tərəfin yanında deyil, sizdən tam həqiqəti üzə çıxarmağı gözləyən tərəfin yanında olasınız. Bu məsələlər barədə hakimlərlə söhbətlərimiz olub. İşlər çoxdur deyə bir hakim bir gündə 4–5 işə baxmalı olur və fiziki cəhətdən tab gətirə bilmir. Məhz bu sıxlıq işlərin tam araşdırılmasında maneçilik yaradır və bəzən onun da fonunda günahsız birinin dəmir barmaqlıqlar arasına düşməsinə səbəb olur.

Əlavə olaraq qeyd etmək istəyirəm ki, ibtidai istintaqın aparılması məsələlərinə də ciddi yanaşmağınızı rica edirəm. O hissənin araşdırılmasına diqqət yetirməyinizi xahiş edirəm. Mənə daxil olan müraciət və şikayətlərin araşdırılması zamanı bu sahədə çatışmazlıqların olduğunu görürəm. Yəni bu da vaxt azlığına bağlı məsələdir. Amma istənilən halda nəyin olub-olmamasından asılı olmayaraq

vətəndaş məmnuniyyəti vacibdir.

Sonuncu xahişim isə budur: hüquqda "vicdanlı alıcı" termini var. Əgər vicdanlı alıcı zərər çəkirsə və məhkəmələrdə haqqını ala bilmirsə, mən bunu ciddi narahatlıq kimi qəbul edirəm. Sizdən xahiş edirəm ki, on illər boyu əlinin qabarı və alnının təri ilə topladığı pulla mənzil alıb aldadılmış, dələduzluğa uğramış vətəndaşların yanında olun. Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun, Razi müəllim. Yaxşı tövsiyələr verdiniz. Ancaq nə bilirsiniz ki, düzülmüş faktlar üzərində nə isə olacaq? Fikir vermək lazımdır sözlərinizə.

Qüdrət Həsənquliyev. Buyurun, Qüdrət müəllim.

**Qüdrət Həsənquliyev.** Hörmətli sədr, hörmətli qonaqlar, həmkarlar, media nümayəndələri. Müzakirəyə çıxarılmış məsələ ilə bağlı onu qeyd etmək istəyirəm, diqqətimi çəkən bir məqam ondan ibarət oldu ki, Ali Məhkəməyə üzv təyin olunan İlqar Cəfərov xüsusi qaydada təyin olunur. Yəni hakimlərin seçilməsinin ümumi qaydasından kənar formada. Sözün doğrusu, bilmirəm, bizim Ali Məhkəmənin artıq neçə üzvü bu qaydada təyin olunub. İlqar Cəfərovun son iş yeri Ədliyyə Nazirliyinin İcra Baş İdarəsi olub. Mən onu tələbəlik illərindən savadlı bir hüquqşünas kimi tanıyıram. Amma çox təəssüf ki, onun bu idarənin rəisi olduğu dövrdə məhkəmə qərarlarının icrası ilə bağlı vəziyyət yaxşıya doğru əhəmiyyətli miqyasda dəyişmədi. Mən dünən Ədliyyə Nazirliyinin məhkəmə və digər orqanların qərarlarının icrası ilə bağlı yerləşdirdiyi statistik məlumatlara baxdım. 2023-cü ildə icraata 1 milyon 120 min 561 iş daxil olub. İcrası təmin edilən və icrası davam etdirilən icra sənədlərinin sayı isə 564 min 763 olub, yəni bu, 50 faizdən azdır. Burada da bəlli olmur ki, bunların nə qədəri

icra edilib. Ona görə ki, icrası təmin edilənlərlə icrası davam etdirilənlər eyni qrafada verilib.

Görünür, İlqar Cəfərov bilirmiş ki, Ali Məhkəməyə üzv təyin olunacaq. Ona görə son vaxtlar telefon zənglərinə də cavab vermirdi. Amma mən ona göstərilmiş etimadı dəstəkləyəcəyəm, ona səs verəcəyəm. Ümid edirəm, o, Ali Məhkəmənin hakimi kimi etimadı doğruldacaq.

Amma bir məsələyə xüsusi diqqət yetirmək istəyirəm. Bu da ondan ibarətdir ki, bizim Konstitusiyanın 125-ci maddəsinə görə, ədalət mühakiməsini yalnız məhkəmə hakimiyyəti həyata keçirir. Ədalət mühakiməsinin son mərhələsi məhkəmə qərarlarının icrasıdır. Ona görə də məhkəmə hakimiyyəti məhkəmə qərarlarının icrasını nəzarətdə saxlamalıdır və buna görə məsuliyyət daşımalıdır. Bununla əlaqədar olaraq bizim qanunvericiliyə də dəyişikliklər edilməlidir. Mən çox istərdim, Ali Məhkəmə və yeni təyin olunacaq hakimlər də çalışsınlar ki, bununla bağlı müvafiq qanunvericiliyə dəyişikliklər layihəsini Milli Məclisə göndərsinlər.

Hörmətli sədr, bir də mən bir məsələyə də diqqəti cəlb etmək istəyirəm. Bizim "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun 64.8-ci maddəsinə görə, diskresion səlahiyyətlər, yəni öz mülahizələrinə görə tətbiq olunan səlahiyyətlər geniş olmamalıdır. 64-cü maddə, əslində, imperativ bir normadır, yəni burada düzünə göstəriş var. Həmin maddədə qeyd olunur ki, "vəzifəli şəxsin öz mülahizələrindən asılı olaraq fiziki və hüquqi şəxslər üçün ümumi qaydadan istisnalar müəyyənləşdirmək imkanı nəzərdə tutula bilməz". Amma bizim "Məhkəmələr və hakimlər haqqında" Qanunun 93.4-cü maddəsində, dediyim kimi, 20 il iş stajı olan və nüfuzlu hüquqşünasların bu qaydalardan kənar təyin olunması

nəzərdə tutulur. Hesab edirəm ki, bizim Konstitusiyaya görə, Konstitusiya qanunları əgər Konstitusiyanın əsas mətni ilə ziddiyyət təşkil etmirsə, o, Konstitusiyanın tərkib hissəsi sayılır. Ona görə də qanunun bu maddəsi Konstitusiya ilə ziddiyyət təşkil edir və biz gələcəkdə həm də bu məsələlərə baxmalıyıq.

Bir daha mən yeni seçiləcək, təyin olunacaq hakimləri təbrik edirəm. Onlara fəaliyyətlərində uğurlar arzulayıram. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Qüdrət müəllim. Siz dediniz, İlqar Cəfərov son zamanlar Sizin telefon zənglərinizə cavab vermir. Özü buradadır, Siz sonra yaxınlaşa bilərsiniz. Bu, bir. İkincisi isə heç bir hakim bilmir, səsvermə, səsvermənin nəticəsi necə olacaq. Deyirsiniz, İlqar müəllim, deyəsən, bilir ki, təyin olunacaq. Heç bir hakim hələ bilmir, onu səsvermə göstərəcək. Çox sağ olun.

Hikmət Məmmədov. Buyurun, Hikmət müəllim.

**Hikmət Məmmədov.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Doğrudan da, çox mühüm bir məsələni müzakirə edirik. Çünki təyin olunacaq hakimlər dövlətimizin adından ədaləti qorumaq üçün qərarlar qəbul edəcəklər. Bu, çox mühüm bir məsələdir və əminəm ki, namizədliyi irəli sürülən hakimlərimiz, yəni həm Ali Məhkəməyə, həm də apellyasiya məhkəmələrinə namizəd kimi irəli sürülən hakimlərimiz ədaləti təmin edəcəklər.

Azərbaycan Prezidenti hələ 2017-ci ildə demişdi ki, "biz dərin islahatlar aparırıq". Mənə elə gəlir ki, məhkəmə sistemi də daim təkmilləşmə tələb edən və islahatların aparılmasını zəruri edən, hakimiyyətin nəzarət funksiyasını yerinə yetirən mühüm bir institutdur. Amma məsələ

ondadır ki, bu institutun fəaliyyəti, sadəcə, onlardan asılı deyil, həm də vətəndaş cəmiyyətinin hüquqi maariflənməsindən asılıdır.

Ulu Öndər Heydər Əliyev deyirdi ki, "öz hüquqlarını bilib və onu qorumağı bacaran vətəndaşları olan ən kiçik ölkə ən böyük məmləkət qədər güclüdür". Bax, fikrin birinci hissəsi Azərbaycan vətəndaşlarını hüquqi maariflənməyə dəvət edir, yəni öz hüquqlarımızı bilək. İkinci hissəsi, onun uğrunda mübarizə aparaq, yəni Ulu Öndərin gördüyü cəmiyyət modeli mübariz bir cəmiyyət modeli idi ki, mübarizəyə səsləyirdi. Beləliklə, güclü dövlətin, əslində, hüquqi aspektdə, hüquqi dövlətin təsvirini yaradırdı. Ona görə mən belə fikirləşirəm ki, – bilmirəm, nə qədər, nə dərəcədə məhkəmə institutlarımızın funksiyalarına aiddir, –cəmiyyətdə hüquqi maarifləndirmənin aparılmasını təşviq etməlidirlər. Çünki hər kəs, hər bir vətəndaş hüquqşünas ola bilməz, hüquqi şərh edə bilməz. Amma bütün hallarda hüquqi maarifləndirmə ilə bağlı müəyyən işlər aparırlarsa, vətəndaşlar öz hüquqlarını mənimsəmiş olarlar və beləliklə, biz demokratik, hüquqi, güclü dövlət qurmuş ola bilərik.

Ona görə də mən başqa bir məsələni də diqqətə təqdim etmək istəyirəm. Son illərdə Ali Məhkəmədə aparılan islahatlar, belə deyək, yeni təyinatlar, ədliyyə sistemində aparılan yeni təyinatlar vətəndaşların millət vəkillərinə daxil olan müraciətlərinə təsir göstərib. Məsələn, məhkəmə qərarlarından gələn şikayətlərin sayı get-gedə azalır və mən ümid edirəm ki, yeni təyinatlardan sonra bu, daha da azalacaqdır. Bu da Azərbaycan Prezidentinin ölkəmizdə ədalətin, vətəndaşların hüquqlarının qorunmasına nə qədər diqqət yetirdiyinin göstəricisidir.

Mən bütün təqdim olunan namizədlərə səs verəcəyəm,

hamısını bəri başdan təbrik edirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun, Hikmət müəllim. Siyavuş Novruzov. Siyavuş müəllim, buyurun.

**Siyavuş Novruzov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Cənab Prezident tərəfindən ölkəmizin bütün sahələrində aparılan islahatlar kimi, məhkəmə-hüquq sistemində də islahatlar həyata keçirilir. Məhkəmə-Hüquq Şurası elanlar verir və gənc nəslin nümayəndələri, yeni hüquqşünaslar imtahan verərək bu proseslərdən keçirlər. Nəticə etibarı ilə getdikcə məhkəmə sisteminin tərkibində də yeniliklər, yeni düşüncə, yeni fikir olur, yeni insanlar təyin olunur. Bu da hüquq sistemimizin daha da möhkəmlənməsinə, ədalət mühakiməsinin düzgün həyata keçirilməsinə xidmət göstərir.

Bu gün növbəti mərhələdə müxtəlif instansiya məhkəmələrinə təyinatla bağlı Azərbaycan Respublikasının Milli Məclisinə müraciət daxil olmuşdur. İndi burada müzakirələr gedir. Qeyd etmək istərdim ki, yenə də həm Milli Məclisin, həm də qeyri-hökumət təşkilatlarının bu prosesdə iştirakı bunun şəffaflığını daha da artırır. Nəticə etibarı ilə təyinatların hər birində keyfiyyət baxımından yeni insanlar, güclü hüquqşünaslar, o cümlədən məhkəmə sahəsində təcrübəsi və əməli saleh olanlar bu vəzifələrə, növbəti mərhələyə, növbəti pilləyə yüksəlirlər.

Bizdə, bilirsiniz ki, məhkəmə sahəsində, işlər, doğrudan, həddindən artıq çoxdur. Nəticə etibarı ilə hər bir hakimə düşən işin sayı kifayət qədərdir. Ona görə də bizə müraciət edən vətəndaşların böyük əksəriyyəti çıxarılan qərardan deyil, prosesdən şikayət edirlər. O proses tam şəkildə, hüquqi aktlara uyğun şəkildə həyata keçməyəndə qərarın etibarlılığı o qədər diqqəti cəlb etmir.

Mən xatırlayıram, keçmişdə Avropa Məhkəməsinə istər seçki prosesindən, istərsə də digər proseslərdən müraciətlər olanda orada qərarı kimin seçilib, kimin seçilmədiyinə görə qəbul etmirdilər. Qərarı prosesin düzgün həyata keçirilməməsinə görə qəbul edir və cərimə edirdilər. O baxımdan da məhkəmədə əsas hallardan biri prosesin düzgün həyata keçirilməsidir. Mən başa düşürəm, yenə də təkrar edirəm, bu gün kifayət qədər boşanma var, kifayət qədər mülkiyyət münasibətləri dəyişilir, mülkiyyət münasibətləri ilə bağlı müraciətlər var. Hər kəs də üzünü məhkəməyə tutur. Çünki bunu digər hüquq mühafizə orqanları araşdıra bilməz, aydınlaşdıra bilməz. Bunu məhkəmə araşdırmalıdır və məhkəmə qərar qəbul etməlidir. O baxımdan da iş çoxdur. Ona görə də bu işlərin keyfiyyət baxımından yaxşı olması üçün buna axıra qədər baxılmalıdır, oxunmalıdır, qərar tam şəkildə qəbul olunmalıdır.

Bir məsələyə də toxunmaq istəyirəm. Bunu Əli müəllim də qanunvericilikdə, yəqin ki, gələcəkdə nəzərə alar. İlkin instansiya məhkəməsi qərar qəbul edir, apellyasiya məhkəməsi qərar qəbul edir, gedir Ali Məhkəməyə. Ali Məhkəmə qərarı ləğv edib təzədən ibtidai istintaqa, yenə ilkin mərhələyə göndərir. Vətəndaş, demək olar ki, 2 il, 3 il ancaq məhkəmələr arasında gediş-gəlişlə məşğul olur, vəkil tutur, vəsaiti xərclənir və digər məsələləri həll edir. O baxımdan da bunları da nəzərə almaq lazımdır.

Bir məsələyə də toxunmaq istəyirəm. Hüquq mühafizə orqanlarından məhkəməyə gələn qərarlar dərhal qəbul olunur. Hər halda vətəndaşla digər hüquq mühafizə orqanları arasında olan münasibətləri araşdırdıqdan sonra hər hansı bir qərarın qəbul edilməsi daha yerinə düşərdi.

Mən səs verəcəyəm, uğurlar arzulayıram. Arzu edirəm ki, hər birinin öz yerində dövlətimizin adından çıxardığı

qərarlar ədalət mühakiməsini tam şəkildə təmin etsin. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Siyavuş müəllim. Sonuncu çıxış. Bəhruz Məhərrəmov. Buyurun.

**Bəhruz Məhərrəmov.** Təşəkkür edirəm, hörmətli sədr. Əziz həmkarlar, hakim təyinatları ilə bağlı qərarları, təbii ki, dəstəkləyəcəyəm və namizədliyi göstərilən hakimlərin şəxsində Məhkəmə-Hüquq Şurasının kifayət qədər uğurlu seçim etdiyi qənaətindəyəm. Ümumiyyətlə, hakim şəxsiyyəti, hakim fəaliyyəti, bu məsələlərlə bağlı çox ehtiyatlı davranılmalıdır. Hakimin verdiyi qərarı kimsə ədalətsiz hesab edirsə, bunun həlli yolu ictimai müzakirə, yaxud sosial media deyil. Bunun üçün yuxarı instansiya var. Məhkəmə qətnaməsi, məhkəmə hökmü yalnız yuxarı instansiyalarda qiymətləndirilə və yoxlanıla bilər. Məhkəmə qərarlarına digər heç kim qiymət verə bilməz.

Amma çox təəssüflər olsun ki, biz davam edən məhkəmə prosesi, yaxud prosesi aparan hakimlər barədə ayrı-ayrı qərəzli media orqanlarında, xüsusi ilə Qərbin uzantıları funksiyasını yerinə yetirən media orqanlarında təzyiq xarakterli yazıların adi hal almasına şahidlik edirik. Xüsusi ilə süni qaydada siyasiləşdirilən məhkəmə proseslərindən sonra məhkəmə, hakim haqqında ağlasığmaz iddia və ifadələr işlədilir. Proses sonrası, sözün əsl mənasında, antimilli şouya çevrilir. Bu, yolverilməzdir.

Bilirsiniz, bu, söz azadlığı ola bilməz. Bu gün özünü demokratiyanın beşiyi hesab edən ölkələrdə, məsələn, elə həmin media orqanlarının daim nümunə gətirdiyi Amerika Birləşmiş Ştatlarında hər hansı jurnalist sərbəst formada məhkəmə prosesindən adi bir foto çəkə bilirmi? Bunu bir araşdırsınlar. Yaxud özünə media deyən bu agentliklərin Azərbaycanda yaratdıqları şounu, səsləndirdikləri o

şüarları ABŞ-da məhkəmə binası qarşısında təkrarlamaq imkanları varmı?

Ona görə, hesab edirəm ki, hakimlərin bu istiqamətdə müdafiəsinin güclənməsinə ehtiyac var, hakimin şəxsiyyətinin linç olunmasına imkan vermək olmaz. Məhkəmə prosesi və hakim hər cür hücumlardan, təzyiqlərdən, təsirlərdən kənar şəkildə, daxili inamını formalaşdırmaq imkanında olmalıdır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Mən üzümü Əli Hüseynliyə tuturam. Əli müəllim, ayrı bir sözünüz yoxdur ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çox sağ olun. Mən çıxış edənlərin hamısına minnətdarlığımı bildirirəm. Mən indi qərar layihələrini bir-bir səsə qoyacağam.

Hörmətli həmkarlar, xahiş edirəm, Azərbaycan Respublikası Ali Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında qərar layihəsinə münasibət bildirin. Buyurun. Xahiş edirəm, namizədlər ayağa qalxsınlar ki, deputatlar onları görsünlər. Buyurun. Çox sağ olun.

| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 4 |
| İştirak edir | 113 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi.

Hörmətli həmkarlar, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakiminin təyin edilməsi haqqında qərar layihəsini indi səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.10 dəq.) |
|---|---|
| Lehinə | 115 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 115 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi.

İndi isə Bakı Apellyasiya Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında qərar layihəsinə münasibət bildirməyinizi xahiş edirəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.10 dəq.) |
|---|---|
| Lehinə | 113 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 114 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi.

Hörmətli həmkarlar, Gəncə Apellyasiya Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında qərar layihəsini mən səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.11 dəq.) |
|---|---|
| Lehinə | 114 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 115 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi.

İndi isə Şəki Apellyasiya Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında qərar layihəsini səsə qoyuram. Xahiş edirəm, buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.11 dəq.) |
|---|---|
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 114 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi.

İndi isə Şirvan Apellyasiya Məhkəməsi hakimlərinin təyin və vəzifədən azad edilməsi haqqında qərar layihəsinə münasibət bildirməyinizi xahiş edirəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.12 dəq.) |
|---|---|
| Lehinə | 116 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 117 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi.

Nəhayət, Sumqayıt Apellyasiya Məhkəməsi hakimlərinin təyin və vəzifədən azad edilməsi haqqında məsələni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.12 dəq.) |
|---|---|
| Lehinə | 117 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 117 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi.

Hörmətli həmkarlar, mən indi çıxış etmək üçün sözü Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin müavini, Məhkəmə-Hüquq Şurasının üzvü hörmətli Çingiz Əsgərova vermək istəyirəm. Buyurun, Çingiz müəllim.

**Çingiz Əsgərov,** *Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin müavini, Məhkəmə-Hüquq Şurasının üzvü.*

Çox sağ olun. Hörmətli Sahibə xanım, hörmətli Milli Məclisin deputatları. Fürsətdən istifadə edərək, bu il sentyabrın 1-də parlament seçkilərinin uğurla keçirilməsi və sizlərin millət vəkili seçilməyiniz, Sahibə xanım, Sizin Milli Məclisin sədri vəzifəsinə seçilməyiniz və Milli Məclisin rəhbər heyətinin uğurla formalaşdırılması münasibəti ilə ürəkdən təbrik edirəm. Fəaliyyətinizdə yeni nailiyyətlər və uğurlar arzu edirəm.

Bugünkü müzakirələr, xüsusi ilə ilk iclaslardan birinin gündəliyində birinci məsələnin məhkəmə hakimiyyətinə həsr olunması Milli Məclisin ölkəmizdə məhkəmə sisteminin inkişafına verdiyi dəstəyi bir daha nümayiş etdirir. Bununla əlaqədar olaraq Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevə məhkəmə hakimiyyətinin müstəqilliyinin və məhkəmələrin fəaliyyətinin səmərəliliyinin təmin olunması məqsədi ilə gördüyü tədbirlərə və göstərdiyi diqqətə görə dərin minnətdarlığımızı bildiririk. Həmçinin məhkəmələrin fəaliyyətinə xüsusi diqqət yetirən, məhkəmə hakimiyyəti ilə qarşılıqlı

hörmət və əməkdaşlıq ruhunda əlaqələrini quran, bizə daim diqqətlə yanaşan Azərbaycan Respublikasının Milli Məclisinə Məhkəmə-Hüquq Şurası və Ali Məhkəmə adından təşəkkür edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çingiz müəllim, çox sağ olun. Mən yeni təyin edilmiş hakimlərin hamısını təbrik edirəm. Onlara gələcək işlərində uğurlar arzulayıram. İndi biz sizi hörmətlə yola salmaq istəyirik. Sağ olun.

Hörmətli həmkarlar, biz isə işimizə davam edirik. Gündəliyin 8-ci məsələsinə keçirik. Bu, "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" və "Normativ hüquqi aktlar haqqında" Konstitusiya qanunlarında dəyişiklik edilməsi barədə Konstitusiya Qanunudur. Hörmətli deputatlar, bildiyiniz kimi, Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Konstitusiya qanunları Milli Məclisdə 2 dəfə səsə qoyulur. Düşünürəm, xatırlayırsınız, bu Konstitusiya qanunu bu il aprelin 5-də Milli Məclis tərəfindən birinci səsvermədə qəbul edilmişdir. Bu gün isə ikinci səsvermədir.

Qeyd edim ki, məsələyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Mən yenə də hörmətli Əli müəllimə söz vermək istəyirəm. Əli müəllim, buyurun, məlumat verin.

**Əli Hüseynli.** Çox sağ olun, hörmətli sədr. Hörmətli deputat həmkarlar, xanım sədrin qeyd etdiyi kimi, bu gün ancaq səsvermə keçiriləcək. Amma bu layihə altıncı çağırışda qəbul edilmişdir.

Məlumat üçün bildirmək istəyirəm ki, layihənin məqsədi bu Konstitusiya qanunları ilə yeni qəbul edilmiş "Media haqqında" Qanun arasında mövcud olan terminoloji ziddiyyəti aradan qaldırmaq olmuşdur. Yəni faktiki olaraq "kütləvi informasiya vasitələri" sözləri bütün mətn boyu

“media subyektləri” sözləri ilə əvəz olunur. Yəni layihənin mahiyyəti bundan ibarət olub. İndi isə, sadəcə, səsvermədir. Həmkarlarımdan diqqətli olmalarını xahiş edirik. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Çıxış etmək istəyən yoxdur. Mən məsələni səsə qoyacağam. Sadəcə, hamıya xatırladıram, bizim yeni seçilmiş deputatlar da bilsinlər, 95 səs lazımdır. Ona görə də, xahiş edirəm, səsvermədə diqqətli olun. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
|---|---|
| Lehinə | 114 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 115 |
| Nəticə: Qəbul edildi | |

Əlavə edim ki, 95 səs Konstitusiyanın tələbidir. Ona görə də xahiş etdim ki, diqqətli olasınız. Qəbul edildi, çox sağ olun.

Hörmətli həmkarlar, gündəliyin növbəti 8 məsələsi beynəlxalq sənədlərin təsdiq edilməsi haqqında qanun layihələridir. Qeyd edim ki, beynəlxalq müqavilələrlə bağlı olduğuna görə bu qanun layihələri “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununun tələbinə əsasən bir oxunuşda baxılıb qəbul ediləcək.

İndi isə biz gündəliyin 9-cu məsələsinə keçirik. Bu məsələ “Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının, Kioto Protokolunun və Paris Sazişinin Katibliyi arasında Birləşmiş Millətlər Təşkilatı-

nın İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının iyirmi doqquzuncu sessiyası, Kioto Protokolunun Tərəflər Görüşünün on doqquzuncu sessiyası, Paris Sazişinin Tərəflər Görüşünün altıncı sessiyası və Köməkçi Orqanların sessiyaları haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsidir. Layihəyə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Sadiq Qurbanova söz vermək istəyirəm. Sadiq müəllim, buyurun, söz Sizindir.

**Sadiq Qurbanov,** *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Çox sağ olun. Dəyərli Sahibə xanım, hörmətli deputat həmkarlarım. Bu gün burada önəmli bir layihəni müzakirə edirik. Bu, "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının, Kioto Protokolunun və Paris Sazişinin Katibliyi arasında Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının iyirmi doqquzuncu sessiyası, Kioto Protokolunun Tərəflər Görüşünün on doqquzuncu sessiyası, Paris Sazişinin Tərəflər Görüşünün altıncı sessiyası və Köməkçi Orqanların sessiyaları haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsidir.

Bu qanun layihəsinin əsaslandırılması ilə bağlı onu qeyd etməliyəm ki, bu qanun layihəsinin qəbulu Azərbaycanın BMT ilə əməkdaşlıq səylərini gücləndirmək və iqlim dəyişikliyi ilə mübarizədə qlobal öhdəliklərini yerinə yetirmək məqsədi daşıyır. BMT Baş Assambleyasının 1985-ci ildə qəbul etdiyi qətnaməyə uyğun olaraq, ev sahibi ölkələrin beynəlxalq konfransların keçirilməsi

zamanı məsuliyyətləri müəyyən edilmişdir. Azərbaycan Respublikası hökuməti də bu tələblərə uyğun olaraq, COP29 tədbirinin keçirilməsi ilə əlaqədar təşkilati və təhlükəsizlik məsələlərini yüksək səviyyədə təmin etməyi öhdəlik kimi qəbul edir.

Sazişdə Azərbaycan Respublikası ən az inkişaf etmiş ölkələrin, inkişaf etməkdə olan kiçik ada dövlətlərinin, Afrika Qrupunun, "77-lər Qrupu"nun və Çinin sessiya-qabağı görüşlərinin keçirilməsi və əlavə razılaşdırılmış görüşlərə ev sahibliyi etmək öhdəliyini qəbul etmişdir. Hökumətimiz iştirakçıların insan hüquqlarını və bərabərlik hüquqlarını qorumağa sadiq olduğunu bir daha təsdiqləmişdir.

Sazişə əlavə edilmiş öhdəliklər çərçivəsində konfransın təşkilində müxtəlif xidmətlər, o cümlədən media, maliyyə, iaşə, tərcümə və nəqliyyat xidmətləri də təmin olunacaq. Bu tədbir Azərbaycan üçün iqtisadi, diplomatik və ekoloji sahələrdə yeni imkanlar yaradacaq və ölkəmizin nüfuzunu daha da artıracaqdır.

Qeyd edim ki, COP29 konfransı Azərbaycan üçün yalnız bir beynəlxalq tədbir deyil, eyni zamanda, davamlı inkişaf strategiyamızın bir hissəsi və iqlim dəyişikliyi ilə mübarizədə lider ölkələrdən biri olmaq üçün əla bir platformadır. Biz ev sahibi kimi bu tədbirin yüksək səviyyədə keçirilməsini təmin edəcəyik və qlobal səviyyədə iqlim dəyişiklikləri ilə mübarizəyə öz töhfəmizi verəcəyik. Bu, dünyanın diqqətini bir daha Bakıya yönəldəcək və ölkəmiz ekoloji problemlər və iqlim dəyişiklikləri ilə bağlı müzakirələrin mərkəzində dayanacaqdır.

Bildiyiniz kimi, konfransın sessiyaqabağı görüşləri 5–10 noyabr 2024-cü il tarixlərində, COP29 konfransı isə 11–22 noyabr 2024-cü il tarixlərində baş tutacaqdır.

Sazişin əsas məqamları ilə bağlı da bir neçə kəlmə demək istəyirəm. Birinci növbədə, bu razılaşma konfransın keçirilməsi üçün Azərbaycan Respublikası Hökuməti ilə BMT-nin İqlim Dəyişmələri üzrə Katibliyi arasında imzalanmış sazişin əhəmiyyətini vurğulayaraq Azərbaycan Respublikasının beynəlxalq öhdəliklər çərçivəsində öz məsuliyyətini yerinə yetirdiyini göstərir. Hökumətimiz bu tədbir çərçivəsində, bayaq qeyd etdiyimiz kimi, zəruri infrastrukturun yaradılması, texnologiyanın və təhlükəsizlik tədbirlərinin təmin edilməsi üçün məsuliyyət daşıyır. Konfrans zamanı iştirakçıların hər cür ehtiyaclarının, o cümlədən bayaq qeyd etdiyim kimi, rabitə, media və digər təşkilati məsələlərin yüksək səviyyədə təmin olunmasına cavabdehlik daşıyır.

İştirakçılar. Bu beynəlxalq tədbirdə dünyanın müxtəlif ölkələrindən dövlət nümayəndələri, müşahidəçi təşkilatlar, beynəlxalq media, qeyri-hökumət təşkilatları, özəl sektor və digər beynəlxalq nümayəndəliklər iştirak edəcəklər. Azərbaycan bu tədbir vasitəsi ilə iqlim dəyişikliklərinə qarşı mübarizədə fəal rol oynadığını bir daha sübut edəcəkdir.

Ekoloji davamlılıq və təbii sərvətlərin qorunması ilə bağlı isə onu qeyd edə bilərik ki, Azərbaycan hökuməti bu konfransın dayanıqlığını təmin etmək və ətraf mühitə mənfi təsirlərin qarşısını almaq üçün xüsusi tədbirlər həyata keçirəcəkdir. Bu tədbir istixana qazlarının emissiyalarının azaldılması, resursların səmərəli istifadəsi və davamlı inkişaf prinsipləri ilə təşkil ediləcəkdir. Bu, həmçinin beynəlxalq iqlim hədəflərinə töhfə verməklə yanaşı, ətraf mühitin qorunması istiqamətində yeni layihələrə dəstək verəcək.

Tibbi və fövqəladə halların təminatı məsələsində isə

qeyd etməliyik ki, sazişə əsasən Azərbaycan tədbir zamanı tibbi yardım və təhlükəsizlik təminatını yüksək səviyyədə təşkil edəcəkdir. Pandemiya və ya digər qlobal sağlamlıq problemləri üçün əlavə tədbirlər nəzərdə tutulub ki, hər hansı dövrdə fövqəladə vəziyyətə cavab verilməsi üçün bütün hazırlıqlar görüləcəkdir.

Viza təminatı ilə bağlı onu qeyd edək ki, Azərbaycan hökuməti tərəfindən COP29-da iştirak üçün qeydiyyatdan keçmiş tərəflərə xüsusi sistem vasitəsi ilə ödənişsiz, COP29 xüsusi viza xidmətləri təklif edilir. COP29-a xüsusi vizanı həm rəsmi elektron viza portalı, həm də Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlikəri və konsulluqları vasitəsi ilə əldə etmək mümkündür.

İştirakçıların yaşayış və nəqliyyat xidməti haqqında onu xüsusi qeyd edək ki, konfrans iştirakçıları üçün münasib qiymətli otellər, nəqliyyat xidmətləri təşkil ediləcəkdir. İnkişaf etməkdə olan ölkələrdən gələn nümayəndələrə xüsusi güzəştlər tətbiq olunacaqdır. Həmçinin konfrans məkanı ilə otellər arasındakı nəqliyyat xidmətləri fasiləsiz olaraq təmin ediləcəkdir.

Hörmətli deputat həmkarlarım, COP29 konfransının Azərbaycanda keçirilməsi ilə iqlim dəyişikliklərinə qarşı qlobal mübarizədə ölkəmizin liderliyini nümayiş etdirmək üçün əvəzsiz bir şərait, imkan yaranıbdır. Biz, bir tərəfdən, iqlim siyasətimizi dünyaya nümayiş etdirəcək, digər tərəfdən isə qlobal iqlim məsələləri ilə bağlı yeni təşəbbüslərə imza atacağıq. Eyni zamanda, bu tədbir Azərbaycan iqtisadiyyatına və turizminə müsbət təsir göstərəcək və ölkəmizə beynəlxalq diqqəti cəlb edəcəkdir. Bu konfrans Azərbaycanın ekoloji siyasətində əhəmiyyətli bir mərhələdir və biz dövlət olaraq bu məsuliyyəti

layiqincə yerinə yetirməliyik. İqlim dəyişikliyi ilə mübarizədə beynəlxalq əməkdaşlığı daha da möhkəmləndirmək, ekoloji davamlı inkişafı təmin etmək üçün bu tədbir bizim üçün yeni imkanlar yaradacaqdır.

Sonda onu vurğulamaq istərdim ki, COP29 konfransı Azərbaycana yeni iqtisadi, diplomatik imkanlar açacaq, qlobal səviyyədə ölkəmizin nüfuzunun daha da artırılmasına şərait yaradacaqdır. Biz parlament olaraq bu konfransın müvəffəqiyyətlə keçirilməsi üçün lazım olan dəstəyi göstərməliyik. Gələcək nəsillərimizin sağlam və təhlükəsiz mühitdə yaşaması üçün bu məsələnin əhəmiyyəti danılmazdır. İqlim dəyişikliyi təkcə ekoloji məsələ deyil, həm iqtisadi, sosial, həm də strateji əhəmiyyət daşıyan qlobal bir problemdir. Bu səbəbdən Azərbaycan olaraq iqlim dəyişikliyinə qarşı mübarizəni dövlət siyasətimizin prioritet istiqamətlərindən biri olaraq qəbul etmişik və bu beynəlxalq tədbirin uğurla keçməsi üçün hökumətimiz və müvafiq qurumlar ciddi hazırlıqlar görməkdədir. Parlament olaraq da bu işləri dəstəkləmək bizim əsas vəzifələrimizdəndir.

Diqqətinizə görə təşəkkür edirəm və ümid edirəm ki, Azərbaycan COP29-a ev sahibliyi etdiyi müddətdə dünyanın xilası üçün çevik qərarların qəbul olunmasına öz töhfəsini verəcəkdir. Çox sağ olun.

**Sədrlik edən.** Çox ətraflı məlumata görə Siz də sağ olun.

Hörmətli həmkarlar, bu məsələyə daha bir komitədə – Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində də baxılıb. Səməd müəllim, buyurun, söz Sizindir. Xahiş edirəm, Siz də məlumat verin.

**Səməd Seyidov,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Sadiq müəllim geniş və ətraflı məlumat verdi. Mən, sadəcə, bu sazişin xüsusi özəlliyi və gözəlliyi haqqında bir-iki kəlmə söz demək istəyirəm. Biz çox sazişlər qəbul etmişik, müxtəlif sazişlər qəbul etmişik və o sazişlərin qəbul olunması prinsipi içərisində nəyi ehtiva edir? Biz nəyə isə yaxınlaşmaq istəyirik, hansı isə standartları Azərbaycana gətirmək istəyirik. Dünyada qəbul olunmuş ən yüksək standartları Azərbaycana gətirmək istəyirik.

Bu sazişin özəlliyi ondan ibarətdir ki, bu o standartları Azərbaycana gətirməklə yanaşı, Azərbaycanda mövcud olan standartların dünya üçün qəbul olunmasıdır. Ona görə bu saziş Azərbaycanın səviyyəsidir, bu saziş Azərbaycanın gücüdür. Bu saziş beynəlxalq əlaqələrin inkişafıdır, bu saziş Azərbaycanın gələcək planlarıdır. Təbii ki, komitəmizdə bu saziş ən yüksək səviyyədə müzakirə olunaraq müsbət fikir bildirildi və mən hörmətli həmkarlardan bunu qəbul etmələrini xahiş edirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, təklif var, səsə qoyaq və yazılanlar da var. Təkid edən var bu 3 nəfərdən? Var? Fatma xanım oradan baxır və başı ilə işarə edir ki, var.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bəli, əgər təkid edən yoxdursa, həm Kamal müəllim, həm Hikmət müəllim, həm də Fatma xanım, xahiş edirəm, siz çıxışlarınızı yazılı surətdə katibliyə verin. İndi isə, hörmətli həmkarlar, gəlin məsələni səsə qoyaq. Çox vacib məsələdir. Mən həm Sadiq müəllimə, həm də Səməd müəllimə minnətdarlığımı bildirirəm, çox düzgün vurğulayaraq bu məlumatı bizim hamımıza bir

daha çatdırdılar. Xahiş edirəm, məsələyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin növbəti iki məsələsi möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub. Hər iki qanun layihəsi Azərbaycan və Belarus hökumətləri arasında kənd təsərrüfatının müxtəlif sektorlarında işbirliyi haqqında protokolların təsdiq edilməsi ilə bağlıdır. Belə ki, gündəliyin 10-cu məsələsi "Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında 2007-ci il 2 may tarixli Sazişə əlavə və dəyişikliklər edilməsinə dair Protokol"un təsdiq edilməsi barədə, gündəliyin 11-ci məsələsi isə "Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında 2007-ci il 2 may tarixli Sazişə əlavə və dəyişikliklər edilməsinə dair Protokol"un təsdiq edilməsi barədə qanun layihələridir. Bu məsələlərə, hörmətli həmkarlar, Milli Məclisin Aqrar siyasət komitəsində baxılmışdır və mən komitənin sədri hörmətli Tahir Rzayevə söz vermək istəyirəm. Tahir müəllim, xahiş edirəm, Siz hər iki qanun layihəsi barədə ümumi bir məlumat verin. Buyurun.

**Tahir Rzayev,** *Milli Məclisin Aqrar siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli sədr, hörmətli həmkarlar, Azərbaycan Respublikası Hökuməti ilə Belarus Respublikası Hökuməti arasında baytarlıq sahəsində, bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında sazişlər 2007-ci il mayın 2-də imzalanmışdır. Sazişlərin imzalanmasında əsas məqsəd iki ölkə arasında heyvan sağlamlığı, baytarlıq nəzarəti, xəstəliklərin profilaktikası və müalicəsi, eləcə də bitki sağlamlığı, zərərvericilərin və xəstəliklərin yayılmasının qarşısının alınması, elmi tədqiqat işlərinin təşviq edilməsi, birgə tədbirlərin beynəlxalq standartlara uyğunlaşdırılmasıdır. Hazırkı protokollar mövcud sahələrdə əməkdaşlığı bundan sonra da inkişaf etdirmək məqsədi ilə sazişlərə müəyyən dəyişikliklər və əlavələr etmək üçün imzalanmışdır.

Nəzərdə tutulan dəyişikliklərə əsasən Azərbaycan Respublikası hökuməti tərəfindən Qida Təhlükəsizliyi Agentliyi səlahiyyətli orqan qismində təyin olunur. Sazişlərə uyğunlaşma xarakterində bəzi ifadələr də əlavə olunmuşdur. Hazırkı protokol 2024-cü ilin may ayının 16-da Bakı şəhərində imzalanmışdır. Deputat həmkarlarımdan xahiş edirəm, öz münasibətlərini bildirsinlər. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Səməd müəllim, bu iki məsələyə sizin komitənizdə də baxılıb. Xahiş edirəm, komitənin rəyini bildirin. Buyurun.

**Səməd Seyidov**. Hörmətli xanım sədr, hörmətli həmkarlar, Belarus hər cəhətdən çox etibarlı tərəfdaşdır. Ona görə bu nöqteyi-nəzərdən Belarus ilə münasibətlərin ən yüksək səviyyədə təşkil olunması bizim milli maraqlarımıza uyğundur. Komitəmiz tam lehinədir, xahiş edirəm, səs verəsiniz.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, çıxış etmək istəyən yoxdur, görürəm. Mən qanun layihələrini bir-bir səsə qoyacağam. İndi isə xahiş edirəm, 10-cu məsələdəki protokolun təsdiq edilməsinə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

İndi isə 11-ci məsələdəki protokola münasibət bildirməyinizi xahiş edirəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 3 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələ 12-ci məsələdir. Bu məsələ “Azərbaycan Respublikası Hökuməti ilə Moldova Respublikası Hökuməti arasında readmissiya haqqında Saziş”in təsdiq edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün

mən komitənin üzvü hörmətli Sabir Hacıyevə söz verirəm. Sabir müəllim, buyurun.

**Sabir Hacıyev,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Gündəlikdə olan məsələlərdən biri də Azərbaycan Respublikası Hökuməti ilə Moldova Respublikası Hökuməti arasında readmissiya haqqında imzalanmış sazişdir. Bu saziş bir ölkədə qanuni yaşamaq icazəsi olmayan şəxslərin digər ölkəyə geri qaytarılması prosedurunu ehtiva edir. Bu cür sazişlər adətən bir ölkədə qanunsuz yaşayan insanların öz vətənlərinə və ya yaşadıqları ölkəyə qaytarılmasını təmin etmək məqsədi ilə imzalanır.

Readmissiya dedikdə saziş üzrə razılığa gələn dövlətlərin birinin ərazisinə qeyri-qanuni daxil olduğu, qaldığı və ya yaşadığı aşkarlanan şəxslərin həmin dövlət tərəfindən ötürülməsi və mənşə dövlət tərəfindən qəbul edilməsi nəzərdə tutulur. Belə sazişlər çox ölkələrlə bağlanılıb, misal üçün, Norveç, İsveç, Montoneqro, Serbiya və başqa ölkələrlə. Bütün bu sadalananları nəzərə alaraq, sizi "Azərbaycan Respublikası Hökuməti ilə Moldova Respublikası Hökuməti arasında readmissiya haqqında Saziş"in təsdiq edilməsinə dair qanun layihəsinin qəbul edilməsinə dəvət edirəm.

**Sədrlik edən.** Sabir müəllim, çox sağ olun. Hörmətli həmkarlar, bu məsələyə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində də baxılıb. Komitənin rəyini bu gün hörmətli Rizvan Nəbiyev bildirəcək. Buyurun, Rizvan müəllim, komitənin rəyini bildirin.

**Rizvan Nəbiyev,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü.*

Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkar-

lar, Moldova Respublikası Hökuməti ilə readmissiya sazişi komitəmizdə geniş müzakirə olunub. Qeyd olunan saziş tətbiq dairəsinin vacibliyinə və tənzimlədiyi məsələlərin aktuallığına görə seçilir. Bu barədə aidiyyəti komitədən həmkarımız məlumat verdi.

Üzərində 7 ilə yaxın danışıqlar aparılmış sözügedən beynəlxalq müqavilə ilə bağlı digər vacib bir məqamı vurğulamaq istərdim. Bu məqam Vətən müharibəsi və lokal xarakterli antiterror əməliyyatları nəticəsində yaranan və beynəlxalq hüquqa əsaslanan yeni siyasi reallığın bu sazişin razılaşdırılmasına verdiyi töhfə ilə bağlıdır. İcazənizlə, qısa şərh vermək istərdim.

Ərazimizin bir hissəsi Ermənistanın işğalı altında olduğu zaman readmissiya haqqında beynəlxalq müqavilələrin razılaşdırılmasında çətinlik var idi. Azərbaycan tərəfi təkidlə təklif edirdi ki, readmissiya sazişlərinin icrası zamanı işğal olunmuş ərazilərlə bağlı vəziyyət bu sazişlərin mətnində öz əksini tapsın. Qarşı tərəflər isə beynəlxalq hüquqi qüvvəyə malik bu tipli müqavilələrdə işğal faktı və onun nəticəsinin təsbit olunmasından boyun qaçırırdılar. Nəticədə 20-dən çox dövlətlə readmissiya sazişi və ya onun icra protokolları uzun illər müzakirə predmeti olmuş və danışıqlar hazırda da davam edir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında hərbi işğala son qoyulması, ərazi bütövlüyümüz və suverenliyimizin tam bərpası yuxarıda qeyd edilən məsələnin də həllinə çox ciddi töhfə verdi. Bölgədə yaranmış yeni siyasi reallıqların nəticəsi olaraq qeyd olunan məsələ ilə bağlı Moldova tərəfi ilə readmissiya sazişində sadə bir forma razılaşdırıldı. Sitat: “Azərbaycan Respublikasının üzləşmiş olduğu silahlı münaqişənin davam edən təsirləri sazişin həyata keçiril-

məsi zamanı nəzərə alınacaqdır”.

Hörmətli həmkarlar, komitəmiz qeyd olunan sazişin lehinə yekdilliklə səs vermişdir və sizdən də sözügedən sazişi dəstəkləməyinizi xahiş edirik. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Rizvan müəllim. Çıxış etmək istəyən yoxdur. Hörmətli həmkarlar, sizin icazənizlə, mən məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Hörmətli həmkarlar, növbəti 3 məsələ möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub. Azərbaycan və Pakistan hökumətləri arasında müxtəlif sahələrdə qarşılıqlı fəaliyyətin tənzimlənməsi ilə bağlıdır. Belə ki, gündəliyin 13-cü məsələsi “Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişi”nin təsdiq edilməsi haqqında, gündəliyin 14-cü məsələsi “Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında Tranzit Ticarət Sazişi”nin təsdiq edilməsi haqqında, gündəliyin 15-ci məsələsi isə “Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş”in təsdiq edilməsi haqqında qanun layihələridir.

Hər üç qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır və odur ki, mən komitənin sədri hörmətli Azər Əmiraslanovdan xahiş edəcəyəm, bizə layihələr barəsində ümumi bir məlumat verilsin. Buyurun, Azər müəllim.

**Azər Əmiraslanov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Düz 19 il sonra bu mötəbər, bu möhtəşəm parlament zalında yenidən millət vəkili kimi çıxış etməyi və millət vəkili mandatı daşımağı, deputat həmkarlarımızla dövlətimiz və seçicilərimiz naminə çiyin-çiyinə çalışmağı özüm üçün çox böyük şərəf və qürurverici hesab edirəm. Bunu bir daha qeyd etməyi özümə borc bildim.

Hörmətli xanım sədr, indi isə icazənizlə, təqdim edilmiş sazişlərlə bağlı komitənin fikirlərini, qeydlərini nəzərinizə çatdırardım. Pakistan İslam Respublikası müstəqilliyimizi ilk tanıyan dövlətlərdən biri olmaqla yanaşı, həm də ölkəmizin sıx dostluq və qardaşlıq əlaqələri qurduğu strateji tərəfdaşımızdır. Ölkələrimiz həm ikitərəfli, həm də çoxtərəfli platformalarda bir-birinə daim dəstək verib. Xüsusi olaraq qeyd etmək lazımdır ki, Pakistan beynəlxalq miqyasda ölkəmizin ərazi bütövlüyünü ardıcıl şəkildə müdafiə edib, torpaqlarımızın işğalı səbəbindən Ermənistanla diplomatik münasibətlər qurmayıb. 44 günlük müharibə dövründə də qardaş Pakistan dövləti sonadək ölkəmizin yanında olmuşdur. Pakistanla dövlət və hökumətlərarası münasibətlər, parlamentlərarası əlaqələr sürətlə inkişaf edir, siyasi-diplomatik, iqtisadi-humanitar, hərbi və müdafiə sənayesi sahələrində əməkdaşlığımız genişlənməkdədir.

Bununla belə, böyük potensialın olduğunu nəzərə

alaraq, Azərbaycanla Pakistan arasında iqtisadi və ticarət əlaqələrini ikitərəfli münasibətlərin ümumi səviyyəsinə çatdırmağa ehtiyac var. Məlumat üçün bildirmək istərdim ki, Pakistanla ticarət dövriyyəsinin artırılması məqsədi ilə möhtərəm Prezidentimizin bilavasitə təşəbbüsü və konkret tapşırığı ilə hökumət tərəfindən müvafiq qərarlar qəbul edilmiş və təcili tədbirlər görülmüşdür. Bu gün Milli Məclisin müzakirəsinə təqdim edilmiş sazişlər ölkələrimiz arasında ikitərəfli münasibətlər üçün konkret mexanizmə söykənən iqtisadi əsaslar yaradır və Pakistan İslam Respublikası ilə strateji tərəfdaşlığımıza həm də real iqtisadi məzmun verir. Təsdiq üçün təqdim edilmiş hər 3 saziş Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında 2024-cü il iyulun 11-də İslamabad şəhərində imzalanmışdır.

Preferensial Ticarət Sazişinin əsas məqsədi iki ölkə arasında müəyyən məhsullara tətbiq olunan tarifləri və gömrük rüsumlarını azaltmaqla ticarəti stimullaşdırmaqdır. Saziş çərçivəsində Pakistan və Azərbaycan qarşılıqlı olaraq bir sıra mallara güzəştlər tətbiq edəcək. Pakistan artıq 103 məhsuldan ibarət bir siyahını Azərbaycana təqdim etmişdir. Azərbaycan isə 84 məhsul üzrə bazar çıxışı üçün müraciət edib. Bu saziş nəticəsində iki ölkənin ticarət həcmi əhəmiyyətli dərəcədə artacaq və ikitərəfli ticarət potensialı tam şəkildə reallaşdırılacaq.

Digər bir saziş, Tranzit Ticarət Sazişi Preferensial Ticarət Sazişini tamamlayır və onu bir növ dəstəkləyir. Azərbaycan və Pakistan arasında Tranzit Ticarət Sazişi iki ölkənin beynəlxalq ticarət əlaqələrini gücləndirmək və malların tranzitini asanlaşdırmaq üçün imzalanan strateji sənəddir. Bu saziş hər iki ölkəyə bir-birinin nəqliyyat infrastrukturundan istifadə edərək beynəlxalq bazarlara

çıxış əldə etməyə imkan verir. Məsələn, Pakistan Azərbaycan üzərindən Avropa və Mərkəzi Asiya bazarlarına çıxış imkanları qazanır. Azərbaycan isə Cənubi Asiya və Çin bazarlarına çıxmaq üçün Pakistanın tranzit imkanlarından yararlanır. Bu, iki ölkə arasında ticarət yollarını optimallaşdırmaqla nəqliyyat xərclərinin azalmasına və logistika proseslərinin sadələşdirilməsinə səbəb olacaq.

Qeyd etdiyimiz hər iki saziş həm də hava əlaqəsi haqqında sazişlə tamamlanır. Azərbaycan və Pakistan arasında imzalanan hava əlaqəsi haqqında saziş iki ölkə arasında hava nəqliyyatı əlaqələrini genişləndirmək məqsədi daşıyır. Bu saziş xüsusi ilə ölkələrimiz arasında müntəzəm, birbaşa hava reyslərinin həyata keçirilməsini nəzərdə tutur. 2023-cü ildən etibarən Azərbaycan Hava Yolları birbaşa Bakı–İslamabad reyslərini həyata keçirməyə başlayıb. Bu hava əlaqələri sərnişin və yük daşımalarını asanlaşdırmaqla yanaşı, turizm və biznes əlaqələrinin inkişafına da töhfə verəcəkdir. Həmçinin bu əlaqələr iki ölkə vətəndaşlarını yaxınlaşdırmaqla qarşılıqlı səfərlərin artmasına səbəb olacaq.

Hər 3 sazişin təsdiq edilməsi haqqında qanunların qəbul edilməsini məqsədəuyğun hesab edirik və hörmətli həmkarlarımızdan qanun layihələrini dəstəkləmələrini xahiş edirik. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim. Hörmətli həmkarlar, bu qanun layihələrinə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində də baxılıb. Bu məsələ ilə bağlı komitənin rəyini bildirmək üçün mən sözü komitənin üzvü hörmətli Fariz İsmayılzadəyə verirəm. Buyurun, Fariz müəllim.

**Fariz İsmayılzadə,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında bu 3 saziş bizim komitədə – Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində çox ətraflı müzakirə olundu. Komitənin üzvləri qeyd etdilər ki, son illərdə Pakistan və Azərbaycan arasında siyasi və hərbi münasibətlər çox sürətlə inkişaf edir. Xüsusi ilə Vətən müharibəsi zamanı Pakistanın Azərbaycana dəstəyi bütün beynəlxalq aləmdə hiss olunmuşdur. Lakin bu siyasi və hərbi əlaqələrlə yanaşı, eyni zamanda, iqtisadi əlaqələrin də güclənməsinə ehtiyac duyulduğu qeyd olunmuşdur.

Biz komitədə müzakirə etdik ki, bu sazişlər Azərbaycan üçün Asiya bazarlarına çıxış üçün yeni imkanlar açır, Şərq–Qərb və Cənub–Şimal dəhlizlərinin inkişafına təkan verir, eyni zamanda, Azərbaycanda qeyri-neft sektorunun inkişafına da dəstək verəcək.

Xüsusi ilə qeyd etmək lazımdır ki, bu sazişlərlə Pakistan və Azərbaycan arasında, eyni zamanda, xüsusi ticari əlaqələrin də qurulmasına imkan yaradılacaq. Komitə üzvləri bu 3 sazişə dəstək verir və Milli Məclisə tövsiyə olunur ki, həmkarlarımız tərəfindən bu sazişlərin lehinə səs verilsin. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Çox sağ olun, Fariz müəllim. Çıxış etmək istəyən yoxdur. Mən qanun layihələrini bir-bir səsə qoyacağam. İndi isə xahiş edirəm, 13-cü məsələdəki sazişin təsdiq edilməsinə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.45 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

İndi isə növbəti məsələnin səsverməsinə keçirik. Bu, 14-cü məsələdir. Xahiş edirəm, sazişin təsdiq edilməsi barədə qanun layihəsinə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.46 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

15-ci məsələyə, xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.46 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Növbəti məsələ 16-cı məsələdir. Bu məsələ "Avropa Yenidənqurma və İnkişaf Bankının təsis edilməsi haqqında" Sazişdə dəyişikliklərin təsdiq edilməsi barədə qanun layihəsidir. Bu layihəyə də İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Məsələyə dair mə-

lumat vermək üçün mən yenə Azər müəllimdən xahiş edəcəyəm, məlumat versin. Azər müəllim, buyurun.

**Azər Əmiraslanov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Ölkəmiz Avropa Yenidənqurma və İnkişaf Bankı ilə iqtisadiyyatımızın ən mühüm sahələri üzrə uğurlu layihələr həyata keçirir. Alternativ enerji istehsalı, nəqliyyat və infrastruktur, ətraf mühit, bank sisteminin, o cümlədən sahibkarlığın dəstəklənməsi sahəsində əməkdaşlığı xüsusi olaraq qeyd etmək istərdim.

Bankla əməkdaşlıq çərçivəsində reallaşdırılan 189 layihə üzrə 3,7 milyard avro məbləğində kredit vəsaiti ayrılmışdır. Təqdirəlayiq haldır ki, bankla reallaşdırılan layihələrin bir çoxu dövlət-özəl tərəfdaşlığına əsaslanır.

“Avropa Yenidənqurma və İnkişaf Bankının təsis edilməsi haqqında” Sazişdə dəyişikliklərin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu Azərbaycanın bu banka üzv olmasını rəsmiləşdirən sənəddir. Yeri gəlmişkən, qeyd edim ki, ölkəmiz bu bankın üzvlüyünə 1992-ci ildə qəbul edilmişdir.

Qeyd edilən sazişə dəyişikliklər isə qanunlar vasitəsi ilə həyata keçirilir. Dəyişikliklər bir qayda olaraq bankın fəaliyyət dairəsi, məqsədləri və idarəetmə strukturu ilə bağlı olur. Azərbaycan Respublikası bu dəyişiklikləri ratifikasiya edərək bankın yeni qaydalarına, genişlənən fəaliyyət sahələrinə və ya strateji məqsədlərinə uyğun olaraq, öz üzərinə yeni öhdəliklər götürmüş olur.

Müzakirə etdiyimiz qanun layihəsi bankın Müdirlər Şurasının 2023-cü il 18 may tarixli müvafiq qətnamələri ilə qəbul olunmuş dəyişiklikləri əhatə edir. Məsələn, 259 nömrəli qətnamə bankın fəaliyyət coğrafiyasının genişləndirilməsi ilə bağlıdır. 260 nömrəli qətnamə isə bankın əsas sazişində olan kapital məhdudiyyətinin aradan qaldırılma-

sını, daha çevik kapital idarəetmə mexanizminin yaradılmasını, bəzi üzv dövlətlərə dəstəyin artırılması məqsədi ilə bankın maliyyə imkanlarının optimallaşdırılmasını nəzərdə tutur. Bu dəyişikliklər, bir tərəfdən, qlobal çağırışlara cavab verir, digər tərəfdən də, bankın fəaliyyət dairəsini və coğrafiyasını genişləndirməklə onun iqtisadi təsir imkanlarını artırır.

Qeyd edilənləri nəzərə alaraq, "Avropa Yenidənqurma və İnkişaf Bankının təsis edilməsi haqqında" Sazişdə dəyişikliklərin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsinin dəstəklənməsini hörmətli həmkarlarımızdan xahiş edirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Bu qanun layihəsinə, Səməd müəllim, sizin komitənizdə də baxılıb. Bu məsələ ilə bağlı rəyi Siz verəcəksiniz. Buyurun.

**Səməd Seyidov.** Çox sağ olun, xanım sədr. Doğrudan da, Azər müəllim geniş və ətraflı təqdimat etdi. Komitəmiz geniş şəkildə bunu müzakirə etdi. Təbii, əlaqələrin genişləndirilməsi bizim maraqlarımıza uyğundur. Ona görə həmkarlarımızı müsbət səs verməyə çağırıram və buna dəvət edirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Səməd müəllim. Çıxış etmək istəyən yoxdur. Mən məsələni səsə qoyuram. Xahiş edirəm, münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.50 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörmətli həmkarlar, bizim gündəliyimizdə olan növbəti 5 məsələ uyğunlaşdırma və dəqiqləşdirmə xarakteri daşıyır. Odur ki, bu qanun layihələri "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə əsasən bir oxunuşda qəbul ediləcək.

İndi biz gündəliyin 17-ci məsələsinə keçirik. Bu məsələ "Balıqçılıq haqqında" Qanunda və digər 3 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində baxılmışdır. Mən indi komitənin sədri Sadiq müəllimə söz verirəm. Sadiq müəllim, buyurun.

**Sadiq Qurbanov.** Çox sağ olun, dəyərli Sahibə xanım. Sizin də qeyd etdiyiniz kimi, "Balıqçılıq haqqında", "Heyvanlar aləmi haqqında", "Ətraf mühitin mühafizəsi haqqında" və "Ovçuluq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi bu qanunların təkmilləşdirilməsi məqsədi daşıyır.

Sadəcə olaraq, burada belə qeyd edək ki, heyvan, balıq və digər su bioresurslarının qeyri-qanuni ovuna görə məsuliyyət tədbiri tətbiq etməklə yanaşı, eyni zamanda, həmin halların təbiətə dəymiş ziyanının da müəyyənləşdirilməsi nəzərdə tutulur. Sırf uyğunlaşdırma xarakterlidir. Deputat həmkarlarımı dəstəkləməyə dəvət edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Tahir müəllim, sizin komitənizdə də baxılıb – Aqrar siyasət komitəsində. Xahiş edirəm, Siz də rəyinizi bildirin.

**Tahir Rzayev.** Hörmətli sədr, komitənin rəyi müsbətdir. Səsə qoymaq olar.

**Sədrlik edən.** Çox sağ olun. Çıxış etmək istəyən yoxdur. Mən məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.52 dəq.) |
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələ 18-ci məsələdir. Bu məsələ Vergi Məcəlləsində, "Sosial sığorta haqqında" və "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün, Azər müəllim, mən sözü yenə də Sizə verirəm. Buyurun, məlumat verin.

**Azər Əmiraslanov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Təqdim edilmiş qanun layihəsinə komitədə baxılmış və müvafiq qərar qəbul edilmişdir. Təqdim edilən layihə uyğunlaşdırma xarakterlidir.

Xatırladaq ki, Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında 2023-cü il 5 dekabr tarixli qanunla avtomobil nəqliyyatı vasitələri ilə yük daşımalarını həyata keçirən vergi ödəyiciləri üçün əldə edilən gəlirin məbləğindən asılı olmayaraq, vergi öhdəliyinin sadələşdirilmiş qaydada yerinə yetirilməsi ləğv edilmişdir. Artıq 2024-cü il yanvarın 1-dən etibarən fərqlənmə nişanı yük daşımalarını həyata keçirən vergi ödəyiciləri tərəfindən verginin ödənilməsini təsdiq edən sənəd hesab edilmir. Həmçinin "Lisenziyalar və icazələr haqqında" və "Avtomobil nəqliyyatı haqqında" qanunlarda edilmiş dəyişiklikdən

sonra yük daşımalarını həyata keçirən vergi ödəyiciləri üçün fərqlənmə nişanı sahibkarlıq fəaliyyətinə verilən icazələrin siyahısından çıxarılmışdır.

Qeyd edilən dəyişikliklər səbəbindən layihədə uyğunlaşma çərçivəsində bir sıra maddələr yeni redaksiyada verilmişdir. Yeni redaksiya maliyyə sanksiyaları, sadələşdirilmiş verginin hesablanması ilə bağlı maddələri əhatə edir.

Vaxtı ilə Vergi Məcəlləsində edilmiş dəyişikliyə müvafiq olaraq, "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda da uyğunlaşma çərçivəsində dəyişikliklər edilir. Belə ki, yükdaşıma fəaliyyəti ilə məşğul olan şəxslərin sosial sığorta haqqı üzrə yükü olduğu kimi saxlanılır və qanuna onlarla bağlı yeni maddə əlavə edilir.

"Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının 2020-ci il 8 may tarixli qanununun keçid müddəası da nəzərə alınmaqla, müvafiq maddələrin 2026-cı il yanvarın 1-dək qüvvədə olması təsbit edilmişdir.

"Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan dəyişikliyə əsasən avtomobil nəqliyyatı vasitəsi ilə yükdaşıma fəaliyyəti göstərən və bu fəaliyyətlə fərdi qaydada məşğul olan şəxslər icbari tibbi sığorta haqqını fərqlənmə nişanı alınmadan ödəyəcəklər. Eyni zamanda, icbari sığorta haqlarının hesablanması və ödənilməsi, bəyannamələrin təqdim edilməsi digər sahibkarlıq subyektləri kimi həyata keçiriləcəkdir.

Hörmətli xanım sədr, bütün bu dəyişikliklər yeni norma yaratmır. Sadəcə, hüquq müəyyənliyini təmin edir və maddələrdə dəqiqləşdirmələr aparılır. Qeyd edilənləri nəzərə alaraq, hörmətli həmkarlarımızdan layihənin dəstəklənməsini xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim. Hörmətli həmkarlar, bu qanun layihəsinə 2 komitədə də baxılıb. Mən indi Əmək və sosial siyasət komitəsinin sədri hörmətli Musa müəllimə söz vermək istəyirəm. Buyurun, Musa Quliyev.

**Musa Quliyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Hörmətli komitə sədri həmkarım Azər müəllim ətraflı məlumat verdi. "Sosial sığorta haqqında" Qanunda təklif olunan dəyişikliklər Vergi Məcəlləsində qəbul olunmuş dəyişikliklərə uyğunlaşdırma xarakteri daşıyır. Dəyişikliklərin mahiyyəti yükdaşıma fəaliyyəti ilə məşğul olan şəxslərin sosial sığorta haqlarının ödənilməsinin dəqiqləşdirilməsi üçün hüquqi baza yaratmaqdan ibarətdir.

Qanun komitədə ətraflı müzakirə edilmişdir. Komitənin rəyi müsbətdir. Səsə qoyulmasını xahiş edirik. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim. İkinci komitə Səhiyyə komitəsidir. Mən indi komitənin üzvü hörmətli Məlahət xanım İbrahimqızıya söz verirəm. Məlahət xanım, buyurun, komitənin rəyini bildirin.

**Məlahət İbrahimqızı,** *Milli Məclisin Səhiyyə komitəsinin üzvü.*

Çox sağ olun, xanım sədr. Müzakirəmizə təqdim olunmuş qanun layihəsi təmsil olunduğum Səhiyyə komitəsində müzakirə olunmuşdur. Heç bir təklif yoxdur. Komitəmizin münasibəti müsbətdir və səs verəcəyik. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Məlahət xanım. Hörmətli həmkarlar, çıxış etmək istəyən yoxdur. Mən məsələni səsə qoyuram. Buyurun.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.57 dəq.) |
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 113 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Hörmətli həmkarlar, biz indi gündəliyin 19-cu məsələsinə keçirik. Bu məsələ Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Bu layihəyə də İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün, Azər müəllim, mən yenə də Sizdən xahiş edirəm, məlumat verin. Buyurun.

**Azər Əmiraslanov.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Vergi Məcəlləsində elektrik mühərriki ilə işləyən avtomobillər üçün ikinci və üçüncü səviyyə elektrik enerji daşıyıcılarının idxalı və satışı 2022-ci il yanvarın 1-dən 3 il müddətinə əlavə dəyər vergisindən azad edilmişdir. Güzəşt müddəti 2025-ci il yanvarın 1-də başa çatdığına görə onun daha 2 il, yəni 2027-ci il yanvarın 1-dək uzadılması zərurəti yaranmışdır.

Ümumiyyətlə, ekoloji təhlükəsizliklə bağlı qlobal və ölkədaxili çağırışlar, xüsusi ilə karbon emissiyalarının azaldılmasına dair öhdəliklərimiz, avtomobil parkının müasirləşdirilməsi və ekoloji tələblərə uyğunlaşdırılması, yüksək artım dinamikasına malik olan elektromobillərin həm də istismarı üçün optimal şəraitin və müvafiq infrastrukturun yaradılması zərurəti qeyd edilən güzəştin tətbiqini və onun müddətinin uzadılmasını şərtləndirir.

Qeyd edilənləri nəzərə alaraq, Vergi Məcəlləsində

elektrik enerjisi doldurucularının idxalı və satışı üçün əlavə dəyər vergisi güzəştlərinin daha 2 il uzadılmasını məqsədəuyğun hesab edirik. Hörmətli həmkarlarımızdan bu layihənin dəstəklənməsini xahiş edirik. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim. Çıxış etmək istəyən yoxdur. Mən məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.59 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 113 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

20-ci məsələyə keçirik. “Qida təhlükəsizliyi haqqında” Qanunun icrası ilə əlaqədar bir sıra qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Arzu Nağıyevə söz verirəm. Arzu müəllim, buyurun.

**Arzu Nağıyev,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Təşəkkür edirəm, Sahibə xanım. Hörmətli həmkarlar, bu qanun layihəsi “Qida təhlükəsizliyi haqqında” Azərbaycan Respublikası Qanununun icrası ilə əlaqədar hazırlanmışdır və uyğunlaşdırma xarakteri daşıyır. Bununla əlaqədar bir sıra qanunlarda “ərzaq” sözü “qida məhsulları” sözləri ilə əvəz olunur.

Bu, əsasən, hərbi hissələrlə bağlıdır. “Hərbi qulluqçuların statusu haqqında”, “Müdafiə haqqında” qanunlarda, “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin qarnizon və qarovul xidmətləri nizamnaməsi”ndə, “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin daxili xidmət nizamnaməsi”ndə və “Hərbi vəziyyət haqqında” Azərbaycan Respublikasının Qanununda bu dəyişikliklər edilir, “ərzaq” sözü “qida məhsulları” sözləri ilə əvəz olunur.

Ümumiyyətlə, bir məsələni qeyd edim. Ərzaq məhsulları insanın təbii və emal olunmuş halda istifadə etdiyi bitki və heyvan mənşəli qida məhsullarıdır. Qida məhsulları insan tərəfindən təbii və emal edilmiş halda istifadə olunan məhsullardır. Burada konservlər və digərləri də nəzərdə tutulur.

Yəni burada elə bir ciddi dəyişiklik yoxdur. Beynəlxalq qanunlara uyğun olaraq, eyni zamanda, Azərbaycan Ordusunun beynəlxalq standartlara uyğun olaraq, NATO və Türkiyə standartlarına keçirilməsi ilə bağlıdır. Tək alınan ərzaqla deyil, istifadə üçün hazırlanmış son məhsullara nəzarət etmək üçün edilən dəyişikliklərdir.

Qanun layihəsi Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində geniş müzakirə edilib və yekdilliklə plenar iclasa tövsiyə edilmişdir. Layihənin lehinə səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Arzu müəllim. Çıxışa yazılanlar var. Qüdrət Həsənquliyev. Buyurun.

**Qüdrət Həsənquliyev.** Hörmətli sədr, hörmətli həmkarlar. Burada biz qeyd edirik ki, 2022-ci ildə “Qida təhlükəsizliyi haqqında” Qanun qəbul etmişik. Həmin qanunda “qida məhsulları”nın anlayışı verilib və qeyd olunur ki, bu, orqanizmin xaricdən qəbul etdiyi üzvi və qeyri-üzvi maddələr yığımıdır.

Bundan başqa, 2024-cü il mayın 14-də Nazirlər Ka-

bineti Dövlət ehtiyatları üçün ərzaq məhsullarının satın alınması Qaydalarını təsdiq edib. Bu zaman, sözsüz ki, mən düşünmürəm, yəni Nazirlər Kabinetinin hüquqşünasları bu "Qida təhlükəsizliyi haqqında" Qanunun 2022-ci ildə qəbul olunmasını diqqətdən yayındırıblar. Orada "ərzaq məhsulları" bir hüquqi termin kimi istifadə olunur. Burada ərzaq məhsulunun fərqli anlayışı verilir. Bu da ondan ibarətdir ki, ərzaq məhsulları insanın təbii və ya emal olunmuş halda istifadə etdiyi bitki və heyvan mənşəli qida məhsullarıdır.

Mən bizim komitənin iclasında müzakirələr zamanı da söylədim ki, "qida məhsulları" anlayışı daha genişdir. Ona görə də bəlkə də biz bunu müvafiq icra hakimiyyəti ilə müzakirə edib elə Nazirlər Kabinetinin bu qərarını dəstəkləyək və "ərzaq məhsulları" anlayışı saxlanılsın. Qeyd etdiyim kimi, anlayışlar fərqlidir, "qida məhsulları" anlayışı daha genişdir. Sadəcə olaraq, bunu diqqətinizə çatdırmaq istədim. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Qüdrət müəllim. Komitənin protokolunda da var. İndi məsələni səsə qoyuram. Ancaq Qüdrət müəllimin dediyi məsələyə, düşünürəm ki, diqqət yetirmək lazımdır.

Buyurun, hörmətli həmkarlar, mən məsələni səsə qoyuram. Münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
|---|---|
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 114 |
| Nəticə: Qəbul edildi | |

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** İmkan verin, qoy bir səsvermə qurtarsın.

Çox sağ olun, qəbul edildi.

Sizdən qabaq Ziyafət müəllim yanımda oturub, bayaqdan deyir, fasiləsiz işləyək. Fasiləsiz işləmək üçün biz gərək çox operativ işləyək.

Hörmətli həmkarlar, təklif qəbul olunur, yoxsa yox?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Təklifi siz verdiniz, bax, mən vermədim, bilin. Oldu.

İndi biz növbəti məsələyə, 21-ci məsələyə keçirik. Bu məsələ "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanunda və digər 3 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü hörmətli Bəhruz Məhərrəmova söz verirəm. Bəhruz müəllim, buyurun.

**Bəhruz Məhərrəmov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm. Hörmətli sədr, əziz həmkarlar. 2 il əvvəl 2022-ci il 8 iyul tarixli qanunla 12 normativ hüquqi aktda dəyişiklik edilərək əlilliyi olan şəxslərə münasibətdə "kar", "kor" kimi təhqiramiz səslənən uyğunsuz sözlər, ifadələr mənfi təsəvvürlər yaratmayan analoqlarla əvəz olunmuşdur.

Müzakirəmizə təqdim olunan cari layihə də eyni məqsədə xidmət edir. Daha dəqiq desək, qeyd olunan 4 qanunda dəyişiklik layihəsinə əsasən "korlar" sözü "görmə qabiliyyəti tam məhdud olanlar", "zəif görənlər" ifadəsi "görmə qabiliyyəti qismən məhdud olanlar" sözləri ilə əvəz olunur ki, bu da uyğunsuzluğun aradan qaldırılmasına xidmət edir.

Hörmətli həmkarlar, qeyd edilənləri nəzərə alaraq, Hüquq siyasəti və dövlət quruculuğu komitəsi olaraq hər birinizi qanunvericilikdə mövcud olan cari uyğunsuzluğun aradan qaldırılması üçün layihəyə dəstək verməyə çağırırıq. Təşəkkür edirəm.

**Sədrlik edən.** Bəhruz müəllim, çox sağ olun. Bu qanun layihəsinə daha 3 komitədə baxılıb. Komitələrin birincisi Mədəniyyət komitəsidir. Komitənin rəyini bildirmək üçün mən çox hörmətli Polad Bülbüloğluya söz verirəm. Polad müəllim, biz Sizi təbrik edirik. Mən bunu dünən də komitə sədrlərinin iclasında dedim. Biz Sizi təltifinizlə bağlı təbrik edirik. Polad müəllim, buyurun, söz Sizindir.

**Polad Bülbüloğlu,** *Milli Məclisin Mədəniyyət komitəsinin sədri.*

Çox sağ olun, təbrikinizə görə minnətdaram. Bizim komitədə də baxıldı. Hesab edirik ki, çox lazımlı düzəlişlərdir. Təklif edirik ki, hörmətli həmkarlarımız lehinə səs versinlər.

**Sədrlik edən.** Çox sağ olun, Polad müəllim. Anar İsgəndərova üzümü tuturam. Anar müəllim, bu məsələyə sizin komitənizdə də baxılıb. Anar müəllim, buyurun.

**Anar İsgəndərov,** *Milli Məclisin Elm və təhsil komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Qanun layihəsi Elm və təhsil komitəsində də müzakirə olunub. Qanun layihəsi uyğunlaşdırma xarakteri daşıyır. Komitənin rəyi müsbətdir. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Anar müəllim, qısa və lakonik cavabınıza görə çox sağ olun.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində də baxılıb. Azər müəllim, buyurun, komitənin rəyini bildirin.

**Azər Əmiraslanov.** Hörmətli xanım sədr, komitəmizdə layihəyə baxılmışdır. Rəyimiz müsbətdir. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Yazılanlar var. Mən indi sözü Qüdrət Həsənquliyevə verirəm. Qüdrət müəllim, buyurun.

**Qüdrət Həsənquliyev.** Hörmətli sədr, bizim "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununa görə, normalar yaradılarkən linqvistik tələblərə əməl olunmalıdır. Orada da ədəbi dilimizin rəsmi-işgüzar üslubu təmin olunmalıdır. Bizdə "məhdud" sözünün Azərbaycan dilinin izahlı lüğətində mənası bu formada verilir ki, "az", "cüzi", yəni bu mənada. Onun üçün biz burada "kor" sözünü əvəz edirik "görmə qabiliyyəti tam məhdud olan şəxs" sözləri ilə. İndi burada "məhdud" sözünün əvəzinə yazsaq "cüzi", "az, "tam az", "tam cüzi", yəni bu o mənanı ifadə etmir. Ona görə ki, biz "kor" dedikdə əvvəllər düşünürdük, görmə qabiliyyəti olmayan. Mən hesab edirəm, buna görə də burada görmə qabiliyyəti tam məhdud olan, yəni tam az olan, tam cüzi olan şəxs yox, axı, biz deyirik ki, görmə qabiliyyəti artıq yoxdur, "görmə qabiliyyəti olmayan" və yaxud "görmə qabiliyyəti məhdud olan", yəni bu terminlərdən istifadə olunmalıdır.

Yeri gəlmişkən, hörmətli sədr, mən bir məsələyə də xüsusi diqqət yetirmək istəyirəm. Xatırlayıram ki, Anna Akopyan indi mədəni formada deyim, Ermənistanın Baş nazirinin həyat yoldaşı o zaman Şuşaya gəlib, orada uzanıb gülə-gülə, hərbi paltar geyinib əlində avtomat bizə acıq verəndə, əri ilə, əri də deməyim, həyat yoldaşı ilə yallı gedəndə mən o zaman müsahibələrimin birində "Paşinyanın arvadı" sözlərini işlətmişdim. Hesab etmirəm ki, mən ona xüsusi bir hörmət ifadə etməliydim. Bundan sonra mətbuatda, sözsüz, bəzi hallarda ədəbsiz formada

mən ciddi tənqid olundum ki, niyə Qüdrət Həsənquliyev "Paşinyanın arvadı" sözlərini ifadə edib. Halbuki bizim bu "ər-arvad" sözü Konstitusiya qanunumuzda var. "Azərbaycan Respublikasının keçmiş Prezidentinin və onun ailə üzvlərinin təminatı haqqında" Konstitusiya Qanunu var. Orada da "Prezidentin arvadı", "Prezidentin əri" sözlərindən, ifadəsindən istifadə olunur. Yəni bizim Mülki Məcəllədə, mülki qanunvericilikdə də "ər-arvad" bir termin kimi istifadə olunur. Amma dilimizdə, sözsüz ki, biz "həyat yoldaşı", yaxud kişidirsə, onun həyat yoldaşı haqqında "xanımı" ifadəsindən istifadə edirik. Ona görə mən təklif edirəm, necə ki, bu "kar", "kor" sözlərini dəyişirik, eyni qaydada biz qanunvericiliyimizə baxaq və orada da müvafiq dəyişikliklər edək, məsələn, "keçmiş Prezidentin həyat yoldaşı". Əgər o, kişidirsə, söhbət həyat yoldaşı kimi onun xanımından gedəcək, Prezident qadındırsa, söhbət kişi kimi onun həyat yoldaşından gedəcək. Yaxud "həyat yoldaşı" sözünü "ər" sözünə, "xanım" sözünə münasibətdə istifadə etmək olar.

İnternetdə çoxlu sayda axtarış versəniz görərsiniz ki, cəmiyyətdə də artıq bu "ər-arvad" sözündən az istifadə olunur, yəni "həyat yoldaşı" ifadəsindən istifadə olunur.

Yeri gəlmişkən, bunu da diqqətinizə çatdırmağı borc bildim. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Siz iki məsələyə münasibət bildirdiniz. Əslində, 2-ci məsələ – "ər-arvad" məsələsi bu qanun layihəsinə aid deyildi. Ancaq indi Ziyafət müəllim də burada öz fikrini bildirdi. Mən düşünürəm ki, bu məsələni bəlkə iclasdan xaric danışasınız. Sizin dediyiniz o məsələyə isə, düşünürəm, komitədə də sonra baxılar.

Hicran Hüseynova. Buyurun.

**Hicran Hüseynova.** Sağ olun. Hörmətli xanım sədr,

hörmətli həmkarlar, media nümayəndələri. İlk növbədə təqdim olunan qanun layihəsini dəstəklədiyimi bildirmək istəyirəm.

Əfsuslar olsun ki, bəzən işlətdiyimiz sözlərlə başqa insana qarşı nə qədər haqsız olduğumuzu hiss edə bilmirik. Xüsusi ilə əlilliyi olan şəxslərə qarşı işlətdiyimiz ifadələr onları mənəvi cəhətdən daha çox narahat edir. Əlbəttə ki, "kar", "kor", "lal" ifadələri də həssas təbəqədən olan insanlarda mənfi hisslər yaradır. Belə hal onlarda həm də psixoloji travmaya səbəb olur. Biz həm qanunlarımızda, həm də normativ hüquqi aktlarımızda belə ifadələri dəyişməliyik. Hətta onlar üçün fəaliyyət göstərən təhsil müəssisələrinin, məktəb və mərkəzlərin adlarında da həmin ifadələrdən istifadə olunmamalıdır.

Bir daha qeyd etmək istəyirəm ki, təqdim olunan qanun layihəsi görmə, eşitmə qabiliyyəti tam və ya qismən məhdud olan insanlara münasibətdə çox vacib dəyişiklikdir. Bu layihəyə də səs verəcəyəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, bu məsələ çox həssas məsələdir. Təbii ki, bəlkə də çox diskussiyalar tələb edən məsələdir. Biz bu gün bu qanun haqqında danışırıq. Xahiş edirəm, öz fikirlərinizi qısa və konkret bildirəsiniz, biz bunu qəbul edirik, yoxsa yox.

Musa müəllim, Sizdə sualdır, təklifdir? Buyurun.

**Musa Quliyev.** Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli millət vəkilləri, arayış vermək istəyirəm ki, bu, yeni bir şey deyil. Biz "Əlilliyi olan şəxslərin hüquqları haqqında" BMT Konvensiyasını ratifikasiya etmişik. Onun əsasında da milli qanunvericiliyimizi yaratmışıq, milli qanunvericiliyimizdə bunlar var. Sadəcə, başqa qanunlara biz bunu transfer edirik. Ona görə bu terminləri təzədən dəyişirik, dəyişmirik məsələsi gündəm məsələsi

deyil. Mən təklif edirəm, bu məsələni səsə qoyaq. Buna vaxt itirməyə dəyməz. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim. Əgər bu 3 nəfərdən təkid edən yoxdursa, mən məsələni səsə qoyacağam. Mən görürəm, Nigar Məmmədova birinci dəfə yazılıb. Gəlin, Nigar xanıma da qulaq asaq. Nigar xanım, buyurun.

**Nigar Məmmədova.** Hörmətli xanım sədr, mənə söz verdiyinizə görə çox sağ olun. Hazırda müzakirə etdiyimiz layihə, bəli, yaranmış uyğunsuzluğun aradan qaldırılmasıdır. Xanım sədr və hörmətli həmkarlar, mən qeyd etmək istərdim ki, bu, uyğunsuzluğun aradan qaldırılması ola bilər. Bu bizim ölkəmizdə inklüziv cəmiyyətin inkişafında atılan addımlardan biridir. Çünki cənab Prezident İlham Əliyevin həssas əhali qruplarına xüsusi qayğısı bu gün gözdən əlilliyi olan şəxsləri də əhatə edir. Onların sosial təminatı və reabilitasiyası, rifah halının yaxşılaşdırılması istiqamətində bu gün tədbirlər həyata keçirilir.

Həmçinin bu kateqoriyadan olan şəxslərin əmək bazarına çıxışının dəstəklənməsi məqsədi ilə tədbirlər həyata keçirilir. Bundan başqa, onların cəmiyyətə inteqrasiyası istiqamətində layihələr həyata keçirilir və biz bir daha sübut edirik ki, əlillik qüsur deyil və ölkəmizdə hər kəs bərabər hüquqlara malikdir.

Qeyd etmək istərdim ki, beynəlxalq və regional təşkilatlarda gündəmdə olan, onların gündəlik müzakirə etdiyi məsələlər məhz inklüziv cəmiyyətin yaranması və inkişafıdır. Aparıcı ölkələrin qanunvericiliyində bu cür silsilə dəyişikliklər baş verir.

Həmçinin bildiyimiz kimi, “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”dən birini məhz “dinamik inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət”

təşkil edir. Biz COP29 kimi böyük bir tədbirin astanasındayıq. COP29-un rəhbərliyinin də qarşıya qoyduğu əsas məsələlərdən biri hər kəsin səsinin eşidilməsi, inklüziv nəticələrin əldə edilməsidir. Təbiidir ki, dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət davamlı və sürətli inkişaf deməkdir.

Fikrimcə, dəyişikliklər bilavasitə inklüziv cəmiyyətin ölkəmizdə inkişaf etdirilməsinə xidmət edəcək və layihəni tam surətdə dəstəkləyirəm. Xanım sədr, söz verdiyinizə görə çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Nigar xanım. Mən düşünürəm ki, komitələrdə bu məsələ müzakirə olunarkən bu fikirlər hamısı səslənib. Hörmətli həmkarlar, 2 nəfər çıxışa yazılan qalır. Hikmət müəllim, çıxış etmək istəyirsiniz? Buyurun.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Xahiş edirəm, 2 nəfərdir, gəlin qulaq asaq.

**Hikmət Məmmədov.** Çox sağ olun, çox təşəkkür edirəm. Mən çox qısa danışacağam, xanım sədr. Məsələ ondadır ki, dil məsələsidir, yəni biz görmə qabiliyyəti məhdud olan insana "kor" deməklə onun gözü açılmayacaq və yaxud korluğu daha da artmayacaq. Söhbət ondan gedir ki, Azərbaycan dilində biz sözlərə məcaz anlam verə-verə, tarixən əcdadlarımızın yaradıb özümüzü, fikrimizi ifadə etmək üçün bizə miras qoyduğu sözləri leksik fondumuzdan, qanunlarımızdan çıxara-çıxara dili kasadlaşdırırıq. Biz o vaxt yeni bir termin axtararıq ki, tutaq, məsələn, düşündüyümüz şeyi ifadə edəcək söz tapmayanda yeni birləşmələr axtarırıq. İndi konkret sözümüz var, konkret semantik mənası var – kordur, kardır. Yəni biz ona "görmə qabiliyyəti məhdud" deyəndə

onun gözü açılacaqmı? Əslində, görmə qabiliyyəti məhdud olan insanlarımızı əlaqədar eləmir ki, buna nə deyəcəksən. Nəticə etibarı ilə bunun onsuz da görmə qabiliyyəti yoxdur. Azərbaycan xalqı da, əcdadımız da bunu ifadə etmək üçün "kor" sözünü düşünüb.

Qaldı ki, nəzakət məsələsinə. Mən düşünürəm ki, bu, yersiz nəzakətdir. Ona görə də bu sözlərin işlənməsi leksik fondumuza sədaqətimiz və əcdadımızın yaratdığı, bizə qoyduğu dil mirasına hörmət olar.

Yenə də mən qanun layihəsinə səs verəcəyəm. Hər halda dedim, bu fikirləri bildirim. Sağ olun.

**Sədrlik edən.** Hikmət müəllim, sağ olun, ancaq burada söhbət hüquqi dildən gedir. Mən Sizinlə razıyam, bu bizim ana dilimizin bir sözüdür. Bizim leksikamızda var. Ancaq burada etik normaları da fikirləşmək lazımdır. Hörmətli Nigar xanım bu gün dedi ki, inklüziv siyasət həyata keçirilir, bizim inklüziv cəmiyyətimiz var və sair. Bu insanlara biz hörmət etməliyik. Mən heç inanmaq istəmirəm ki, hansısa görməyən insana kor dedikdə ona xoş olar. Əlbəttə ki, yox. Hüquqi dildən söhbət gedir. Hörmətli həmkarlar, ancaq bu gün yenə də bizim qanun layihəmiz, məsələ nədən ibarətdir. Bu terminlər, sadəcə, bir neçə qanuna daxil olur, qurtardı.

Erkin Qədirli. Erkin müəllim, buyurun.

**Erkin Qədirli.** Çox sağ olun, hörmətli xanım sədr. Mən söz istəyəndə bu mövzu çərçivəsində başqa bir məsələ ilə bağlı istəmişdim. Amma Hikmət bəyin dedikləri məni vadar edir ki, onu dəstəkləyim, mən onun dediklərinə qatılıram. Halbuki Siz də doğru buyurdunuz ki, söhbət terminlərdən gedir.

Amma məsələ ondadır ki, biz bu gün beynəlxalq konvensiyalarda, yəni ingilis, fransız dillərində yazılmış

sənədlərdə dəyişikliklərə, o trendə uyub öz dilimizə o dəyişiklikləri salmaqda bəzən yanılırıq. Çünki Qərb dilləri, ingilis və fransız dilləri çox seksist və irqçidir. Məsələn, “woman” sözü  “qadın” “man” sözündən törənib. “Female” da qadındır, amma “male” “erkək” sözündən törənib. Bunlar bir sıradır. Biz anlayışlarımızı beynəlxalq solçu trendlərə qurban verməməliyik. Onların problemləri var, dərindir və onlar bəlkə də düz edib öz dillərində dəyişikliklər edirlər. Amma onlar edirlər deyə, biz də öz dilimizdə, gender neytral olan bir dildə, – “gender-neutral language”dir bizimki, bizdə heç genderi bildirən əvəzliklər yoxdur, – onunla bağlı anlayışları gətirib... Özü də biz nominalist mədəniyyətik. Bizdə söz hansısa obyektin adı deyil, nominalist mədəniyyətlərdə sözün ayrıca, obyektiv reallıqdan ayrı bir varlığı var. Ona görə biz deyirik də, məsələn, “ad günü” doğum gününün yerinə. Çünki doğulduğu gün deyil, ona ad verildiyi günü qutlamışıq vaxtı ilə. İndi, təbii ki, ad daha öncədən də düşünülür. Ona görə bizdə bir deyim var: “Adın çıxınca canın çıxsa yaxşıdır”. Çünki heç kim istəmir ki,  onun adı hansısa mənfi mənada istifadə edilsin. Çünki bizdə ad sərbəst məna daşıyır. Nominalist mədəniyyət olduğumuza görə.

Mən polemika, tövsiyə xarakterli bir söz demək istəyirdim. İndi ümumi trendə qoşulmuşuq, gedirik. Amma mən hesab edirəm ki, bizim dilimizin öz mahiyyəti heç də Avropa dillərində o dəyişiklikləri zəruri edən problemləri doğurmur. Təşəkkür edirəm.

**Sədrlik edən.** Erkin müəllim, biz bu gün dil barədə diskussiya aparmırıq. Düzdür? Mən düşünürəm ki, burada bir neçə müxtəlif fikirlər səsləndi, bəli, yığışıb siz bunu müzakirə edə bilərsiniz. Polad müəllimin komitəsində,

Elm və təhsil komitəsində, bunların hamısını siz müzakirə edə bilərsiniz. Bu gün isə bizim qanun layihələrimizin xüsusi bir mövzusu var.

Daha çıxış edən yoxdur, xahiş edirəm, qanun layihəsinə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.20 dəq.) |
|---|---|
| Lehinə | 113 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 114 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin növbəti 6 məsələsi birinci oxunuşda olan qanun layihələridir. Xatırladım ki, Milli Məclisin Daxili Nizamnaməsinə görə, qanun layihəsinin birinci oxunuşu zamanı onun qəbul edilməsinin zəruriliyi, əsas müddəaları müzakirə edilir, qanun layihəsinin ümumi konsepsiyasına qiymət verilir. Xahiş edirəm, çıxışlarda bu tələbləri nəzərə alasınız. Xüsusi ilə bizim yeni seçilmiş deputatlara aiddir. Ancaq eyni zamanda, bizim bu zalda çox illər oturan deputatlara da yaxşı bir xatırlatma olar.

Gündəliyin 22-ci məsələsinə keçirik. Bu məsələ Miqrasiya Məcəlləsində və "Dövlət rüsumu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Nurlan Həsənova söz verirəm. Nurlan müəllim, buyurun.

**Nurlan Həsənov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Son dövrlərdə dövlət xidmətlərinin vətəndaşlarımıza, xidmət istifadəçilərinə elektron qaydada çatdırılması istiqamətində bir çox yeni və müasir qanunlar qəbul edilmişdir. Əlbəttə ki, bu, dövlət xidmətlərinin göstərilməsində həm şəffaflığın artırılmasına, həm korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə, həm də vətəndaş məmnunluğunun təmin edilməsinə xidmət edir.

Təqdim olunan bu layihə də, əslində, miqrasiya sahəsində yaranan münasibətlərin tənzimlənməsi prosesində kağız daşıyıcıdan istifadəni azaldır. Dəyişikliklərin mahiyyəti nədən ibarətdir? Bildiyimiz kimi, ölkəmizdə yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər yaşamaq icazəsi ilə yanaşı, iş icazəsi almalıdırlar. Təqdim olunan dəyişiklikdə məhz iş icazəsinin elektron qaydada rəsmiləşdirilməsi nəzərdə tutulur. Digər tərəfdən, işəgötürənin iş icazəsini elektron qaydada əldə etmək imkanı yaradılır və Miqrasiya Məcəlləsində edilən dəyişikliyə uyğun olaraq, "Dövlət rüsumu haqqında" Qanunda uyğunlaşdırma xarakterli dəyişikliklər edilir. Həmkarlarımdan layihəyə dəstək vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Nurlan müəllim. Qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində də baxılmışdır. Azər müəllim, xahiş edirəm, komitənin rəyini bildirin. Buyurun.

**Azər Əmiraslanov**. Qeyd edildiyi kimi, komitəmizdə layihəyə baxılmışdır. Hesab edirik ki, Dövlət Miqrasiya Xidmətinin bir çox fəaliyyət funksiyalarının, xüsusi ilə də iş icazələrinin verilməsinin elektronlaşdırılması baxımından bu dəyişikliklər mütərəqqidir, rəyimiz müsbətdir.

**Sədrlik edən.** Çox sağ olun. Çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.23 dəq.) |
|---|---|
| Lehinə | 114 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 114 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti məsələ 23-cü məsələdir. "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Konstitusiya Məhkəməsi haqqında" və "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü Kamal Cəfərova söz verirəm. Kamal müəllim, buyurun.

**Kamal Cəfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox sağ olun, hörmətli xanım sədr. Təklif olunan dəyişikliklərin əsas məqsədi antikorrupsiya qanunvericiliyinin beynəlxalq standartlara uyğunlaşdırılması və komissiyanın fəaliyyətində səmərəliliyin artırılmasıdır. Bu məqsədlə dəyişikliklər iki istiqamətdə təklif edilir.

Birinci istiqamət korrupsiyaya qarşı mübarizə üzrə

komissiyanın üzvlərinin təyin edilmə meyarlarının dəqiqləşdirilməsini əhatə edir. Misal olaraq, təklif edilir ki, Milli Məclis tərəfindən komissiyaya təyin olunan üzvlər yalnız deputatlar sırasından deyil, həmçinin Hesablama Palatası və Milli Məclis Aparatının rəhbərliyinin sırasından seçilə bilsin. Əlavə olaraq komissiya üzvlərinin 5 illik müddət ərzində fəaliyyət göstərməsi və səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi prosedurlarını tənzimləyən müddəalar da təklif olunur. Digər mühüm yenilik komissiya üzvünün vəzifə icrası ilə digər maraqları arasında ziddiyyət yaranacağı hallarla bağlı məlumatlandırma sisteminin yaradılmasıdır.

İkinci istiqamət isə komissiyanın funksionallığının artırılmasına yönəlib. Hazırda dövlət orqanlarının korrupsiyaya qarşı mübarizə tədbirləri vahid çərçivə sənədləri əsasında həyata keçirilir və bu model indiyədək uğurla tətbiq olunub. Lakin təcrübə göstərir ki, müxtəlif dövlət qurumlarındakı korrupsiya riskləri fərqli olur. Buna görə də cavab tədbirləri də fərdi yanaşmalar tələb edir. Buna əsaslanaraq təklif edilir ki, komissiya hər bir dövlət qurumunda aparılmış korrupsiya risklərini təhlil etsin və nəticələri əsasında müvafiq tövsiyələr versin.

Əziz həmkarlar, bildiyiniz kimi, bu günə qədər komissiyanın yanında müxtəlif sahələr üzrə dövlət qurumlarının, QHT-lər, ekspertlər, media subyektləri, özəl sektorun nümayəndələrindən ibarət işçi qruplar olub və bu yanaşma komissiyanın fəaliyyəti kontekstində kifayət qədər səmərəli mexanizm olub. İndi isə təklif edilir ki, bu cür işçi qruplarının yaradılması əsasnamədə təsbit olunsun. Eyni zamanda, maddədə işçi qrupların fəaliyyət istiqamətləri də göstərilir.

Hörmətli xanım sədr, bu dəyişikliklər korrupsiyaya

qarşı mübarizənin daha effektiv həyata keçirilməsi və milli qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılması məqsədini daşıyır. Qeyd olunanları nəzərə alaraq, qanun layihəsinin lehinə səs verməyə dəvət edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Kamal müəllim. Hörmətli həmkarlar, qanun layihəsinə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində də baxılıb və mən indi komitənin sədri Arzu müəllimə söz verirəm. Arzu müəllim, buyurun.

**Arzu Nağıyev**. Təşəkkür edirəm, xanım sədr. Hörmətli həmkarımız Kamal Cəfərov layihə barədə ətraflı şəkildə izah verdi. Eyni zamanda, Kamal Cəfərov özü də bizim komitənin üzvüdür, orada da öz fikirlərini bildirmişdi. Qanun layihəsinə komitəmizdə baxılıb və yekdilliklə plenar iclasa birinci oxunuşa tövsiyə edilib. Əlavə rəy və təkliflərimiz olmadı. Layihəni dəstəkləməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Arzu müəllim. Yazılanlar var. Qüdrət Həsənquliyev. Qüdrət müəllim, buyurun.

**Qüdrət Həsənquliyev.** Təşəkkür edirəm, hörmətli sədr. Hörmətli sədr, bizim komitədə bu məsələ müzakirə olunanda mən münasibət bildirdim. Bizdə "Korrupsiyaya qarşı mübarizə haqqında" Qanun var. O komissiyanın formalaşdırılmasının da qaydaları orada müəyyən olunub. İndi hörmətli Kamal müəllim dedi ki, dəqiq dairə müəyyənləşir. "Korrupsiyaya qarşı mübarizə haqqında" Qanunun 4.3-cü maddəsində deyilir ki, "komissiyanın tərkibi icra, qanunvericilik və məhkəmə hakimiyyəti orqanları tərəfindən təyin edilən üzvlərdən ibarətdir". Amma bu üzvlərin dairəsinin indi bu cür formada dəqiqləşdirilməsi, məhdudlaşdırılması, hesab edirəm ki,

bəlkə də doğru olmaz. Ona görə ki, həmin qanunun 2-ci maddəsində korrupsiya ilə əlaqədar hüquqpozmaların subyektləri ola biləcək şəxslərin dairəsi müəyyənləşib. Sabah bizim Milli Məclis, ümumiyyətlə, Milli Məclisin üzvü olmayan, yaxud bizim Aparatın rəhbərliyində təmsil olunmayan istənilən bir şəxsi də, yəni biz Milli Məclisin adından o 5 nəfərdən biri kimi təyin edə bilərik. Hesab edirəm ki, ona görə öz hüquqlarımızı məhdudlaşdırmayaq. Bəlkə də daha doğru olardı ki, ümumiyyətlə, dediyim kimi, korrupsiyaya qarşı mübarizə komissiyası korrupsiya hüquqpozmalarının subyektləri olmayan şəxslərdən formalaşdırılsın. Məncə, bu, daha effektli olardı. Yəni bu baxımdan mən, sadəcə olaraq, bunu diqqətinizə çatdırmaq istədim.

Yox, əgər, doğrudan da, bu forma saxlanılacaqsa ki, burada deputatlar olsun, bizim Aparatdan olsun və Hesablama Palatasından olsun, o halda gəlin onların say tərkibini də müəyyənləşdirək. Yəni 3 nəfər Milli Məclisdən olsun, bir nəfər Hesablama Palatasından, bir nəfər də komitədən. Milli Məclisdən üzvlərin tərkibi isə çoxpartiyalılıq prinsipi əsasında formalaşdırılsın. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Əminə Ağazadə. Buyurun.

**Əminə Ağazadə**. Hörmətli sədr, hörmətli həmkarlar. Kamal müəllimə layihənin təqdimatı üçün mən də təşəkkürümü bildirirəm.

Hörmətli Sahibə xanım, Milli Məclisin üzvləri Sizin rəhbərliyinizlə bir sıra ixtisaslaşmış orqanlarda da fəaliyyət göstərirlər. Bu baxımdan mən də Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın üzvü kimi bu il avqustun 10-da keçirilmiş Korrupsiyaya qarşı mübarizə üzrə komissiyanın iclası barədə qısa məlumat vermək istərdim.

İclasda komissiyanın sədri cənab Samir Nuriyev çıxış edərək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin korrupsiyaya qarşı mübarizə sahəsində müəyyən etdiyi hədəflərə çatmaq üçün komissiyanın üzərinə düşən əsas vəzifələri diqqətə çatdırmışdır. Həmçinin korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlıq məsələləri də müzakirə edilmişdir. Korrupsiyaya qarşı mübarizə sahəsində qanunvericiliyin təkmilləşdirilməsi istiqaməti kimi hazırda birinci oxunuşa təqdim edilən qanun layihəsi iclasda ətraflı şəkildə müzakirə edilmişdir.

Hörmətli sədr, hörmətli həmkarlar, dəyərli vaxtınızı çox almadan layihə ilə bağlı qeyd etmək istərdim ki, komissiyanın tərkibinin təşkil edilməsi ilə bağlı məsələlərin əsasnamənin ümumi müddəalarından çıxarılaraq komissiyanın fəaliyyətinin təşkili hissəsinə keçirilməsi müsbət dəyişiklikdir. Eyni zamanda, hesab edirəm ki, komissiyanın üzvlərinin fəaliyyətini tənzimləyən yeni normalar, habelə komissiyanın yanında fəaliyyət göstərən işçi qrupları ilə bağlı təklif edilən yeni müddəalar komissiyanın qanunla müəyyən edilmiş fəaliyyətinə töhfə verəcəkdir.

Qüdrət müəllimin qeyd etdiyi məsələ isə – korrupsiya ilə bağlı hüquqpozmaların subyekti olmayan şəxslərin təyin olunması, biz bildiyimiz kimi, bu məsələlər bilavasitə istintaq orqanları və məhkəmə qərarları ilə öz təsdiqini tapır. Yəni Milli Məclis olaraq komissiyanın üzvlərini təyin edərək, o meyarlara qiymət verməyimiz, məncə, düzgün olmazdı. Diqqətinizə görə təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Kamal müəllim, nə isə əlavəniz var? Buyurun.

**Kamal Cəfərov**. Hörmətli xanım sədr, cavab vermək istəyirəm. Birincisi, qeyd edim ki, bu meyarların dəqiqləşdirilməsi ilə bağlı təklif GRECO-nun 5-ci qiymətləndirmə

raundunun tövsiyəsidir. Burada, əksinə, ümumiyyətlə, Milli Məclis tərəfindən təyin ediləcək üzvlərlə bağlı hüquqlarının məhdudlaşdırılmasından söhbət getmir. Əksinə, orada meyar olaraq Hesablama Palatasının üzvləri və ənənəvi formada həmişə Milli Məclisin Aparat rəhbəri də, Aparatın rəhbərliyi də təmsil olunubdur. Bu dəqiqləşir.

İkinci məsələ, çoxpartiyalı sistemlə bağlı, mən istəyirəm, buna birdəfəlik cavab verək. Korrupsiyaya qarşı mübarizə heç vaxt siyasi xarakter daşımayıbdır və komissiyanın əsas vəzifəsi də ölkənin korrupsiyaya qarşı mübarizə siyasətini formalaşdırmaqdan ibarətdir. Bu da siyasi qərəzsizliyi tələb edir və müxalifət nümayəndəsinin mütləq şəkildə komissiyaya daxil edilməsi tələb olunsa, bu, komissiyanın siyasi neytrallığını zədələyə və onun fəaliyyəti üzərində siyasi təsir şübhəsi yarada bilər.

İkincisi, təmsilçiliklə bağlı. Bizim komissiyada təmsilçiliyimiz həmişə kifayət qədər və səmərəli olubdur. Milli Məclis tərəfindən komissiyaya seçilən üzvlər artıq parlamentin geniş spektrini və xalqın iradəsini təmsil edir. Milli Məclisin bütün üzvləri, o cümlədən müxalif deputatlar səsvermə hüququ ilə seçimə qatılır və komissiya üzvlərinin təyin edilməsində iştirak edilir. Müxalif partiyanın təmsilçisinin mütləq şəkildə komissiyada, yəni kvota şəklində yer alması zərurət deyil və belə bir tələb siyasi balansdan çox, siyasi ayrı-seçkilik kimi qəbul oluna bilər. Əslində, korrupsiyaya qarşı mübarizə kimi ciddi bir məsələdə üzvlərin siyasi mənsubiyyətindən çox, onların peşəkarlığı, təcrübəsi və ixtisası ön planda olmalıdır. Komissiya üzvlərinin təyinatında əsas meyar onların siyasi mənsubiyyəti deyil, onların korrupsiya ilə mübarizə səriştəsi və səmərəliliyi olmalıdır. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Arzu müəllim, sizin komitənizin üzvləri çıxış edirlər burada. Mən düşünürəm ki, bu sizin komitədə artıq müzakirə olunub və indi bu müzakirələrin davamı idi. Komitədə müzakirə etmisiniz də bütün bu məsələləri?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Məsələni səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.34 dəq.) |
|---|---|
| Lehinə | 116 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 117 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 24-cü məsələsinə keçirik. Bu, "Turizm haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Əmək və sosial siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün, Musa müəllim, mən Sizdən xahiş edəcəyəm, buyurun, məlumat verin.

**Musa Quliyev**. Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunda turizm xüsusi əhəmiyyəti olan istiqamətlərdən biridir. Ölkəmizdə turizmin inkişafı üçün bir sıra ardıcıl tədbirlər həyata keçirilməkdədir. "Turizm haqqında" Qanun, dövlət proqramı, turizmin inkişafı üzrə strateji yol xəritəsi və sair kimi sənədlər qəbul edilmişdir. Prezident fərman və sərəncamları verilmişdir. Azərbaycan

Respublikası Dövlət Turizm Agentliyi, Turizm və Menecment Universiteti yaradılmışdır. Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad edilməsi ölkəmizin turizm potensialının daha da yüksəlməsini təmin etmişdir.

Turizmin cəlbediciliyini və səmərəliliyini artırmaq üçün görülən kompleks tədbirlər sırasında turizm və rekreasiya zonalarında  insanların istirahətinə və sağlamlığının bərpasına mənfi təsir göstərən antropogen amillərin minimuma endirilməsi və aradan qaldırılması istiqamətində fəaliyyət mühüm yer tutur. Bu sahədə qarşıda duran vəzifələri ardıcıl və sistemli şəkildə həyata keçirmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 2 avqust tarixli fərmanı ilə "Turizm və rekreasiya zonalarının Nümunəvi Əsasnaməsi" təsdiq edilmiş və Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi tabeliyində Turizm və Rekreasiya Zonalarının İdarə Edilməsi və İnkişafı Mərkəzi yaradılmışdır.

Eyni zamanda, bildirmək istəyirəm ki, turizm və rekreasiya zonalarında bəzi fəaliyyət növlərinin qadağan edilməsi "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında", "Təbii müalicə ehtiyatları, müalicə-sağlamlaşdırma yerləri və kurortlar haqqında", "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" və "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının qanunlarında da öz əksini tapmışdır.

Hörmətli həmkarlar, "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsinin qəbul edilməsi nəticəsində turizm və rekreasiya zonalarının ərazilərində kimya sənayesi, metallurgiya, nüvə energetikası tullantılarının zərərsizləşdirilməsi və emalı müəssisələrinin fəaliyyəti qadağan olunacaqdır. Qanun layihəsi yu-

xarıda adı qeyd olunan qanunlara uyğunlaşdırma məqsədi ilə hazırlanmışdır. Qanun layihəsi konseptual baxımdan birinci oxunuşun tələblərinə cavab verir. Layihə subyektinin nümayəndəsinin iştirakı ilə Əmək və sosial siyasət komitəsində ətraflı müzakirə edilmiş və Milli Məclisin plenar iclasına müzakirə üçün təqdim olunmuşdur. Qanun layihəsini dəstəkləməyi sizdən xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim. Hörmətli həmkarlar, bu məsələyə daha iki komitədə baxılıb. Mədəniyyət komitəsində. Polad müəllim, xahiş edirəm, Siz komitənin rəyini bildirin.

**Polad Bülbüloğlu**. Çox sağ olun. Xanım sədr, biz də müzakirə etdik. Hesab edirik ki, buna səs vermək lazımdır. Komitənin rəyi müsbətdir.

**Sədrlik edən.** Çox sağ olun. Azər müəllim, xahiş edirəm, Siz də komitənizin rəyini bildirin. Buyurun.

**Azər Əmiraslanov**. Hörməti xanım sədr, biz də komitədə bu məsələyə baxmışıq. Hörmətli Musa müəllim ətraflı məlumat verdi. Nəzərdə tutulan məhdudiyyətləri biz də məqsədəuyğun hesab edirik. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Aydın müəllim yazılıb. Aydın Mirzəzadə. Buyurun, Aydın müəllim.

**Aydın Mirzəzadə**. Təşəkkür edirəm, xanım sədr. Edilən dəyişiklikləri dəstəkləyirəm və inanıram ki, bu dəyişiklik Azərbaycanın turizm cəlbediciliyini artıracaq. Bu dəyişiklik bu il keçiriləcək COP29 konfransına bizim növbəti bir töhfəmizdir. Bu, bir daha göstərir ki, Azərbaycan cəmiyyəti “yaşıl dünya” naminə həmrəyliyi konkret nə cür həyata keçirir. Amma dəyişikliklə bağlı mənim iki sualım var. Ola bilsin ki, buna birbaşa mütəxəssislər cavab verməlidir və növbəti dinləmələrdə, müzakirələrdə

cavabı eşitməyə hazıram.

Birinci sualım bundan ibarətdir ki, biz müəyyən sahələrə qadağa qoyuruq. Amma tutaq ki, indiyə qədər o qadağalar olmadığına görə bu sahələr turizm zonasında varsa, həmin obyektlərin taleyi nə olacaq? Bu, birinci sualımdır.

İkinci sualım bundan ibarətdir ki, turizmdə "sənaye turizmi" deyilən bir anlayış var. Adətən, bir qayda olaraq yüksək inkişaf etmiş ölkələrin vətəndaşları atılmış sənaye müəssisələrinə və yaxud tullantıların emal edilməsi müəssisələrinə və sair baxışa daha çox maraq göstərirlər. Bu dəyişiklik o cür turizmin Azərbaycanda yayılmasına nə cür təsir edəcək? Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Aydın müəllim. Musa müəllim, indi cavab vermək istəyirsiniz? Buyurun.

**Musa Quliyev**. Sağ olun. Elə isti-isti cavab verim, sonra yaddan çıxacaq. Hörmətli Aydın müəllim iki məsələ qaldırdı. Birinci məsələ ondan ibarətdir ki, indiyə qədər tikilibsə, onların taleyi nə olacaq? İndiyə qədər Azərbaycandakı sağlamlıq və rekreasiya zonalarının heç birində belə bir obyekt yoxdur və bu qanun da ona görə qəbul olunur ki, bundan sonra da tikilməsin.

Zonalara gəldikdə isə Xızı, Quba-Qusar zonası bir zona qəbul olunubdur. Qarabağda isə Kəlbəcərdə 5 belə zona turizm və rekreasiya zonası kimi qəbul olunacaqdır, hələlik yoxdur. Bunlar qəbul olunur ki, bu məsələ öz əksini tapsın və gələcəkdə orada belə obyektlər tikilməsin.

İkinci suala gələndə isə, sənaye turizmi ola bilər, ekoturizm ola bilər, başqa turizm olar. Bu, sağlamlaşdırıcı turizm obyektlərinə, bölgələrinə aid deyil. Başqa bölgələrdə bunları həyata keçirmək olar. Yəni bu bölgələr sırf insanların istirahəti və sağlamlığının bərpası üçün

nəzərdə tutulan turizm bölgələridir. Sağ olun, təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Musa müəllim.

Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.41 dəq.) |
|---|---|
| Lehinə | 117 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 117 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

25-ci məsələyə keçirik. Bu məsələ Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü Nizami Səfərova söz verirəm. Nizami müəllim, buyurun.

**Nizami Səfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Hörmətli xanım sədr, hörmətli Milli Məclisin deputatları. Azərbaycan Respublikasının Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında müzakirəyə təqdim olunmuş qanun layihəsi, sözün əsl mənasında, tarixi əhəmiyyət daşıyaraq beynəlxalq cinayətlər kateqoriyasına təcavüz, soyqırımı, müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlərlə yanaşı, yeni ekosid cinayətinin daxil edilməsini nəzərdə tutur. Birləşmiş Millətlər Təşkilatının

İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı (COP29) beynəlxalq tədbirinin Bakıda keçirilməsi ərəfəsində belə bir addımın atılması ölkəmizin ətraf mühiti bəşəri dəyər kimi qorumasının əyani təzahürüdür.

Hörmətli deputatlar, 30 ilə yaxın bir müddətdə işğalçı Ermənistan Azərbaycanın ekoloji sisteminə uzunmüddətli və bir çox hallarda bərpa olunmayan ziyan vuraraq, ətraf mühiti planlı şəkildə qəsdən məhv etmiş, transsərhəd su ehtiyatlarını davamlı olaraq kimyəvi və bioloji maddələrlə çirkləndirmiş, ölkəmizin ərazisindən keçən çayların hissəsindəki mikroflora və mikrofaunanı tamamilə məhv etmişdir. Ermənistan iştirakçısı olduğu bir sıra beynəlxalq konvensiyaları və xüsusi ilə də 1976-cı il 10 dekabr tarixli "Ətraf mühitə təsir vasitələrindən hərbi və ya başqa bir düşmən istifadəsinin qadağan edilməsi haqqında Konvensiya"nın müddəalarını kobud şəkildə pozmuşdur.

Möhtərəm cənab Prezident dəfələrlə Azərbaycanın ekoloji sisteminə qarşı ekosid cinayətinin törədilməsi probleminə beynəlxalq ictimaiyyətin diqqətini cəlb edərək bildirmişdir ki, bu əməl digər beynəlxalq cinayətlərlə yanaşı, Ermənistanın dövlət olaraq beynəlxalq məsuliyyətini, ayrı-ayrı şəxslərin isə cinayət məsuliyyətini şərtləndirir.

Ümumiyyətlə, "ekosid" termini beynəlxalq leksikona Amerika Birləşmiş Ştatlarının Yel Universitetində Botanika kafedrasının müdiri vəzifəsində çalışan professor Artur Qalston tərəfindən 1970-ci ilin fevral ayında daxil edilmişdir və bu əməli Vyetnam ərazisində xüsusi herbisid maddəsinin yayılması və ətraf mühitin məhv edilməsi ilə əlaqələndirirdi.

Dövlətdaxili cinayət qanunvericiliyinin sistemli təhlili göstərir ki, müzakirə etdiyimiz ekosid cinayəti bir sıra dövlətlərdə kriminallaşdırılıb. Bu sırada Rusiya Fede-

rasiyası, Vyetnam Respublikası, Belarus, Gürcüstan, Ukrayna, Tacikistanın cinayət məcəllələri qeyd edilə bilər. Avropa İttifaqına daxil olan ölkələrdən ilk dəfə olaraq Belçika 2024-cü il fevralın 22-də ekosid cinayətini öz daxili qanunvericiliyində kriminallaşdırıb, ancaq Avropa Parlamenti və Avropa Şurası tərəfindən "Ətraf mühitin cinayət-hüquqi mühafizəsi haqqında" Direktivin qəbul olunmasını nəzərə alaraq, artıq Avropa İttifaqının üzv dövlətləri də bu cinayəti kütləvi formada qanunvericiliklərinə daxil edəcəklər.

Qanunun konseptual məqamı ilə bağlı bir məsələni də qeyd etmək istəyirəm. Qanunun dispozisiyasında "ekoloji fəlakət" terminindən istifadə olunur. Bu termin "Ətraf mühitin mühafizəsi haqqında" 1999-cu il 8 iyun tarixli Azərbaycan Respublikası Qanununun XX fəslinin başlığında və həmin fəslin 4 maddəsində istifadə edilir və xüsusi ilə də bu mənada 66-cı maddəni qeyd etmək olar. Hörmətli deputatlar, məsələnin yüksək əhəmiyyətini nəzərə alaraq, birinci oxunuşda qəbul edilməsinə səs verməyinizi xahiş edirəm. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən**. Sağ olun. Yazılanlar var. Qüdrət Həsənquliyev. Qüdrət müəllim, buyurun.

**Qüdrət Həsənquliyev.** Hörmətli sədr, əvvəlcə ekoloji cinayətlərə görə Cinayət Məcəlləsində XXVIII fəsil var idi. Orada 247-ci və 261-ci maddələr bu sahədə törədilən cinayət əməllərinə görə məsuliyyəti nəzərdə tuturdu və həmin əməllərin dairəsi müəyyənləşib. İndi biz XVI fəslə, yəni "Sülh və insanlıq əleyhinə cinayətlər" fəslinə ekosid cinayətini daxil edirik. Yəni biz bunu artıq fərqli kateqoriyalı bir cinayət kimi nəzərdə tuturuq. Burada, məsələn, indi yeni əlavə edəcəyik, özü də bu, soyqırımı cinayətlərindən, insanlıq əleyhinə, soyqırımı cinayətlərin-

dən sonra gəlir. Yəni 104-1-ci maddə "Ekosid" olacaq. Bitki və heyvanlar aləminin kütləvi məhv edilməsi, atmosferin torpaq və su ehtiyatlarının zəhərlənməsi, yaxud ekologiyaya ziyan vuran digər hərəkətlərin qəsdən törədilməsi və əməllər ekoloji fəaliyyətə səbəb olduqda və ya ekoloji fəlakətin baş verməsi üçün real təhlükə yaratdıqda 10 ildən 15 ilə qədər müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Amma tutaq ki, bizim Cinayət Məcəlləsində "Ekoloji cinayətlər" fəslində 250-ci maddə var və orada su mənbələrinin çirkləndirilməsi heyvanların kütləvi ölümünə səbəb olarsa, bir neçə cəza növü nəzərdə tutulur. Amma azadlıqdan məhrumetmə növündə cəza cəmi iki ilə qədərdir.

Hörmətli həmkarlar, bunu ona görə diqqətinizə çatdırıram ki, biz mütləq həmin "Ekoloji cinayətlər" fəslinə yenidən diqqət yetirməliyik. Orada müvafiq düzəlişlər edilməlidir. Yaxud müəyyən məsələlər oradan çıxarılmalıdır.

Bir də bu ekosiddə ekoloji fəlakətin baş verməsi. Bu ekoloji fəlakətin anlayışı "Ekoloji təhlükəsizlik haqqında" Qanunda verilir ki, ekoloji fəlakət nədir. Amma sözün doğrusu, mən o anlayışla təkrar tanış oldum, çox da aydın olmayan bir anlayışdır. Amma mən hesab edirəm, qanunvericilik texnologiyasına uyğun olaraq, cinayət hüququ termini kimi "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununda da qeyd olunur, biz sətiraltı mətndən istifadə edib ekoloji fəlakətin nə olmasını aşağıda qeyd edə bilərik. Doğrudan da, bir aydınlıq gəlsin ki, ekoloji cinayətlər nədir, ekosid nədir. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hicran Hüseynova. Buyurun, Hicran xanım.

**Hicran Hüseynova**. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Bütövlükdə, insanlığın tarixi hazırkı ekoloji problemlərin həllindən asılıdır. Azərbaycan, bir tərəfdən, qlobal iqlim dəyişikliyinin yaratdığı mənfi təsirlərə məruz qalır. Digər tərəfdən isə Ermənistanın 30 ilə yaxın işğalçılıq siyasəti nəticəsində Qarabağ və Şərqi Zəngəzurun ekoloji mühiti və ona vurulan böyük zərbəni biz görürük və bu baxımdan da, hesab edirəm ki, təqdim olunan qanun layihəsində edilən dəyişiklik vacib əhəmiyyət kəsb edir. Ekosid cinayətinin beynəlxalq hüquq normalarına uyğun olaraq, kriminallaşdırılması, ekosistemə vurulan ziyana görə cinayət məsuliyyətinin artırılması xüsusi əhəmiyyət daşıyır. Biz həm yerli səviyyədə, həm də beynəlxalq səviyyədə ekoloji mühitimizə zərər vuranları məsuliyyətə cəlb edə biləcəyik. Qanun layihəsini dəstəkləyirəm və ona səs verəcəyəm. Çox sağ olun.

**Sahibə Qafarova.** Çox sağ olun. Erkin Qədirli. Buyurun.

**Erkin Qədirli**. Çox sağ olun, hörmətli xanım sədr. Bu, doğrudan da, çox önəmli, amma eyni zamanda, çox ağır bir mövzudur, çünki birinci ekosid cinayəti sözlərinin özü mübahisə doğurur, hüquq ədəbiyyatında, terminologiyada ümumi belə bir tövsiyə var ki, terminlərin formalaşması eyni dildən götürülməlidir. Burada isə “eko” yunan dilindən, “sid” latın dilindəndir. Bu, polivitamin, multivitamin kimi bir şeydir. Yəni tövsiyə olunur ki, multivitamin deyilsin, nəinki polivitamin. Çünki eyni dildən götürülməlidir. Burada sözün özü mübahisə doğurur. Amma ona heç getmirəm.

Məsələ ondadır ki, bilirsiniz, hüquqşünaslar bilir, beynəlxalq hüquq komissiyası var. BMT-nin nəzdində çalışan və çeşidli dövlətlərin beynəlxalq hüquqa zidd əməllərinə

görə maddələr layihəsi – “Draft articles on State responsibility” adlanan ümumi şəkildə belə bir layihə var, o sənəddir. Orada dəfələrcə bu cinayətin təsbit edilməsi cəhdləri olub. Amma aparıcı dövlətlər əksər hallarda buna qarşı çıxıb, konsensus formalaşmayıb.

Hörmətli Nizami müəllim dedi, ayrı-ayrı dövlətlər yavaş-yavaş bu cinayəti öz milli qanunvericiliyində təsbit etməyə başlayıb. Hörmətli Qüdrət bəyin dediyi ekoloji cinayətlər, əlbəttə ki, ayrı bir kateqoriyadır. Burada söhbət daha çox kontekst və miqyas məsələsindən gedir. Məsələn, müharibə cinayətlərində bizim öz milli məcəlləmizdə – Cinayət Məcəlləmizdə də var, 116-cı maddə – “Silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma” və orada paraqrafların birində “ətraf mühitə qəsdən geniş, uzun sürən və ciddi ziyan vurma”dan söhbət gedir. Təbii ki, yəni elə bir cinayət var. Amma o, müharibə cinayətidir, adından da göründüyü kimi, o, ancaq müharibə kontekstində baş verə bilər. Amma ətraf mühitə qəsdən, uzun sürən genişmiqyaslı ziyan sülh dönəmində də ola bilər. Ona görə bunun ayrıca, xüsusi ilə ağır bir cinayət kimi təsbit olunmasının zərurətini mən də qəbul edirəm və dəstəkləyirəm. Yalnız burada bunun tərifi ilə bağlı mən komitədə də bildirdim, istəyirəm, plenar iclasda da səsləndirəm ki, həmkarlarım bu haqda düşünsünlər.

Belə baxanda guya qısa bir cümlədir. Amma onun ikinci hissəsi bir az subyektiv yozuma açıq, məcazlarla doludur. Mən komitədə nə təklif etmişdim, məsələn, oxuyuram. “Bitki və heyvanlar aləminin kütləvi məhv edilməsi, atmosferin, torpaq və ya su ehtiyatlarının zəhərlənməsi”. Yəni bura qədər qalır. Yaxud ətraf mühitə geniş, uzun sürən, ciddi ziyan vuran digər hərəkətlərin qəsdən

törədilməsi. Sonrakı hissə ixtisara salınır. Çünki ekoloji fəlakət və ekoloji fəlakətlərin baş verməsi, dediyim kimi, bu hissə subyektiv yozumlara yol açan, məcaz dolu söz birləşmələridir. Ayrıca, mən burada "ekologiyaya ziyan vuran" ifadəsini uğursuz sayıram. Çünki ekologiya bilik sahəsidir və özlüyündə cinayətin obyekti ola bilməz. Amma 116-cı maddədə çox doğru yazıldığı kimi, burada da ətraf mühitdən söhbət gedə bilər. Ətraf mühitə və dediyim kimi, onun o elementlərinin obyektiv cəhəti uzun sürən olmalıdır, genişmiqyaslı olmalıdır və ciddi ziyan vurmalıdır. 116-cı maddədə bu elementlər sadalanıb və çox konkretdir. Baxmayaraq ki, "Ətraf mühitin mühafizəsi haqqında" Qanunda "fəlakət" ifadəsi işlədilib, amma Cinayət Məcəlləsi daha aydın, siyasi yozumlara qapalı olmalıdır. Ona görə mən komitədə səsləndirdiyim təklifi artıq burada yenidən səsləndirdim. Hesab edirəm ki, bu şəkildə bu maddə qəbul olunmamalıdır. Onun üzərində hələ ciddi çalışmaq lazımdır. Təşəkkür edirəm, sağ olun.

**Sədrlik edən.** Sağ olun. Erkin müəllim, bax, Sizin indi dediklərinizin hamısı ikinci oxunuşa aiddir. O dəyişikliklər və sair. İndi birinci hissə ilə bağlı, təbii ki, qəbul edirik. Əli müəllim, burada ikinci oxunuşa aid fikirlər səsləndirildi, xahiş edirəm, bunları da nəzərə alasınız. Hikmət Məmmədov. Buyurun, Hikmət müəllim.

**Hikmət Məmmədov**. Hörmətli xanım sədr, doğrudan da, COP29 kimi mötəbər bir tədbirə hazırlaşdığımız mərhələdə "ekosid" termininin Azərbaycan Respublikasının qanunvericiliyinə gətirilməsi çox vacib və aktual bir məsələdir. Nəzərə almaq lazımdır ki, söhbət dünyanın bir nömrəli problemi, vaxtı ilə baş vermiş bu ekosid hadisələrinə əsaslanır, həm də söykənir. Məsələ ondadır ki, biz yeni termin yaratmırıq və beynəlxalq hüquqda olan hazır

termindən istifadə edirik. Yəni standart olaraq.

Qaldı ki Azərbaycan dilinin termin yaratmaq xüsusiyyətinə, bizim dilimizin imkanları o qədər genişdir ki, biz hətta bəzən öz sözlərimizə deyil, ərəb-fars sözlərinə belə yerli şəkilçi, yaxud yerli sözlərə ərəb-fars şəkilçisi artırmaqla termin yaratmışıq. Hətta söz yaratmaq təcrübəmizdə ərəb sözlərinin önünə inkar fars şəkilçisi artırmaqla belə termin yaratmışıq. Yəni bu bizim dilin imkanlarının göstəricisidir.

Mən elə gəlir, yeri gəlmişkən, bir məsələyə də toxunum. Mən burada Amerika Birləşmiş Ştatlarının o 60 senatoruna müraciət etmək istəyirəm. COP29-u siyasiləşdirməkdənsə, Azərbaycanın ev sahibliyi etdiyi bu tədbiri siyasi manipulyasiya predmetinə çevirməkdənsə, qoy onlar COP29 ərəfəsində müraciət etsinlər ki, Ermənistanda bölgəni ekoloji baxımdan terrorizə edən Metsamor Atom Elektrik Stansiyası bağlansın, Azərbaycanın ərazilərini transsərhəd çayları ilə, Həkəri çayı ilə, Oxçu çayı ilə çirkləndirən Qafan rayonundakı mis-molibden kombinatı bağlansın. Əgər belə olarsa, mən düşünürəm ki, regionu ekosid təhlükəsindən daha yaxşı xilas edə bilərik. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.55 dəq.) |
| --- | --- |
| Lehinə | 117 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 117 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti məsələ 26-cı məsələdir. İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb və bu gün komitənin rəyini bildirmək üçün söz komitənin üzvü Kamal Cəfərova verilir. Kamal müəllim, buyurun, məlumat verin.

**Kamal Cəfərov.** Çox sağ olun, hörmətli xanım sədr. İlk öncə qeyd edim ki, Sizin dəstəyinizlə komitələrin genişləndirilmiş iclası keçirildi. Ekologiya sahəsində ixtisaslaşmış QHT-lərin nümayəndələri və ekspertlər iştirak etdi və geniş müzakirələr oldu. Kifayət qədər səmərəli görüş keçirildi.

Əziz həmkarlar, qanun layihəsinin məqsədi 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində ekoloji məsuliyyətin artırılmasıdır. Ümumilikdə, təklif edilən dəyişikliklərin əsas predmeti tullantıların idarə olunması sahəsində inzibati məsuliyyətin sərtləşdirilməsidir. Birincisi, tütün məmulatının istehlakına dair məhdudiyyətlərə əməl edilməməsinə görə inzibati cərimənin artırılması, habelə həmin məmulatların ətraf mühitə təkrar atılmasına görə daha sərt sanksiyanın müəyyən edilməsi təklif edilir.

İkincisi, layihədə məişət tullantılarının kənar yerlərə atılmasına görə həm mövcud sanksiyalar sərtləşdirilir, həm də əməlin təkrar törədilməsinə görə və məişət tullantılarının buna cavabdeh şəxslər tərəfindən vaxtında xüsusi ayrılmış ərazilərə daşınmamasına görə yeni inzibati tənbehlərin müəyyən edilməsi də təklif edilir.

Üçüncüsü, yollara və ya yol qurğularına tullantı və ya nəqliyyat vasitələrindən bayıra hər hansı əşya atılmasına görə mövcud inzibati xəta ümumiləşdirilərək yeni maddə

formasında təqdim edilir. Yekun olaraq, dəniz və çay nəqliyyatı gəmilərindən, dəmir yolu nəqliyyatı vasitələrindən tullantıların atılmasına görə də inzibati tənbehin artırılması təklif edilir.

Əziz həmkarlar, qanun layihəsinin qəbul edilməsi ilə tullantıların insan sağlamlığına və ətraf mühitə zərərli təsirinin qarşısının alınması sahəsində qanunlarımız daha çəkindirici xarakter daşıyacaq. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Çıxış etmək istəyənlər var. Zahid Oruc. Buyurun.

**Zahid Oruc**. Təşəkkür edirəm. Hörmətli sədr, hörmətli millət vəkilləri. Fərqindəyik ki, fasilədə danışmaq bir qədər təqdir olunmur, amma məsələnin əhəmiyyətini nəzərə alaraq, qısa bir neçə qeydimi söyləmək istəyirəm.

Bu layihə ilə bağlı mediada yayılan məlumatlara reaksiyaları izləməyə çalışdıq və çox müsbət haldır ki, hətta hakimiyyəti müxtəlif məsələlərdə ittiham edənlər belə bu məsələlərdə sanksiyaların artırılmasının, cəza siyasətinin tərəfində olduqlarını göstərdilər. Çünki bir sıra ölkələrin real nümunələrini gətirmək olar. İndi ÜDM-nin adambaşına düşən nisbəti bizimlə uyğun olan ölkələrdə, çox-çox öndə olan dövlətlərdə də sanksiya dərəcələri, demək olar ki, yuxarıdır. Bu, birinci məsələ.

İkincisi, yəni bununla kimsə büdcə dolduracaq və sair kimi anlayışlar, yanaşmalar da tam yanlışdır. Amma real mənzərəyə biz bir qədər bütöv baxmalıyıq. Mən statistikanı qaldırıb baxmaq istədim ki, bu maddələrlə büdcəyə nə qədər vəsait daxil olub. Yalnız 2018-ci ilin göstəriciləri var. O da 10 min şəxsin tütün məmulatlarının atılması ilə bağlı 383 min manata yaxın cərimələndiyinə dair məlumatlar var. Göründüyü kimi, rəqəm böyük deyil. Ancaq bununla bərabər, qanunun fəlsəfəsi, məqsədi birinci

növbədə insanları kütləvi cərimələmək deyil, daha artıq onun çəkindirici funksiyasıdır. Amma mən düşünürəm, bu məsələyə bütöv baxmalıyıq, dediyimiz məsələ ondan ibarət olmalıdır ki, obyektiv reallığı düzgün təhlil edək. O da ondan ibarətdir ki, bir sıra yerlərdə bu cür tullantı ərazilərinin dağı, məkanı öz-özünə yaranıb. İnsanlar sanki bunu həyatlarının ayrılmaz hissəsinə çeviriblər. Həm bina həndəvərində, həm də yaşayış məskənləri ətrafında. Ona görə də vətəndaşı bəri başdan ittiham etmək ki, o, hansı isə bir tullantını maşınla aparır və uyğun olmayan yerdə atır, bunun özü doğru deyil. O uyğun olan yerlərin hamısını biz müəyyənləşdirmişikmi? Bir. Məsələn, paytaxtın özündə o tullantı qutuları varmı?

Üçüncüsü, mən əvvəllər kənd rayonunu təmsil etmişəm. İndi şəhərdə görüşlərim zamanı, – bir qədər mövzu ilə bağlı olmayan bir məlumatı deyim, – məsələn, Bakıda lift fondunun 40 faizi Xətaidə yerləşir. Yaşayış massivlərinin kütləvi olaraq tikintisi də 1970-ci illərdə Xətaidə aparılıb və onların böyük əksəriyyətinin zirzəmiləri şirin sularla doludur və onların əksəriyyəti tullantı yerləridir. O insanlar oradan sanki istifadə ediblər. Ona görə də mən bu məsələ ilə bağlı qarşıdakı dövrdə həm də təşviqedici, stimullaşdırıcı tədbirlərin həyata keçirilməsinin tərəfindəyəm. Məsələn, burada yaxşıdır ki, məişət tullantılarının daşınmasına cavabdehlik daşıyan qurumların da cəzalandırılması ilə bağlı mövqe var. Yalnız bunu törədənlər deyil. Ancaq məsələn, "təmiz şəhər" layihələri, hətta bu cür açıq səhmdar cəmiyyət mövcuddur. Mən bu dəqiqə baxdım, görüm, bunların fəaliyyətləri nədən ibarət olub, büdcələri nə qədərdir. Gördüm ki, müxtəlif xarakterli işlər həyata keçirirlər. Amma məsələn, Bakıda bir rayonun digərindən təmizliyə

görə indeksi çıxarılsa, buna görə müəyyən büdcə ayırmalarında onlara üstünlük verilsə, yaxşımı olar? Məncə, hə. Təmiz küçə, nümunəvi məhəllə, nümunəvi müəssisə layihələri həyata keçirildiyində, məncə, biz bundan fayda götürmüş olarıq. Yəni bu, zamanında da istifadə olunub.

Məsələn, Ələtlə bağlı sizə deyim. İndi burada hörmətli Kamal müəllim məlumat verəndə dedi, dənizin qorunması. Bizim əksər yerlər, mən bərk məmulatları demirəm, maye sularının hamısının axıdıldığı yerlər kanalizasiyalarla təmin olunmayan yerlərdir. Ələt mühüm bir azad iqtisadi zonadır. Amma onun ətraf ərazilərinin hamısı bir qədər daha çox orta və aşağı imkanlı insanlarla məskunlaşıbdır və onların da böyük əksəriyyəti minimum bu cür standartlardan məhrumdurlar. Biz onların üzərinə bu qanunu ələ alıb getdiyimizdə, məncə, yanlış nəticələr əldə etmiş olacağıq. Ona görə də "təmiz şəhər", "ekoloji təmiz ölkə", bayaq danışdığımız məsələlərdən də qaynaqlanıb desək, "ekosidsiz ölkə", bu, nə qədər xoş məramdırsa, amma bundan ötrü o mühiti formalaşdırmaq müvafiq dövlət orqanlarının işidir. Ona görə də mən düşünürəm ki, yalnız cərimələr kifayət etməyəcək. Biz stimullaşdırıcı addımları da atmalıyıq. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Zahid müəllim, çox sağ olun. Birincisi, onu deyim, fasilə zamanı heç kimə bir məhdudiyyət qoyulmur ki, çıxış etməsin. Bu, bir.

İkincisi isə Siz vurğulayırsınız ki, təkcə cərimələr deyil, təbii, təkcə cərimələr deyil, burada ən birinci, maarifçilik işi lazımdır, mədəniyyət səviyyəsini qaldırmaq lazımdır, məişət mədəniyyətini, insanların məişət mədəniyyətini bu mənada qaldırmaq lazımdır. Təbii ki, müxtəlif sahələrdə işlər aparmaq lazımdır. Ancaq bu cərimələr də çox vacibdir. Cərimələr də mütləq olmalıdır.

İndi mən bu barədə çox təfərrüata varmaq istəmirəm. Mən bilirəm ki, komitədə bu haqda çox ətraflı danışılıb.

Bu mövzu ilə bağlı növbəti və sonuncu çıxış. Sahib Alıyev. Sahib müəllim, buyurun.

**Sahib Alıyev.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, dəyərli həmkarlar. Mən bu qanunda edilən düzəlişi iki baxımdan müsbət dəyərləndirirəm. Birincisi, cəmiyyətdə birgəyaşayış mədəniyyətinin daha da artmasına yönəlib. İkincisi isə, təbii ki, ekologiyanın və sağlamlığın qorunması üçün son dərəcədə mühüm bir addımdır. Çox sevindiricidir ki, həm bu qanunvericilik aktı, həm də bundan öncə daha 2 qanunvericilik aktı Azərbaycan dövlətinin, eyni zamanda, COP29 öncəsi öz üzərinə götürdüyü missiyaya necə də məsuliyyətlə yanaşdığını ortaya qoyur.

Əlbəttə, hər kəs bunu birmənalı şəkildə təqdir edir, dəstəkləyir. Amma hörmətli Zahid müəllim də toxundu, sosial şəbəkədə bəzən bununla bağlı, yəni cərimələrin həcminin guya ümumi daxili məhsula nisbəti məsələsində mizan-tərəzinin pozulduğu və sair kimi fikirlər də irəli sürülür. Burada, əlbəttə, qətiyyən ümumi daxili məhsul məsələsi deyil, məhz cəmiyyət üçün qəbul edilən qanunvericilik aktının, dəyişikliklərin nə dərəcədə önəmli olub-olmamasıdır.

Ona qalmış, tutaq ki, Keniya kimi bir dövlətdə plastik qabları gəzdirməyə görə 32 min 500 avro məbləğində cərimə kəsilir. Orada da bilirsiniz ki, həyat səviyyəsi heç də çox yüksək deyil. Məhz ondan sonra o plastik qabların içərisində boğulan ölkədə normal bir atmosfer yaranmağa başladı və Avropa ölkələri də artıq o yolla gedirlər. Ümumiyyətlə, biz baxsaq görəcəyik, bu baxımdan ən ciddi qanunlar, ən sərt cərimələr məhz o ölkələrdədir ki, onlara biz örnək kimi yanaşırıq. Söhbət Yaponiyadan

gedir, söhbət Almaniyadan gedir, söhbət İsveçrədən gedir və sair və ilaxır. Yəni ona görə də əgər biz, doğrudan da, daim o ölkələri örnək gətiririksə, bu zibil məsələsinə yanaşmada da bunu nəzərə almalıyıq.

Mən hətta bu fikirdəyəm ki, biz tezliklə zibillərin çeşidlənməsi məsələsində də cərimələri tətbiq etməliyik. Bu, son dərəcə mühüm bir məsələdir. Demək olar ki, aparıcı dövlətlərin hamısında buna son dərəcədə ciddi yanaşılır. Almaniyada işlədilmiş adi bir element supermarketdə onun üçün nəzərdə tutulan yerə aparıb təhvil verilmədiyi təqdirdə, onu etməyən şəxs bizim pulla götürdükdə 5500 manat cərimə ilə cəzalandırılır. Bir çox hallarda, hətta təsəvvür edin, İsveçrə bu baxımdan ən örnək, ən təmiz ölkələrdən biri sayılır. Hətta tutaq ki, karton qabı kağızlar olan zibil qabına yerləşdirirsənsə və o, düz-əməlli qatlanmırsa, iplə sarınmırsa, buna görə də 550 manatdan artıq cərimə ödəmək lazımdır. Yəni bunlar elə-belə deyil. Hər insan 1 il ərzində 400 kiloqram zibil istehsal edir. Bu zibillərin emalları da fərqlidir, onların artıq təbiətdə məhvi də müxtəlif vaxtlar tələb edir. Ona görə bu çeşidlənmə son dərəcə vacibdir və biz gec-tez buna getməliyik.

Burada bir məsələni də deyim. İndi baxdım, tütün məmulatlarının atılması ilə bağlı, bəli, burada da bizim qanunvericilikdə sərtlik var. Alqışlayıram. Amma biz ictimai yerlərdə tütün məmulatlarından istifadə ilə bağlı qanun qəbul etdik. Çoxumuz şadlıq evlərinə gedirik, çox təəssüf ki, orada vəziyyəti görürük. Elə bil ki, həmin qanun qəbul edilməyib. Burada, təbii ki, ictimai qınaq son dərəcə mühüm rol oynaya bilər. Heç olmasa, oradakı administratorlar monitorlara ardıcıl olaraq yaza bilərlər ki, buradakı xanımları, siqaret çəkməyənləri, uşaqları nəzərə

alaraq, siqaret çəkmədiyiniz üçün sizə təşəkkür edirik. Heç olmasa, yumşaq yöndə bu cür tənbehlərlə, ictimai qınaq yolu ilə belə halların qarşısını ala bilərik.

Az öncə Qərb ölkələrindən misal gətirdim. Amma çox təəssüf ki, yaxşı mənada. Pis mənada da misal gətirmək olar. Mənəvi mühitin korlanmasında, o cümlədən də Azərbaycana yanaşmada biz bunu görürük ki, bu yöndə də Qərb ölkələri öncüllük...

**Sədrlik edən.** Sağ olun, Sahib müəllim. Hörmətli həmkarlar, daha çıxış edən yoxdur. Mən məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 14.09 dəq.) |
|---|---|
| Lehinə | 113 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 114 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

27-ci məsələyə keçirik. "Bələdiyyələrin statusu haqqında" və "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Regional məsələlər komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Siyavuş Novruzova söz verirəm. Siyavuş müəllim, dünən danışdığımız kimi, xahiş edirəm, buyurun, məlumat verin.

**Siyavuş Novruzov,** *Milli Məclisin Regional məsələlər komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Bu qanun layihəsi birinci oxunuşda Milli Məclisdə müzakirə olunub, qəbul olunubdur və bu gün ikinci oxunuşa təqdim olunur.

İkinci oxunuşun tələblərinə uyğun olaraq, qeyd etmək istərdim ki, indi yeni seçilmiş parlament üzvü həmkarlarımıza görə qısaca da olsa qanun layihəsi haqqında məlumatı diqqətlərinə çatdıracağıq və qanun layihəsinə səs verib qəbul olunmasını onlardan xahiş edirik.

Bu qanun layihəsi cənab Prezident tərəfindən qanunvericilik təşəbbüsü ilə Milli Məclisə daxil olubdur. Qanun layihəsində təklif edilən dəyişiklikləri şərti olaraq iki qrupda birləşdirmək olar. Birinci qrup dəyişikliklər bələdiyyələrin fəaliyyəti sahəsində yaranan münasibətlərin tənzimlənməsi üçün hüquqi əsasların yaradılması, ikinci qrup dəyişikliklər isə yuxarıda göstərilən qanunlarda bəzi maddələrin qanunvericiliyin tələblərinə uyğun təkmilləşdirilməsi, normaların daha aydın və birmənalı ifadə edilməsi, icra müddətinin dəyişdirilməsi məqsədi daşıyır.

Ümumilikdə, qanun layihəsində 37 maddədə dəyişiklik nəzərdə tutulubdur. "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununda 25, "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununda 12 dəyişiklik nəzərdə tutulubdur.

Ümumi olaraq, nəzərdə tutulanlar nədən ibarətdir? Müvafiq dəyişiklikləri biz Milli Məclisdə də qəbul etmişik. Yəni Milli Məclisin həm Daxili Nizamnaməsində, həm də "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Qanunda olan bəzi maddələrə uyğun müddəalar bələdiyyələrin fəaliyyətində də tətbiq olunur. Yəni bu nədən ibarətdir? Epidemiya əleyhinə rejim, sanitar-gigiyena və karantin rejimi olduğu

təqdirdə, bələdiyyə iclaslarının da onlayn keçirilməsi. Biz Milli Məclisdə bununla bağlı qanun qəbul etmişik ki, belə hal olduqda Milli Məclis iclaslarını onlayn şəkildə keçirə bilər. Bunu artıq bələdiyyələrə də biz tətbiq edirik.

Digər məsələ bələdiyyə üzvlərinin və bələdiyyə sədrinin seçilməsidir. O da yenə Milli Məclisin Daxili Nizamnaməsinə uyğun qaydada müəyyən olunur ki, bələdiyyə seçildikdən sonra bələdiyyənin ilk iclasına ən yaşlı bələdiyyə üzvü sədrlik edir. O, bələdiyyə üzvlərinin siyahısını oxuyur və ondan sonra isə bələdiyyə sədrinin seçilməsi nəzərdə tutulur. Burada yenə həmin qaydalar öz əksini tapır ki, bələdiyyə üzvlərinin yarısından çoxu səs verdikdə bələdiyyə sədri və bələdiyyə sədrinin müavinləri seçilə bilər. Yəni təxminən bu cür dəyişikliklər nəzərdə tutulur ki, bu da bələdiyyələrin gələcək fəaliyyətinin təkmilləşdirilməsinə xidmət edəcəkdir.

Digər məsələlər isə müddətlərin azaldılması və hesabatların onlayn qaydada tərtib olunmasıdır, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqana məlumatların göndərilməsidir ki, orada əvvəllər yazılı şəkildə göndərilirdi. İndi tələb olunur, bunlar hamısı onlayn qaydada göndərilsin və bələdiyyə qərarlarının hər biri onların öz saytlarında yerləşdirilsin ki, vətəndaşların onunla tanış olmaq imkanları təmin edilsin. Müddətlər əvvəl 5 gün idi, 3 günə salınır. Müəyyən araşdırmaları aparmaq üçün 15 gün idi, 30 günə qaldırılır və sair.

Təqdim olunan layihə təxminən bundan ibarətdir. Yəni burada dəyişiklik sırf bələdiyyənin işinin, fəaliyyətinin təkmilləşdirilməsinə xidmət etməkdən ibarətdir. Ona görə də həmkarlarımdan bu qanun layihəsinə səs vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Siyavuş müəllim, ətraflı məlumat üçün

çox sağ olun. Təklif edirsiniz, səsə qoyaq. Ancaq 6 deputat yazılıb.

Hörmətli həmkarlar, Siyavuş müəllim çox ətraflı məlumat verdi, həm konseptual baxımdan, həm də ikinci oxunuşun tələblərinə uyğun olaraq. Əgər təkid edən yoxdursa, biz səsə qoyaq.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çox sağ olun. Mən məsələni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 14.14 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin 28-ci məsələsinə keçirik. Milli Məclisin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi haqqında qərar layihəsidir. Layihəyə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri Səməd müəllimə söz verirəm. Səməd müəllim, buyurun.

**Səməd Seyidov.** Hörmətli xanım sədr, söz verdiyinizə görə minnətdaram. Mən bir məsələni xüsusi qeyd etməliyəm. Bu gün parlamentdə 102 işçi qrupunun rəhbərləri təyin olunub seçiləcək. Bu bizim parlamentin beynəlxalq münasibətlərinin nə dərəcədə inkişaf etdirilməsinin birbaşa göstəricisidir. Buna görə Sizə, hörmətli Sahibə

xanım, keçmiş, yəni altıncı çağırış millət vəkillərinin Milli Məclisdə gördükləri işlərə görə mən təşəkkürümü bildirirəm. Bu, birbaşa parlamentin beynəlxalq əlaqələri ilə bağlı olan məsələdir. Vaxtı ilə bu qrupların sayı o qədər də çox deyildi. Bu gün 100-ü keçib.

Etiraf etmək lazımdır ki, işçi qruplarının bəziləri hətta dostluq qrupları belə adlandırıla bilər. Ona görə ki, əlaqələrimiz çox yüksək səviyyədə təşkil olunur. Onu da deməliyəm ki, bəzi ölkələr hələ öz münasibətlərini normal şəkildə təşkil edə bilmirlər. Ancaq haqq yoluna qayıdacaqlar. Ona görə ki, Azərbaycanın apardığı xarici siyasət açıq siyasətdir, səmimi siyasətdir və bu siyasət cənab Prezident tərəfindən Azərbaycanı ən yüksək səviyyədə təmsil edən siyasətdir. Biz isə millət vəkilləri olaraq Azərbaycanın milli maraqlarını bu işçi qrupları vasitəsi ilə ən yüksək səviyyədə təmsil və təqdim etməliyik. Ona görə hörmətli həmkarlardan xahiş edirəm, bu siyahını təsdiq edəsiniz. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Aydın müəllim yazılıb. Aydın müəllim, buyurun. Xahiş edirəm, 1 dəqiqə.

**Aydın Mirzəzadə.** Təbrik edirəm, eyni zamanda, mənə göstərilən etimada görə təşəkkür edirəm. Redaktə xarakterli bir sözüm var. 48-ci sətirdə Koreya ilə dostluq qrupunda hansı Koreya ilə bizim dostluq qrupunun olması aydınlaşdırılmalıdır. 2 Koreya dövləti var – Koreya Xalq Demokratik Respublikası, bir də Koreya Respublikası.

İkincisi isə, burada Fransa ilə dostluq qrupu yoxdur. Hesab edirəm, bu düzgündür. Bizə düşmən olan...

**Sədrlik edən.** Deyəsən, mən yandıranda Sizin mikrofon sönüb. Çox sağ olun. Mən düşünürəm, Katiblik dediyiniz səhvi, təbii ki, nəzərə alacaq.

Hörmətli həmkarlar, çox sağ olun. Mən Milli Məclisin

qərarını səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 14.18 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Mən dünən komitə sədrləri ilə Milli Məclisin beynəlxalq əlaqələri və bu işçi qrupları haqqında bir neçə fikrimi bölüşmüşəm və tapşırmışam ki, komitənin üzvlərinə çatdırsınlar. Mən ümidvaram ki, belə də olacaq.

Çox sağ olun, qərar qəbul edildi. Mən işçi qruplarının rəhbərlərinə uğurlar arzulayıram.

Hörmətli həmkarlar, bununla da bugünkü iclasımız başa çatdı. Növbəti iclasın vaxtı barədə sizə məlumat veriləcək. Sağ olun.

# EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

***<u>8 oktyabr 2024-cü il</u>***

**Arzu Nağıyev.** Bir müddət öncə ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin rəhbəri ermənipərəst Ben Kardin, onun dili ilə desək, qondarma qurum olan "Artsax"ın guya etnik təmizlənməsini və Azərbaycanın Ermənistana qarşı davam edən təcavüzünü pisləyib. Bu məsələlər ABŞ Konqresinin Helsinki Komissiyasında "Demokratiyaya dəstək və Ermənistanın Qərb gələcəyi" mövzusunda keçirilən dinləmələrdə müzakirə olunub.

Kardin bildirib ki, Azərbaycan "Dağlıq Qarabağ"da guya etnik təmizləmə aparmaqla yanaşı, Ermənistanın suveren ərazilərinə təcavüzü davam etdirərək "Ermənistanın suverenliyinin bir hissəsini zorla məhv etməyə" çalışır. Kardin heç bir konkret fakta istinad etmədən sülh prosesinin hazırkı şərtlərini qeyri-bərabər hesab e bunun sərhəd məsələlərini həll etmədiyinə işarə Məlumdur ki, bu, kökündən yalandır, sadəcə olaraq, iki dövlət vasitəçi olmadan bu məsələni özü həll edir, bu isə ABŞ-ı razı sala bilməz.

Dəvət edilən və birbaşa ermənilərlə maddi cəhətdən bağlılıqları olan və Amerika Erməni Milli Komitəsi (ANCA) tərəfindən maliyyələşən ekspert adlandırılan, əsasən, daşnaklarla əlbir olanlar Azərbaycanın "Dağlıq Qarabağ"a hücumu və Ermənistanın suveren ərazisini işğal etməsi, Ermənistanın təhlükəsizliyinə birbaşa təhdid yaratması barədə yalan bəyanatlar səsləndirirlər. Hətta bir az da irəli gedərək, guya Azərbaycanın Ermənistan ərazilərində hərbi mövcudluğunun gücləndirilməsi və Azər-

baycanın növbəti hərbi eskalasiyası qarşısında Ermənistanın zəifliyini müzakirə ediblər. Guya Azərbaycan danışıq prosesini uzadır, Konstitusiya ilə bağlı tələblər irəli sürür və sair. Ən çox canfəşanlıq edən ermənipərəst konqres üzvləri Anna Eşuvə Kris Smit ABŞ Prezidenti Co Bayden administrasiyasını Azərbaycanı "Dağlıq Qarabağ"dakı soyqırım təcavüzünə görə məsuliyyətə cəlb etməyə çağıran absurd, ikipartiyalı qətnamə təklif ediblər.

Bundan fərəhlənən Amerika Erməni Milli Komitəsi avqust ayında ABŞ Konqresinin sentyabrın 19-da Azərbaycanın "Artsax"da 2020–2023-cü illər soyqırımına görə cavabdehlik daşıması üçün tədbir keçirəcəyini açıqlamışdı. Təbii ki, Azərbaycan dövləti bu qondarma bəyanatların absurd olduğunu bilirdi və dünya ictimaiyyətinə də kimin haqlı olduğunu dəfələrcə bildirmişdi.

Buna baxmayaraq, yenə də 60-a yaxın amerikalı qanunverici dövlət katibi Entoni Blinkenə müraciət edərək COP29 iqlim sammitinə qədər siyasi məhbusları azad etmək üçün Azərbaycan Prezidenti İlham Əliyevə təzyiq göstərməyi xahiş edib. Eyni zamanda, Ermənistana qarşı "sülh danışıqlarını pozma riski" daşıyan guya onların təbirincə desək, "təxribatçı" bəyanatları pisləməyə çağırıblar.

Bu müraciətlərə cənab Prezident İlham Əliyevin oktyabrın 4-də Cəbrayıl şəhərində sakinlərlə görüşdə faktlara söykənən, beynəlxalq hüquq normalarına uyğun verdiyi cavab mükəmməldir. Prezident bildirdi ki, "Amerika Konqresinin 60 ermənipərəst konqresmeni Azərbaycana növbəti sanksiyalar tətbiq etmək üçün Amerika hökumətinə müraciət etmişdir. Səhər mən o müraciəti vərəqlədim, çirkin bir müraciətdir, bizim iradəmizə təsir edə bilməz. Ancaq bu, nəyi göstərir, bizə qarşı olan düşmənçilik siyasəti dayanmır".

Dövlət başçısı deyib: “O müraciətə baxdıqda mən təxmin etdim ki, bunun müəllifi də, ünvanı da birdir. Çünki bunun ünvanı Amerika Dövlət Departamentinin dövlət katibidir. Amma məndə bir zərrə qədər şübhə yoxdur ki, bu müraciət Amerika Dövlət Departamentində də yazılır. Yəni özləri özlərinə məktub yazırlar, bizi hədələmək üçün, bizi ittiham etmək üçün”.

Cənab İlham Əliyevin qeyd etdiyi kimi, ABŞ nə vaxt lazım olanda Azərbaycana qarşı sanksiyalar tətbiq edir və dayandırır. ABŞ Azərbaycana qarşı hələ 1992-ci ildə sanksiyalar tətbiq etdi, lakin doqquz ildən sonra dayandırdı. Çünki Əfqanıstanın işğalına başladılar və Azərbaycan onlara lazım idi. Onlar Əfqanıstanda qaldıqları müddətdə ABŞ Prezidenti hər il bu sanksiyaları dayandırırdı. Oradan qaçan kimi, bütün dünyanın gözü qarşısında yenə bizə qarşı sanksiyalar tətbiq etdilər. Yəni bizə ehtiyacları olanda bu sanksiyaları qaldırır, ehtiyacları olmayanda yenidən bərpa edirdilər.

Cənab Prezidentin dediyi kimi, Vaşinqton Bakı ilə dost olmaq istədiklərini deyir. Belə olduğu halda hansı dostluqdan danışırıq?

Yaxın tarixə baxsaq, Azərbaycana qarşı yeni sanksiyalar 2023-cü ilin sentyabrında Bakının Qarabağda lokal antiterror əməliyyat keçirməsi, nəticədə 2024-cü il yanvarın 1-də tanınmamış separatçı bir qurumun mövcudluğunu dayandırması ilə bağlı müzakirələrə başlanılıb. Nümayəndələr Palatasının keçmiş spikeri Nensi Pelosi ABŞ Prezidentinə Azərbaycana qarşı sanksiya tətbiq edilməsi xahişi ilə müraciət edib. Bundan başqa, 2024-cü ilin aprelində ABŞ konqresmeni Dina Titus bildirdi ki, o, Bakının Qarabağda hərəkətlərinə və “siyasi müxalifətə qarşı amansız repressiyaya” görə 44 Azərbaycan rəsmisinə qarşı

sanksiyalar layihəsi hazırlamışdır.

Yəni bunlar hamısı Azərbaycanın həyata keçirdiyi müstəqil daxili və xarici siyasəti həzm etməməkdən irəli gəlir, eyni zamanda, Ermənistanı vasitə seçərək Cənubi Qafqazda nüfuz sahibi olmağa çalışırlar. Eyni zamanda, Cənubi Qafqaz ABŞ üçün Rusiyanın təsirini azaltmaq baxımından vacibdir. Ermənistana gəlincə, xüsusən də problemlərinin həlli baxımından ABŞ-ın bu ölkə ilə bağlı heç vaxt məqsədyönlü siyasəti olmayıb, bu gün də yoxdur. Çünki ermənilər nə qədər özlərini qərbpərəst aparmağa çalışsalar da, Rusiyanın vassalıdırlar. Bundan da doğan təzahürlər ondan ibarətdir ki, hər ölkədə faktiki olaraq milli təhlükəsizlik strategiyası müxtəlifdir, burada əsas prioritet Rusiya və Çinin siyasətinə qarşı durmaqdır. ABŞ bizim regionda da məhz bu məntiqlə fəaliyyət göstərir.

Vaşinqtonun Cənubi Qafqazın ayrı-ayrı dövlətləri, o cümlədən Azərbaycan, Ermənistan və ya Gürcüstanla ciddi problemi yoxdur. Çünki Cənubi Qafqaz Yaxın Şərq deyil, burada ABŞ-ın İsrail kimi ciddi strateji müttəfiqi də mövcud deyil. Ona görə də qarşılıqlı səfərlərə ABŞ-ın regional maraqları kontekstində baxmaq lazımdır. Aydın məsələdir ki, ABŞ-ın Ermənistanda çox böyük təsiri olsa da, Azərbaycan və Gürcüstandan kənarda, tək Ermənistanla heç nə edə bilməyəcəklər.

Azərbaycanla diktə yolu ilə danışmaq, əsassız, heç bir beynəlxalq sənədlərə istinad etmədən ittiham etmək, lüzumsuz sanksiyalar tətbiq etməyə çalışmaq, bunu məhz özlərinin seçkiqabağı kampaniyasında piar kimi istifadə etmək mümkün olmayacaq. Çünki Azərbaycanın əsas məqsədi suverenliyini və ərazi bütövlüyünü qorumaq, istənilən təhdidin qarşısını almaq və hər bir vətəndaşımızın rifahını təmin etməkdir.

**Fatma Yıldırım.** Hazırda COP29-un keçirilməsi ilə əlaqədar dövlətimiz tərəfindən beynəlxalq müstəvidə fəal iş aparılır, müxtəlif təşkilatlarla əməkdaşlıq çərçivəsində bir sıra sənədlər imzalanıb. Məqsəd COP29-un yüksək səviyyədə keçirilməsi və qlobal iqlim dəyişiklikləri ilə mübarizədə beynəlxalq birliyin həmrəyliyinə nail olmaqdır. Hesab edirəm ki, belə bir dünya səviyyəli mötəbər tədbirin yüksək səviyyədə keçirilməsi baxımından bu sazişin tarixi əhəmiyyəti var.

Həqiqətən də, iqlim dəyişikliyi artıq bütün dövlətlər qarşısında qlobal çağırış olaraq dayanır. Buna görə də deyə bilərik ki, dünyada ən irimiqyaslı tədbir olan COP-un keçirilməsi birtərəfli məsələ deyil. İqlim dəyişikliyi məsələsində beynəlxalq ictimaiyyətin, dünya ölkələrinin üzərinə böyük iş və məsuliyyət düşür. Şübhə yoxdur ki, etibarlı tərəfdaş olan Azərbaycan, həmişə olduğu kimi, bu dəfə də öz üzərinə düşən missiyanı yüksək səviyyədə yerinə yetirəcək, iqlim dəyişikliyi ilə mübarizədə yeni Azərbaycan modelini yaradacaq. Ölkəmizin ev sahibliyi edəcəyi COP29 iqlim dəyişikliyi ilə bağlı yeni yanaşmaların yaranmasına və müxtəlif maraqlı tərəflər arasında əməkdaşlığa imkan verəcək. Azərbaycan kimi digər bütün ölkələr də bu problemin həllinə töhfə verməlidirlər. Bu nöqteyi-nəzərdən ölkəmizdə keçiriləcək COP29 mühüm beynəlxalq platformaya çevriləcək.

Məlumdur ki, Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri “Təmiz ətraf mühit və yaşıl artım ölkəsi” kimi müəyyən edilib. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır. Hörmətli

Prezidentimiz tərəfindən 2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi də, düşünürəm ki, tarixi bir qərar oldu. Nəzərə alaq ki, Azərbaycan beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə daim öz töhfələrini verir. Bu baxımdan, ölkəmiz qlobal problemlərdən biri olan iqlim dəyişmələrinə qarşı səyləri səfərbər etmək və bu mübarizəyə töhfə verməklə dünyanın xüsusi diqqət mərkəzindədir. 2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi də bu mənada müstəsna əhəmiyyət kəsb edir.

Azərbaycan parlamenti də ətraf mühitin, ekologiyanın mühafizəsi ilə əlaqədar öz mühüm töhfələrini verməkdədir. Bu istiqamətdə indiyədək bir sıra vacib qanunlar qəbul edilib. Eyni zamanda, iqlim dəyişiklikləri ilə mübarizədə dünya ölkələrinin parlamentləri ilə əməkdaşlığa da böyük önəm verilir. Ölkəmizdə keçiriləcək COP29 ərəfəsində isə bu məsələ xüsusi ilə aktualdır və parlamentimiz beynəlxalq tərəfdaşlarla əməkdaşlığı diqqət mərkəzində saxlayır. Bildiyimiz kimi, Milli Məclis geniş beynəlxalq əlaqələrə malikdir. Nümayəndə heyətlərimiz müxtəlif beynəlxalq parlament təşkilatlarında təmsil olunur, eləcə də digər ölkələrin parlamentləri ilə dostluq qruplarımız fəaliyyət göstərir. Deputatlarımız əcnəbi həmkarları ilə görüşlərində, xarici səfərlərində COP29-un önəmi, Azərbaycanın bu mötəbər tədbirə yüksək səviyyədə hazırlaşması ilə bağlı məlumat verirlər.

Azərbaycan Milli Məclisinin fəal əməkdaşlıq etdiyi beynəlxalq qurumlardan biri də Beynəlxalq Parlamentlərarası İttifaqdır (IPU). Beynəlxalq Parlamentlərarası İttifaq iqlim dəyişikliyi ilə mübarizədə multisektoral müzakirələrdə parlament nümayəndələrinin iştirakını hər zaman

dəstəkləyib. Bizim parlament də bu təşkilatla COP29 çərçivəsində əməkdaşlıq haqqında sənəd imzalayıb.

Bütün bunları söyləməkdə məqsədim odur ki, Azərbaycan parlamenti də iqlim dəyişiklikləri ilə mübarizə işində fəal iştirak edir. COP29-un keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin üzvü kimi, hesab edirəm ki, biz öz fəaliyyətimizlə bəşəriyyət üçün çox önəmli olan bu prosesə hər zaman töhfə verməliyik. COP29 bu hədəf üçün böyük bir fürsətdir. Müzakirə etdiyimiz saziş də bu sahədə bizim qarşıya qoyduğumuz məqsədlərə xidmət edir. Ona görə də hər birinizi sazişi dəstəkləməyə çağırıram.

**Jalə Əliyeva.** Böyük Zəfərdən sonra ötən dörd il ərzində Azərbaycan bölgədə sülhün və sabitliyin təmininə gedən yolda inamla irəliləməkdədir. Azərbaycan hər keçən gün imza atdığı nailiyyətlərlə dünyaya öz varlığını, gücünü bir daha nümayiş etdirir. Bütün dünya ölkəmizin siyasi iradəsinə və ədalət prinsiplərinə sadiqliyinə şahid olur.

Ölkəmizin nüfuzu hər ötən gün daha da artır. Azərbaycan bölgənin söz sahibi, iradəsi ilə hesablaşılan güclü bir lider ölkəsinə çevrilir. Elə bu faktın özü ölkəmizə dostlar qazandırmaqla bərabər, bədxahlarımızın da sayını artırır.

Cəmi bir aydan sonra Azərbaycan COP29-a ev sahibliyi edəcək. Bu əhəmiyyətli tədbirin keçiriləcəyi məkan olaraq Azərbaycanın seçilməsi beynəlxalq ictimaiyyətin ölkəmizə inamını və etimadını bir daha sübut edir. Lakin təəssüflər olsun ki, bəzi Qərb dairələri, xüsusi ilə ABŞ Konqresinin bəzi üzvləri bu danılmaz faktı görmək və qəbul etmək istəməyərək, ölkəmizə təzyiq metodlarını davam etdirməyə cəhd göstərirlər.

Prezident İlham Əliyevin bu günlərdə Cəbrayıl rayonunda çıxışı zamanı da vurğuladığı kimi, heç bir əsası olmayan bu təzyiqlər, irəli sürülən arqumentlər Azərbaycan

xalqının və dövlətinin iradəsi qarşısında çox gücsüz və zəifdir. Azərbaycanın həm ölkədə, həm də bölgədə ədaləti və sabitliyi təmin etmək yolundakı qətiyyətli mövqeyi dəyişməz olaraq qalacaq. Bölgədə süni olaraq yeni münaqişə ocaqları yaratmaq əzmində olan, siyasətini ikili standartlar üzərində quran qüvvələr Azərbaycanın dəmir iradəsini qıra bilməyəcək, "dəmir yumruğ"unu bükə bilməyəcəkdir.

ABŞ Konqresinin bu son addımı beynəlxalq hüquqa daban-dabana zidd olan, pozucu fəaliyyətdir. Azərbaycan xalqı ölkəsinə qarşı çevrilən hər hansı təxribatla mübarizədə daim dövlətinin yanındadır və inanır ki, ölkəsinin həyata keçirdiyi ədalətli siyasət hər zaman qalib gələcəkdir.

Milli Məclisin bir qrup deputatının Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə bu və bu kimi hallara qarşı ciddi tədbirlər görülməsi üçün etdiyi müraciətdə də bildirildiyi kimi, Azərbaycan heç vaxt təzyiqlərə boyun əyməyib və xalqımıza qarşı yönəlmiş haqsızlıqlara həmişə layiqli cavab verib. Azərbaycan xalqının iradəsi sarsılmazdır. Bir daha qeyd etməyi özümə borc bilirəm ki, ölkəmizin suverenliyini və sabitliyini təhdid edən bütün qüvvələrə qarşı mübarizədə daim dövlətimizin və Prezidentimizin yanındayıq!

**Müşfiq Cəfərov.** Mən istərdim, bugünkü çıxışımı son zamanlar dövlətimizə qarşı yönəlmiş beynəlxalq qərəzlə bağlı səsləndirim. Belə ki, 2020-ci il Vətən müharibəsində əldə edilmiş zəfərdən sonra bir çox dövlətlər Azərbaycanın daxili işinə qarışmaqla kifayətlənməyib, birtərəfli və qərəzli hesabatlar təqdim edir, açıqlamalar verirlər. Təbii ki, haqsız olan bu fikirlər dövlətimiz tərəfindən "səmərəsiz, əsassız və qəbuledilməz" kimi qiymətləndirilir.

ABŞ uzun illər Azərbaycanı strateji tərəfdaş kimi gör-

düyünü qeyd edirdi, hətta NATO və müttəfiqləri Əfqanıstanda hərbi əməliyyatlar üçün Azərbaycandan tranzit kimi istifadə ediblər. Məlumdur ki, Əfqanıstandakı əməliyyatlar zamanı da oranı son tərk edən tərəfdaş dövlət məhz Azərbaycan olub. Ümumiyyətlə, son 4 ildə Amerika Konqresindəki dinləmələri və səsləndirilən çıxışları Azərbaycan və ABŞ arasında ikitərəfli və çoxtərəfli formatlarda olan münasibətlərə ciddi zərbə kimi qiymətləndirirəm.

Ağ Evin Cənubi Qafqazla bağlı siyasətindəki əsas məqsəd Azərbaycanı regiondakı lider mövqeyindən çəkindirmək üçün dövlətimizə təzyiq etməkdir.

ABŞ Konqresi və Avropa Parlamenti kimi qurumların dövlətimizə qarşı aqressiyasının təməlindəki əsas səbəb Ermənistana olan sevgi deyil. Bütün beynəlxalq aləmə də məlumdur ki, hazırda regionumuz güc savaşının meydanına çevrilmək kimi ciddi bir təhlükə ilə üz-üzədir. Çünki Avropa İttifaqı və ABŞ Azərbaycanla Ermənistan arasındakı sülh prosesindən daha çox, digər rəqiblərinin Qafqazdakı rolunun güclənməsindən narahatdır. Əgər bu gün Cənubi Qafqazda mövqe savaşı gedirsə, bunun yeganə günahkarı Ermənistan rəhbərliyidir. Əgər bu dövlət prinsipial və milli maraqlarına arxalanan siyasət yürüdə bilsəydi, regionda sülh və sabitlik bərqərar olardı.

Bir sözlə, Mərkəzi Asiyaya getmək və qısa yol olaraq Cənubi Qafqazdan istifadə etmək istəyən güclər sülhə və sabitliyə mane olurlar. Bunun üçün də onlar hətta Azərbaycanın daxili işlərinə, digər dövlətlərlə olan münasibətlərinə belə qarışmaqdan çəkinmirlər. Azərbaycanın digər dövlətlərlə imzaladığı tərəfdaşlıq müqavilələri nə Avropa İttifaqı, nə də Ağ Evin müzakirə obyekti ola bilməz. Bütün bunları da nəzərə alaraq, dövlətimizi qarşı tərəfi gücləndirib müdafiə etməklə hədələyən ABŞ ilə olan sazişlərə

xitam verilməsini istəyirik.

**Nigar Məmmədova.** Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında diplomatik münasibətlər 1993-cü ilin iyun ayının 11-də yaradılıb. 2006-cı ildə qarşılıqlı olaraq Bakıda və Minskdə səfirliklər açılıb. İki ölkə arasında bütün istiqamətlərdə münasibətlər yüksək səviyyədədir. Parlamentlər arasında yüksək səviyyədə əməkdaşlıq mövcuddur.

Azərbaycan Respublikası Milli Məclisində Azərbaycan-Belarus parlamentlərarası əlaqələr üzrə işçi qrupu fəaliyyət göstərir.

Azərbaycanla Belarus arasında yüksək səviyyəli dialoq və əməkdaşlıq əlaqələri mövcuddur. Son illərdə iki ölkə arasında siyasi, iqtisadi, elmi, təhsil, mədəni və digər sahələrdə əlaqələr yüksələn xətlə inkişaf edir və nəzərəçarpacaq dərəcədə fəallaşır. Ötən dövrün ən mühüm nailiyyətlərindən biri ikitərəfli münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə çıxarılması olub.

Azərbaycanla Belarus BMT, ATƏT, MDB kimi beynəlxalq və regional təşkilatlar çərçivəsində də əməkdaşlıq edir, ənənəvi olaraq bir-birinə qarşılıqlı dəstək verirlər.

Kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi sahəsində Azərbaycan–Belarus işçi qrupu da səmərəli fəaliyyət göstərir. Hər il ölkələrimizdə təşkil olunan sərgilər də aqrar sahədə fəaliyyət göstərən iş adamları və fermerlərin yeni məhsul və texnologiyalarla tanış olmalarına şərait yaradır, beynəlxalq sərgilərdə qarşılıqlı fəal iştirak iki ölkənin işgüzar dairələri arasında əməkdaşlığı daha da gücləndirir.

Hesab edirəm ki, adıçəkilən qanun layihələri ikitərəfli münasibətlərə töhfə verəcək.

**Ramid Namazov.** Mən ABŞ Konqresinin 60 üzvünün dövlət katibi Entoni Blinkenə 3 oktyabr tarixli müraciət-

lərindəki bir sıra məqamlara toxunmaq istərdim.

Bu müraciətlərinin əvvəlində onlar dövlət katibinə çağırış edirlər ki, rəhbərlik etdiyi qurum bizə təzyiq edərək erməni əsilli şəxslərin dərhal və qeyd-şərtsiz azad edilmələrini təmin etsin. Halbuki bu şəxslər Azərbaycan ərazisində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, terrorçuluq əməlləri və bir sıra ağır və xüsusi ilə ağır cinayət əməllərinə görə təqsirləndirilən şəxs qismində cinayət məsuliyyətinə cəlb olunublar.

Görünür, ABŞ Dövlət Departamentinin Ermənistan iqtidarı və məhkəmə-hüquq sisteminə təsir mexanizmi o qədər güclüdür ki, bundan ilhamlanan konqresmenlər bizə də asanlıqla təsir edə biləcəklərini zənn edirlər.

Azərbaycanı insan hüquqlarının pozulmasında ittiham edən şəxslər Quantanamo həbsxanasının, əgər oranı həbsxana adlandırmaq olarsa, qeyri-qanuni fəaliyyətini qanunla dəstəkləyən şəxslərdir. İndiyə qədər 48 ölkədən 780 nəfərin qanunsuz tutularaq orada saxlanılması, onların qeyri-insani hərəkətlərə, işgəncələrə məruz qalması, yeddi nəfərin intihar, ikisinin böyük ehtimal işgəncələr səbəbindən vəfat etməsi bütün beynəlxalq təsisatlar və insan hüquqları təşkilatları tərəfindən daim şiddətlə qınanılıb. Bu gün də orada 30 nəfər məhkəməsiz və ya heç bir istintaq aparılmadan saxlanılır. Nəyə görə? Çünki ABŞ rəsmilərinin ürəyi belə istəyir. Yaxşısı budur ki, konqresmenlər bu məsələ ilə bağlı Entoni Blinkenə müraciət etsinlər.

Qeyd olunan məktubda həmçinin Beynəlxalq Ədalət Məhkəməsinin qərarının Azərbaycan tərəfindən icra olunmaması barədə qeyd var. Bununla bağlı ABŞ Konqresinin ermənipərəst təmsilçilərinə kiçik bir xatırlatma etmək istərdim. Beynəlxalq Ədalət Məhkəməsi yaranandan orada ABŞ-yə qarşı haradasa 15 iddia qaldırılıb. Bunların içində

1984-cü ildə İran–Kontras qalmaqalı ilə hər kəs kimi onlar da tanışdırlar. “Nikaraquada və ona qarşı hərbi və hərbiləşdirilmiş fəaliyyətlər” adlı Nikaraquanın ABŞ-yə qarşı iddiasını Beynəlxalq Ədalət Məhkəməsinin təmin etməsini, ABŞ-nin məhkəmə qərarını saymamasını, məsələnin sonradan BMT Təhlükəsizlik Şurasına çıxarılmasını və ABŞ tərəfindən veto qoyularaq xitam edilməsini konqresmenlər hər halda unutmayıblar.

Bu hadisəyə görə ABŞ-nin 1986-cı ildə Beynəlxalq Ədalət Məhkəməsinin məcburi yurisdiksiyasından çıxdığını xatırlamaq isə, məncə, tam yerinə düşərdi. Özlərinin saymadığı məhkəməyə istinad edərək bizə qarşı şərböhtan kampaniyası aparmaq, məncə, riyakarlığın ən bariz nümunələrindən biridir.

Bu 60 konqresmenin və yaxud məktubu yazan şəxsin erməni sevgisi o qədər güclüdür ki, bir an müraciətin COP29 və Azərbaycanla bağlı olduğu unudulur və orada ABŞ–Ermənistan münasibətlərinin gücləndirilməsindən, Türkiyə ilə Ermənistan arasında sərhədlərin açılmasından, eləcə də Ermənistanın Rusiyadan enerji asılılığına son qoyulması kimi məsələlərdən söhbət açılır. Əgər bu məktub bizimlə bağlıdırsa, sual olunur, ABŞ–Ermənistan, Türkiyə–Ermənistan və ya Rusiya–Ermənistan əlaqələrinin bura nə aidiyyəti var?

Müraciəti imzalayanların içində Nümayəndələr Palatasının Nyu-Cersidən olan üzvü Robert Menendesin adı diqqətimi xüsusi ilə cəlb etdi. Bir az araşdırandan sonra bu şəxsin uzun illər erməni lobbisinin əlində alət olaraq ölkəmizə qarşı istifadə etdiyi keçmiş senator Robert Menendesin oğlu olduğunu müəyyən etdim. O həmin məşhur senatordur ki, bu il siyasi korrupsiya cinayətlərinə görə məsuliyyətə cəlb ediləndə bütün günahı erməni əsilli

arvadı Nadin Arslanyanın üzərinə yıxmağa çalışırdı. Bu hadisədən həm Menendesin özü, həm atasının dünənə kimi yaxın həmkarları olan Adam Şif, Frenk Pallone, Bred Şerman və digərləri, həm də Nadin Arslanyan kimi onlara dəstək verən ermənilər dərs çıxarmalıdırlar. Çünki gec və ya tez hər iki tərəfi Menendes və Arslanyan cütlüyünün acı aqibəti gözləyir.

Nəhayət, anti-Azərbaycan qüvvələr anlamalıdırlar, bu gün nə Azərbaycan Prezidenti, nə də dövləti öz gücünə və nüfuzuna görə 1991-ci ildə müstəqilliyini yenicə bərpa etmiş bir ölkənin prezidenti və dövlət deyil ki, onlar bizimlə istədikləri tonda və formada danışa bilsin, hansısa sanksiyalarla hədələsinlər!

**Sahib Alıyev.** Dünyanın bir sıra yerlərində "rəngli inqilab" yolu ilə ideoloji işğal həyata keçirənlərin Azərbaycanın İkinci Qarabağ savaşındakı qələbəsini və torpaqları üzərində suverenliyinin təminini həzm etməmələrinin kökündə eyni siyasəti burada da yeritmək niyyətləri durur. Əslində, ideoloji işğal bir sıra hallarda fiziki işğaldan daha təhlükəlidir ki, biz onu dost ölkələrdən birinin düşdüyü vəziyyətdə görürük. Ötən əsrin 90-cı illərində Türkiyədən, Polşadan, Macarıstandan daha böyük iqtisadi potensialı olan bu ölkə indi tam şəkildə Qərbdəkilərdən asılıdırsa, dozalarla göstərdikləri yardımlarına möhtacdırsa, plasdarmlarına çevrilibsə, hətta artıq özünün insan resurslarının önəmli bir hissəsi üzərində belə nəzarəti itiribsə, bunun adı işğal deyil də, bəs nədir?

Ötən əsrin 40-cı illərinin ikinci yarısında Almaniya və Koreya kimi ikiyə, yəni təsir zonalarına bölünmək üçün görülən hazırlıqlar da ondan xəbər vermirmi ki, orada da bir deyil, azı iki işğalçıdan söhbət gedir. Nə olsun ki, onlardan biri sərt, digəri isə yumşaq güc tətbiq etməklə

istədiyini reallaşdırır, nə fərqi var, nəticə ki eynidir.

Oxşar işğalçılıq siyasəti bölücü xətlər çəkməklə hazırda bizim regionda da reallaşdırılmağa çalışılır ki, aprelin 5-də Brüsseldə keçirilən üçlü görüşdən sonra bu, daha açıq-aydın görünməkdədir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin oktyabrın 4-də Cəbrayılda etdiyi xəbərdarlıqdan Ermənistan rəhbərliyi düzgün nəticə çıxarmalı, onları yeni qarşıdurmaya həvəsləndirən ABŞ, Fransa və digərlərinin heç də haymərkəzli deyil, hayalətli siyasət yeritdiklərini və yenə bunun ağrısını çəkəcəklərini anlamalıdırlar.

Qərbdəkilər, o sıradan da öz-özünə yazdığı müraciəti 60 konqresmenə imzalatdıran ABŞ dövlət katibi Blinken də bilməlidirlər ki, çirkli planları yürüməyəcək. Əli azərbaycanlıların qanına batan hərbi cinayətkarları və terrorçuları buraxdırmaq, bölgəni yenidən qan çanağına çevirmək cəhdləri Azərbaycanda hiddət doğurur və asimmetrik də olsa, cavabsız buraxılmayacaq.

Əli Kərimlinin, eləcə də guya azərbaycanlı sayılan digər muzdlu nökərlərinin, legion üzvlərinin Qərbdəki bəlli çevrələrin yeritdikləri siyasətə haqq qazandırmağa çalışmaları həmin ünsürlərin mənəvi tənəzzülün hansı dərinliyində olduqlarını göz önünə sərməkdən başqa nəyisə dəyişən deyil. Burada ideoloji işğal mümkünsüzdür. Çünki nə Azərbaycan indiki kimi güclü, nə də hakimiyyət–xalq birliyi indiki qədər möhkəm olub. Müzəffər Ali Baş Komandanımızın əmrinə müntəzir bu ordu, xalq kimdən gəlməsindən asılı olmayaraq bütün təhlükələri dəf etmək qüdrətindədir.

# MÜNDƏRİCAT

8 oktyabr 2024-cü il............................................................. 3
Edilməmiş çıxışların mətnləri............................................. 133

Yeddinci çağırış

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİ İCLASLARININ

PROTOKOLLARI
VƏ
STENOQRAMLARI

Birinci sessiya
Payız

3-cü cild

8 oktyabr 2024-cü il

Buraxılışına məsul
***Hafiz Babayev***

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi  9,5. Sifariş 101. Tiraj 150.